# BU NÖMRƏDƏ


Məktəbəqədər konsepsiya (layihə) .......... 3

*Fənlərin tədrisi*

**Qarayeva R.** Azərbaycan dili dərslərində interaktiv metodlardan istifadə .......... 26
**Əzizova S.** Rabitəli nitqin inkişafında interaktiv metodlardan istifadə .......... 29
**Əliyev İ.** Eyni çevirmələrin tətbiqinin öyrədilməsi .......... 33
Şagirdlərin fiziki tərbiyəsində ümuminkişafetdirici çalışmalar .......... 36
**Seyidov E.** Təsviri sənət dərslərində kompüterdən istifadə .......... 42

*Qabaqcıl təcrübə*

**Əhmədova L.** II sinifdə həndəsi fiqurlardan istifadə etməklə oyunların təşkili .......... 39

*Məktəbəqədər tərbiyə*

**Həsənova R.** Kollektivdə sağlam mühitin yaradılması onun rəhbərindən asılıdır .......... 49
**Məmmədova A., Abbasova F.** Folklor aləminə səyahət .......... 52
**Ağayeva E., Soltanova M.** Fəsillərin bəhsi .......... 57
**Əhmədova C.** "Yol hərəkəti qaydalarını öyrənirik" mövzusunda məşğələlərdə testlərdən istifadə .......... 63

*Tərbiyə məsələləri*

**Əliyeva G.** Əmək tə'limi və şəxsiyyətin inkişafı .......... 68

*Psixologiya məsələləri*

**Məmmədov İ.** Məktəbə psixoloji hazırlıq məsələləri .......... 70

*İllik yekun yoxlama və nəzarət işi*

Ana dili .......... 74

*Sizin iş yoldaşlarınız*

**İsgəndərov İ.** Nüfuz iş prosesində qazanılır .......... 92

*Gənc iste'dadlar*

**Həsənli O.** Qönçəyəm açmamışam .......... 95
**Mədədli A.** Ayselin duyğuları .......... 96



Baş redaktor: **Y.Ş.Kərimov**
Redaksiya hey'əti: A.Muradov, M.Musayev, N.Əliyeva, A.Həsənov, V.Xəlilov, N.Alnağıyeva, S.Həmidov, Ə.Hüseynov, L.Məmmədova, R.Süleymanova.
Yığılmağa verilmiş: 20.02.2004. Çapa imzalanıb: 28.02.2004.
Kağız formatı 70x100 1/16. Şərti çap vərəqi 6.
Sifariş № 005. Tirajı 1000. Qiyməti 8000 manat.
Redaksiyanın ünvanı: 370010, Bakı, Azərbaycan prospekti, 40. Telefon: 93-84-41.
[illegible] mətbəəsində çap edilmişdir

Layihə

# MƏKTƏBƏQƏDƏR TƏRBİYƏ KONSEPSİYASI

## Giriş

Müasir mərhələdə millətin sağlamlığı və intellektinin qorunması, ailə və ictimai tərbiyə şəraitində uşaqların tərbiyəsi və inkişafı probleminin həlli mərkəzi məsələ hesab olunur. Ona görə də müstəqil Azərbaycanın dünya standartlarına uyğun tə'lim sistemini yaratmaq işinə onun ilkin pilləsi olan məktəbəqədər tərbiyə və tə'limin təkmilləşməsindən başlamaq lazımdır. Bunsuz gələcəyin hərtərəfli, ahəngdar inkişaf etmiş şəxsiyyətini formalaşdırmaq, onları müstəqil həyata hazırlamaq mümkün olmaz.

Kiçikyaşlı uşaqların inkişafına çəkilən zəhmət perspektiv investisiyadır. O, uşaqların həyatlarının bütün mərhələlərində bar verəcək. Bu investisiyadan uşaqlar, yaşlılar, məktəbəqədər müəssisə və bütün cəmiyyət xeyir görə bilər. Məktəbəqədər tərbiyə müəssisələri ölkəmizdə pedaqoji siyasətin yeniləşməsi və inkişaf etdirilməsinin mərkəzində olmalıdır.

Təhsilin inkişafının perspektivlərinin müəyyənləşdirilməsi çox mürəkkəb işdir. Bu işin müvəffəqiyyətlə həlli yalnız düşünülmüş nəzəri konsepsiyaya əsaslanmalıdır. Konsepsiya mürəkkəb sosial-pedaqoji problemlərin qeyri-elmi, qeyri-professional həllinə cəhdlərin qarşısını alır. Məktəbəqədər tərbiyə və tə'lim konsepsiyası yalnız həmin müəssisələrin kollektivinə deyil, təhsil sisteminin bütün işçilərinə, məktəbəqədər tərbiyənin tərəqqisi ilə maraqlanan hər kəsə, valideynlərə geniş ictimaiyyətə ünvanlanır.

Anadan olandan məktəbə gələnədək keçən dövr ciddi cəhdlə fiziki və psixi keyfiyyətlərin, insana bütün sonrakı həyatı boyu zəruri olan, onu kamil insan, vətəndaş edən keyfiyyət və xassələrin ilkin formalaşması dövrüdür. Bu dövrü sonrakı inkişaf mərhələlərindən fərqləndirən onun gələcəkdə hər hansı xüsusi bilik, bacarıq və vərdişlərin, müxtəlif növ fəaliyyətin əldə edilməsi geniş dünyagörüşə yiyələnmək üçün bünövrə rolunu oynamasıdır.

Analıq və uşaqlıq ölkəmizin iqtisadi, siyasi və mədəni həyatı ilə bilavasitə bağlıdır və gələcəkdə də bağlı olacaqdır. Məktəbəqədər tərbiyə həmişə analığa və uşaqlığa sosial kömәkdə, genofondun qorunmasında strateji cəhətdən mühüm rol oynayır.

Təhsil işçilərinə, pedaqoji ictimaiyyətə təqdim olunan bu konsepsiya uzunmüddətli dövr üçün dəyişilməz sənəd kimi nəzərdə tutulmur. Konsepsiya resept xarakterli sorğu sənədi deyil. O, məktəbəqədər tərbiyənin perspektiv istiqamətlərinin təfsilatı ilə açılmasını da nəzərdə tutmur. Konsepsiyanın vəzifəsi məktəbəqədər tərbiyə və tə'lim sahəsində uğursuzluqların səbəblərini aşkara çıxarmaq, meydana çıxmış sosial-pedaqoji problemlərin həllinə istiqamət vermək, praktik və nəzəri nəticələri və tövsiyələri həyata keçirməyə imkan verən şəraiti əsaslandırmaqdır. Məktəbəqədər tərbiyə sahəsində çalışan işçilərin, alimlərin gündəlik yaradıcı fəaliyyəti, hər hansı nəzəri müddəalardan daha üstündür. Ona görə də təqdim olunan konsepsiya zaman-zaman zəruri korrektənin aparılmasına, əlavələrin edilməsinə mə'ruz qala bilər. Konsepsiya layihəsinin geniş müzakirəsi, şübhəsiz, onun müəyyən dövr üçün dəyərli dövlət sənədi kimi təsdiq olunmasına şərait yaradacaqdır.

Uzun illərdən bəri məktəbəqədər tərbiyə müəssisələrinin rolu və əhəmiyyəti lazımınca qiymətləndirilməmiş və bu sahədə pedaqoji potensialdan qeyri-qənaətbəxş istifadə olunmuşdur. Halbuki insanın sonrakı inkişafı, onun qabiliyyəti və sosial əhəmiyyətli keyfiyyətinin formalaşması üçün məhz məktəbəqədər yaş böyük əhəmiyyət kəsb edir. Məktəbəqədər yaşda müəyyən psixi funksiyaların inkişafının

intensivliyi pedaqoji tə'sirin xüsusi səmərəliliklə həyata keçirilməsinə, uşaqların ahəngdar tərbiyəsi vəzifəsinin müəvəffəqiyyətlə həll edilməsinə imkan verir.

Məktəbəqədər yaşın axırlarında uşaqlarda tədris fəaliyyətinin imkanları intensiv inkişaf edir. Uşaqların çox böyük imkanlarını nəzərə almaq və həyata tətbiq olunmasına şərait yaratmaq ictimai tərbiyənin və ailə tərbiyəsinin başlıca vəzifələrindən biridir. Bu keyfiyyətlərin sonrakı inkişafını məktəb tə'min etməlidir.

Hazırki dövrdə məktəbəqədər müəssisələr uşaqların tərbiyəsi sahəsində cəmiyyətin tələblərini hələ ödəyə bilmir. Respublikada məktəbəqədər tərbiyə müəssisələrinin sayı azdır. Bə'zi qruplarda uşaqların sayının çox olması tə'lim-tərbiyənin keyfiyyətini aşağı salır, onların səhhətinə mənfi tə'sir göstərir. Uşaq bağçalarının əksəriyyətində müasir tə'lim vasitələri, metodik vəsait, idman avadanlığı olmadığından tə'lim-tərbiyə işini lazımi səviyyədə qurmaq çətindir. Pedaqoji kadrların hazırlanması və yenidən hazırlanması sisteminin yeniləşdirilməsinə ehtiyac var. Uşaq bağçası və məktəbdə tərbiyə və tə'lim işinin təşkili arasında varislik zəifdir. Bu gün uşaq bağçalarında işin kökündən dəyişməsi, məktəbəqədər yaşlı uşaqlarda müstəqillik, fəallıq və yaradıcılıq qabiliyyətini sür'ətlə və intensiv inkişaf etdirən tərbiyə və tə'limin yeni formasının işlənməsi problemi kəskin şəkildə qoyulur. Bu gün uşaqların qarşılıqlı münasibətində, müsbət emosiyaların bolluğunu, onların estetik, mə'nəvi, əmək və fiziki tərbiyəsinin əsl mə'nada ahəngdar inkişafını tə'min etmək mühüm məsələ kimi qarşıda durur.

Ailədə uşaqların tərbiyəsi də məktəbəqədər ictimai tərbiyə ilə sıx bağlıdır. Şübhəsizdir ki, ailə uşağın ətraf aləmə münasibətinin əsasını qoymaqla kamil insan şəxsiyyətinin formalaşmasına güclü tə'sir göstərir. Bir-birini əvəz edən nəsillər zəncirində öz yerini dərk etməkdə məhz ailə ən'ənələri uşağa güclü tə'sir göstərir. Uşaq özünü xalqının çoxəsrlik tarixinin, milli mədəniyyətinin iştirakçısı kimi hiss edir. Uşaq ailədə xeyirxahlıq və qəddarlıq, vicdanlılıq, namusluluq, ürəyiyumşaqlıq, intizamlılıq və məs'uliyyətliliyin nə olması haqqında ilkin təsəvvürlərə yiyələnir. Onda ilkin müsbət keyfiyyətlər formalaşır. Ailədə xeyirxah mə'nəvi-psixoloji iqlimin olması şəxsiyyətin formalaşması, məktəbdə uşağın müvəffəqiyyətlə oxuması üçün e'tibarlı əsas yaradır. Ona görə də ailə bu işə əmək kollektivləri və ictimai təşkilatları cəlb etməli, ailənin möhkəmlənməsi, ailə tərbiyəsinin inkişafı və onun sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün maddi və mə'nəvi stimul yaratmalıdır. Perspektivdə hər bir ailə öz uşağı üçün onun tərbiyəsi və məktəbə hazırlanmasında üç təşkilat formasından birini seçmək imkanına malik olmalıdır: ev forması; ictimai forma (məktəbəqədər müəssisədə); qarışıq forma (ailə şəraitində xarici dili öyrənmə, fiziki tərbiyə, musiqi, rəsm üzrə pullu qrupa davam etməklə tə'lim, tərbiyə və inkişaf).

## Uşaq və cəmiyyət

Müstəqil, suveren Azərbaycanda təhsil sisteminin demokratiya və humanizm prinsipinə əsaslanması uşağı tə'lim-tərbiyə prosesinin mərkəzinə qoyur, onun bərabərhüquqlu iştirakçısı hesab edir. İnsan amili onun inkişafı, yetkinləşməsi, həyata, müstəqil fəaliyyətə hazırlanması bir nömrəli problem hesab olunur. Təhsilin humanistləşdirilməsi hər bir uşağa erkən yaşlardan hörmətlə yanaşmağı, onun istək və arzusunu, bacarıq və qabiliyyətini nəzərə almağı, inkişafını tə'min etməyi irəli sürür. Problemin belə qoyulması amirliyi aradan qaldırmağı, tərbiyəçinin hökmünün mexaniki şəkildə həyata keçirilməsinin qarşısını almağı tələb edir. Tərbiyəçi hər bir şəxsin fərdi xüsusiyyətlərini nəzərə almaqla iste'dadları aşkara çıxarmalı, onların inkişafı üçün əlverişli şərait yaratmalıdır. Praktik pedaqoqlar,

alimlər cəhd göstərməlidirlər ki, yeni mərhələdə məktəbəqədər yaşlı uşaqların inkişaf sistemi, hər şeydən əvvəl, şəxsi, fərdi yaş xüsusiyyətlərinə yönəlsin, bütövlükdə isə onlar valideynlərin və cəmiyyətin tələblərini tə'min etsinlər.

Ölkəmizdə böyüməkdə olan nəslə qayğı mühüm dövlət işidir. Ana və uşaqların sağlamlığının mühafizəsi sistemi, məktəbəqədər yaşlı uşaqların ictimai tərbiyəsi daim diqqət mərkəzindədir. Bu sistem cəmiyyətin vəzifələrinə, ailənin maraqlarına uyğun olmaqla gənc nəslin hərtərəfli, ahəngdar inkişafını tə'min edir, analara məhsuldar əməkdə, ölkənin ictimai-siyasi və mədəni həyatında fəal iştirak etmək, övladlarının tərbiyəsi ilə məşğul olmaq, öz üzərində işləmək imkan yaradır.

Uşağın düzgün tərbiyə olunması üçün uzun illərdən bəri formalaşmış münasibət tərzi dəyişməlidir. XIX əsrin axırları XX əsrin əvvəllərindən möhkəmlənmiş "Nə ədəb vaxtıdır, qoy söysün, ufaqdır uşağım" (M.Ə.Sabir) psixologiyası sovet hakimiyyəti illərində dəyişdi. Xüsusilə XX əsrin 30-cu illərindən məktəbəqədər tərbiyə müəssisələrinin şəbəkəsi genişlənəndə körpəlik dövründən başlayaraq onların tərbiyəsi prosesinə ciddi tələblər verildi, qadağalar qoyuldu. Milli mənsubiyyətindən, yaşadığı coğrafi şəraitindən, ictimai mənşəyindən, cinsindən asılı olmayaraq hamının tərbiyəsi qəlibə salındı. "Hamının başını bir cür qırxmaq" təşəbbüsü nəticə e'tibarilə formal cəhətdən bir-birinə bənzəyən, yarışüurlu fəaliyyət göstərən nəsil yetişdirdi.

İstər uşağın tərbiyəsinə laqeydlik, onun həyatın axınına buraxılması, özbaşına tərbiyə olunacağına, yetişəcəyinə inanmaq, istərsə də uşağa həddən artıq "qayğı" ilə yanaşaraq himayədarlıq etmək; "buna əl vurma", "ona yaxınlaşma", "bunu bacarmazsan", "böyüyəndə biləcəksən" və s. sözlərlə onu həddən artıq qorumaq nəticə e'tibarilə onun inkişafına, şəxsiyyət kimi formalaşmasına güclü zərbə vurur. Müasir dövrdə məktəbəqədər yaşlı uşaqların tərbiyəsinə yanaşmada bu halların hər ikisi rədd edilir. İndi cəmiyyət uşaqlığa özünü əvəz edəcək mərhələ kimi baxır və münasibətini bu əsasda qurur. "Uşaqlar bizim gələcəyimizdir" kəlamı fəaliyyətimizin əsasına qoyulur. Uşağın gələcək həyata hazırlanması tərbiyə siyasətimizin başlıca istiqamətidir. Vəzifəmiz uşaqların sağlamlığını qorumaq, onları tərbiyə etmək, onlara tə'lim verməkdir.

Uşağın doğulduğu, ilkin körpəlik dövrünü keçirdiyi mikromühit, fərdi xüsusiyyətləri, məktəbəqədər tərbiyə müəssisəsinə nə vaxtdan daxil olması, tərbiyəçinin pedaqoji taktı, onun inkişafının məzmununu və sür'ətini müəyyən edir.

Adətən, xalqımızın uşaqcanlı olması, uşaqlara qayğı ilə yanaşması, onları əzizləməsindən söz açırlar. Bu, qismən doğrudur, lakin bə'zən formal xarakter daşıyır. "Yaxşı nə varsa, uşaqlara" şüarı şüar olaraq qalır. Uşağı çox əzizləmək, öpüb oynatmaq, yemək və paltarla tə'min etmək bir sözlə, onun "çaldığı mahnı ilə oynamaq" heç də onun tərbiyəsinin əlverişli metodu deyil.

Erkən yaşdan uşaqların düzgün tərbiyəsi dövlətin və ictimaiyyətin xüsusi qayğısını tələb edir. İqtisadi vəziyyət hələ uşaqların məktəbəqədər ictimai tə'limini düzgün təşkil etmək imkanı vermir. Ölkəmizdəki məktəbəqədər yaşlı uşaqların 80 faizə qədəri körpələr evi-uşaq bağçalarına qəbul olunmur. Məktəbəqədər tərbiyə müəssisələrinin ərzaqla təchizi, ərzağın kolorisinin tibbi tələblərə uyğunluğu qeyri-qənaətbəxşdir. Məktəbəqədər tərbiyə müəssisələrinin şəbəkəsinin genişləndirilməsi imkanları məhduddur. Bu müəssisələrin əyani vəsait, didaktik material, texniki vasitələrlə təchizi, tərbiyəçilərin peşə hazırlığının artırılması, valideynlərin pedaqoji maarifinin təşkili, ictimaiyyət arasında pedaqoji-psixoloji və tibbi yardımın genişləndirilməsi sahəsində ciddi çatışmazlıqlar mövcuddur. Bütün bunlar uşaqların fiziki və psixoloji hazırlığına, məktəbə, həyatlarının sonrakı mərhələsinə hazırlanmalarına maneə yaradır.

Uşaqlarımızın xoşbəxt olmaq hüququnu həyata keçirmək üçün Azərbaycan məktəbəqədər müəssisələrinin işinin əsaslı şəkildə yeniləşdirilməsi vacibdir. Bunun üçün uşaqların fiziki və psixi sağlamlığının möhkəmləndirilməsi, təhsilləndirmə işinin məqsədi və prinsiplərinin humanistləşdirilməsi, uşaqların həyatının və tərbiyəçilərin iş şəraitinin "təhkimçilikdən" azad olması, uşağın sosial dairələri arasında varisliyin yaranması, pedaqoji kadrların hazırlanmalarının xarakterində əsaslı dönüşün baş verməsi lazımdır.

Şəxsiyyətin formalaşmasında məktəbəqədər uşaqlığın rolu böyükdür. Doğulduğu gündən məktəbə qəbul olunanadək keçən dövr uşağın daha ciddi cəhdlə fiziki və psixi inkişaf yaşı, bütün sonrakı həyatında insana zəruri olan, onu kamil şəxsiyyət kimi yetişdirən keyfiyyət və xassələrin ilkin formalaşması dövrü hesab olunur. Bu dövrün xüsusiyyətləri inkişafın sonrakı mərhələlərindən fərqlənir. Məhz bu dövr sonralar hər hansı xüsusi biliklər və vərdişlərin əldə edilməsi və müxtəlif növ fəaliyyətin mənimsənilməsinin əsası olmaqla, uşağın ümumi inkişafını tə'min edir. Psixi inkişafın bu dövrə məxsus yaş imkanları, məktəbəqədər yaşlı uşaqların yaşlarına uyğun fəaliyyət növləri - oyun, nitq ünsiyyəti, rəsm, quraşdırma, musiqi fəaliyyəti və s. təkmilləşir. Fəaliyyətin bu növlərinin təşkili, onlara rəhbərlik, onların sərbəst, müstəqil xarakterə yiyələnmələri daim pedaqoqların diqqət mərkəzində olmalıdır.

Uşaqların digər psixi xassələri və qabiliyyətlərinin, formalaşması da zəruridir, lakin irəliyə qaçma, vaxtından əvvəl tələblərin verilməsi, inkişafın sün'i şəkildə sür'ətləndirilməsi qorxuludur. Uşaqların fəaliyyət növlərinə, xarici aləmi məntiqi dərketmə qabiliyyətinə düşünülmüş şəkildə rəhbərlik olunarsa, onlarda yeni psixoloji keyfiyyətlərin yaranmasını, nəticə e'tibarilə uşaqlığın yeni pilləsinə keçilməsi tə'min ediləcəkdir.

Hər hansı yaş pilləsində uşaq yalnız bütün uşaqlara xas olan psixoloji əlamətləri deyil, həm də psixika və davranışın şəxsi, fərdi xassələrini də əldə edir. İnsan olmaq heç də "hamı kimi olmaq" ("hamı kimi hərəkət etmək", "hamıya bənzəmək") demək deyil, hər şeydən əvvəl, təkrar olunmaz fərd deməkdir. Hər bir uşağın öz xarici görünüşü kimi öz zövqü, öz marağı və öz qabiliyyəti olmalıdır.

Tərbiyə və tə'limdə yalnız yaş və fərdi yanaşmalar vəhdətdə olduqda onların emosional uğurluluğunu və psixi inkişafını tə'min etmək mümkündür.

Məktəbəqədər ictimai tərbiyə problemini müvəffəqiyyətlə həll etmək üçün pedaqogika elmi demoqrafiya, tibb, sosiologiya, psixologiya və digər fənlərin əsasında çoxfaktorlu təhlil aparmalıdır.

Eşitmə, görmə qabiliyyəti, nitqi nöqsanlı, dayaq-hərəki aparatı, intellekti qüsurlu uşaqlar üçün xüsusi tə'yinatlı yeni müəssisələr açılır. Bu, belə uşaqların tərbiyəsi ilə məşğul olmağa mə'ruz qalan ailələrə intensiv kömək göstərməyə imkan yaradır. Belə uşaqların fiziki inkişafının yaxşılaşdırılmasına bütün əlaqədar təşkilatlar cəlb edilir.

## Uşaqlarla pedaqoji işin məqsəd və prinsiplərinin humanistləşdirilməsi

Məktəbəqədər tərbiyənin səmərəliliyi, onun humanistləşdirilməsi uşağın yaşlılarla ünsiyyətinin xarakteri ilə müəyyən edilir. Tərbiyə prosesində yaşlıların uşaqla ünsiyyətini iki əsas tipə (modelə) ayırmaq olar. Onlar yalnız prosesə görə deyil, həm də son nəticəyə görə, axırda uşağın necə olması, onun şəxsiyyətinin necə formalaşması ilə müəyyənləşir.

**1. *Tə'lim intizam modeli.*** Bu model aşağıdakı əlamətlərlə səciyyələnir.

Məqsəd: uşaqların bilik, bacarıq, vərdişlərlə silahlandırılması; itaətə alışdırılması; yaşlılarla uşaqların qarşılıqlı fəaliyyəti zamanı "Mənim kimi elə" tələbinə əməl olunması.

Ünsiyyət qaydaları: öyüd-nəsihət, izahetmə, qadağa, tələb, hədə, qışqırma, cəzalandırma.

Taktika: hökm (göstəriş, əmr), himayədarlıq.

Tərbiyəçinin mövqeyi: proqramı həyata keçirmək, rəhbərliyin və nəzarətedici təşkilatların tələblərini yerinə yetirmək.

Belə şəraitdə metodik göstərişlər heç bir istisnaya yol verməyən qanuna çevrilir. Pedaqoji prosesin mərkəzində isə uşaqlarla frontal iş formaları və hər şeydən əvvəl, məktəb dərs tipi üzrə qurulmuş məşğələlər durur. Zahiri, formal intizamın gözlənməsi uşaqların fəallığını məhdudlaşdırır. Uşaqların əsas fəaliyyət növü olan oyunun keçirilməsi vaxtı və müddəti yaşlılar tərəfindən dəqiq müəyyənləşdirilir. Bu model çərçivəsində incəsənət əsərləri yaşlılar tərəfindən utilitar (mənfəət, fayda güdən) məqsədlərlə natamam bilik qazanmaq, uşağı arzuolunmaz hərəkətlərdən, xoşagəlməz davranışdan yayındırmaqdan ötrü istifadə edilir. Bu isə tə'lim prosesinin humanist, inkişafetdirici mahiyyətini saxtalaşdırır. Nəticədə yaşlılarla uşaqlar arasında bir soyuqluq, inamsızlıq, uzaqlaşma baş verir. Uşaqlar təşəbbüskarlığını itirir, gələcəkdə onlarda neqativizm (hər cür tə'sirə qarşı əbəs müqavimət) meylləri özünü göstərir. Yaşlılarda belə tərbiyəvi tə'sirin səmərəliliyinə aldadıcı inam əmələ gəlir. İtaətkarlıq uşaqları "ikili standart"la - "özü üçün" və "başqası üçün" yaşamaq kimi yanlış vərdişə yiyələnmələrinə gətirib çıxarır.

2. ***Şəxsiyyətəyönümlü model.*** Bu model birinci modelə alternativdir. Tərbiyəçi uşaqlarla ünsiyyət zamanı birlikdə fəaliyyət prinsipini rəhbər götürür: Onun məqsədi uşağın şəxsiyyət kimi formalaşmasına yardım etməkdir. Bu, aşağıdakı vəzifələri həll etməyi nəzərdə tutur: uşaqda ətraf aləmə, həyata inam və yaşamaq sevinci hisslərini inkişaf etdirmək (psixoloji sağlamlıq); şəxsiyyətin başlanğıcının formalaşdırılması (şəxsi mədəniyyət bazisi); uşağın fərdi xüsusiyyətlərinin inkişafı.

Tərbiyəedən hər bir uşağın inkişafını zorla nə vaxtsa müəyyənləşdirilmiş qaydalara uyğunlaşdırmır, əksinə şəxsiyyətin inkişafında qarşıya çıxa biləcək çətin vəzifələri əvvəlcədən xəbər verir. Ünsiyyət prosesində şagirdə verdiyi onun imkanlarının proqramlaşdırılmış şəkildə artmasına deyil, əksinə şəxsiyyətin inkişafına tə'sir göstərən, onun maksimum dərəcədə yüksəlməsini tə'min edən tələbi və gözlədiyini əlaqələndirir. Ünsiyyət qaydalarına uşağın tərəfində durmaq, onun fikrini nəzərə almaq, hiss və həyəcanlarına e'tinasızlıq göstərməmək daxildir. Ünsiyyət taktikası - qarşılıqlı əməkdaşlıqdır. Tərbiyəçi uşağın marağı və cəmiyyətin tamhüquqlu üzvü kimi onun gələcək inkişafının perspektivləri mövqeyindən çıxış edir.

Yaşlılar uşağı incəsənətə (bədii ədəbiyyat, təsviri sənət, xoreoqrafiya, musiqi və s.) istiqamətləndirməklə, şəxsiyyətin hərtərəfli inkişafı üçün onun humanistləşdirilməsi, birlikdə yaradıcılıqdan həzz alması, uşağın bədii yaradıcılıq qabiliyyətlərinin üzə çıxarılıb inkişaf etdirilməsi üçün tam şərait yaradırlar. Uşaq əməkdaşlıq şəraitində tamhüquqlu tərəf müqabilinə çevrilir.

Pedaqoji prosesdə oyunun əhəmiyyəti əvəzsizdir. Uşaq oyun vasitəsilə şəxsi fəallığını nümayiş etdirir, özünü tam şəkildə büruzə verir. Uşağın aparıcı fəaliyyət növü olan oyun yaşlıların uşaqlarla və uşaqların bir-biri ilə sərbəst əməkdaşlığına əlverişli şərait yaradır. İnkişafda olan subyektin sərbəstlik dərəcəsinin artması onun bacarıq, hüquq və perspektivlərinin genişlənməsi gözlənilən nəticələrdir. Əməkdaşlıq şəraitində uşağın eqosentrizminin (xudpəsəndliyin ifrat dərəcəsi) və fərdiyyətçiliyinin qarşısı alınır, kollektiv formalaşır. Uğursuzluqdan və gülünc vəziyyətə düşmək qorxusu ilə sıxılmayan uşaqların təxəyyülü və təfəkkürü azad

olur, qeyri-müstəqilliyi aradan qaldırılır, idrakı və yaradıcılıq qabiliyyətləri inkişaf edir. Ünsiyyətin istiqamətləndirilmiş modeli tə'lim-tərbiyə prosesini uşaqlarla sistematik tə'limin dəyişilməsini nəzərdə tutmur.

## Məktəbəqədər tərbiyə müəssisəsinin quruluşu

Məktəbəqədər tərbiyə müəssisələri yalnız hamının adət etdiyi körpələr evi-uşaq bağçası ilə məhdudlaşmır. Bu gün müxtəlif tip məktəbəqədər müəssisələrinin fəaliyyət göstərməsinə ehtiyac hiss olunur. Onların quruluşu hansı prinsiplərə istinad etməlidir:

- məktəbəqədər tərbiyə müəssisələrinin bütün növlərinin və bütün mərhələlərinin vəhdəti;
- hər bir pillədə məktəbəqədər tərbiyə sisteminin bütün komponentlərinin-məqsəd, məzmun, metod, vasitə və təşkilat formalarının varisliyi;
- regionun xüsusiyyətlərini və milli ən'ənələri, həmçinin tərbiyə almağın müxtəlif kanallarını nəzərə almaqla, çevik, dinamik strukturun qurulması imkanlarının variativliyi;
- uşaqların yaş psixofizioloji xüsusiyyətlərinə onların yaradıcı inkişafına uyğun körpələr evi-uşaq bağçalarının tikilməsinə imkan verən uyğunlaşma.

Məktəbəqədər yaşlı uşaqlığın aşağıdakı yaş dövrləri elmi cəhətdən əsaslandırılmış, qrupların belə komplektləşdirilməsi lazım bilinmişdir: körpə yaşlı 1-ci və 2-ci kiçik qrupda 8 nəfər; körpəlik dövrünün böyük, uşaq bağçası dövrünün kiçik qrupunda 8-10 nəfər; uşaq bağçası dövrünün orta, böyük və məktəbə hazırlıq qrupunda 15 nəfərə qədər.

Sanatoriya tipli uşaq bağçalarının qruplarında uşaqların sayı 6-8 nəfər olur. Ailədə təşkil olunmuş qruplara isə ən çoxu 5 uşaq cəlb edilir.

Zəruri hallarda, xüsusilə azkomplektli məktəbəqədər müəssisələrdə, tə'lim Azərbaycan dilində olan müəssisələrin tə'lim rus dilində olan qrupları, həmçinin tə'lim rus dilində olan müəssisələrin tə'lim Azərbaycan dilində olan qrupları müxtəlifyaşlı uşaqlarla komplektləşdirilir.

Məktəbəqədər tərbiyə və tə'lim müəssisələri beşgünlük, yaxud altıgünlük iş rejimində fəaliyyət göstərə bilər. İş rejimi həmin ərazidə yerləşmiş istehsalat müəssisələrinin xarakterindən, valideynlərin, xüsusilə anaların məşğuliyyətindən, arzularından asılı olur.

Uşaq bağçasının hazırlıq qruplarını bitirənlər orta ümumtəhsil məktəbinin I sinfinə qəbul edilirlər. Uşaq bağçasının hazırlıq qrupunu bitirən iste'dadlı (ümumi hazırlığı normal, oxu və yazı texnikasına yiyələnmiş, 20 dairəsində hesablamağı, estetik fənlər üzrə kifayət qədər hazırlığı olan, psixoloji cəhətdən təhsil almağa hazır) uşaqlara müstəsna hal kimi Təhsil Nazirliyinin razılığı ilə təhsilini II sinifdə davam etdirməyə imkan verilir.

Məktəbəqədər müəssisələrdə uşaqların tərbiyəsi və tə'limi dövlət dili olan Azərbaycan dilində aparılır. Valideynlərin arzusu ilə uşaqlar əlavə olaraq digər xalqların dillərində də təhsil ala bilərlər.

### a) Məktəbəqədər müəssisə - məktəb kompleksi

Məktəbəqədər tərbiyə müəssisələri Təhsili Nazirliyi sistemində, həmçinin idarə və müəssisələrin nəzdində fəaliyyət göstərir. Bu müəssisələr körpələr evi; uşaq bağçası; körpələr evi - uşaq bağçaları; uşaq bağçası - məktəb; körpələr evi-uşaq bağçası-məktəb şəklində fəaliyyət göstərə bilər. Müasir dövrdə dünya təcrübəsi

"məktəbəqədər müəssisə - məktəb", "məktəb-bağça" kompleksinin yaradılmasını məqbul hesab edir. Belə müəssisələrdə qarşılıqlı anlaşma, varislik hökm sürür. I sinifdə altıyaşlıların bağça rejimində fəaliyyət göstərmələri (gündə üç dəfə qidalanmaları, gündüz yuxusu, oyun fəaliyyəti və gəzintilərin təşkili və s.) onların sağlam və gümrah böyümələrinə, tə'limin maraqlı olmasına tə'sir göstərir. Belə kompleksin əsasnaməsi hazırlanmalı, pedaqoji kollektiv tə'limatlandırılmalıdır.

Əhalisi sayca az olan yerlərdə məktəbəqədər müəssisələri ibtidai məktəblə birləşdirmək, müəssisəni körpələr evi - uşaq bağçası - məktəb, uşaq bağçası – məktəb adlandırmaq olar.

"Uşaq bağçası-məktəb" kompleksinin kənd məktəblərində təşkili daha vacibdir, çünki kəndlərin böyük əksəriyyətində ayrıca məktəbəqədər tərbiyə müəssisələrinin təşkili üçün imkan yoxdur. Məktəbəqədər müəssisə ilə məktəb arasında varisliyin möhkəmləndirilməsi məqsədilə uşaq bağçalarında kabinet (fənn istiqamətli) sisteminə keçilməsinin səmərəliliyi eksperimental yolla yoxlanmalıdır.

## b) Evdə uşaq bağçası

Məktəbəqədər yaşlı uşaqları ictimai tərbiyə ilə əhatə etmək, çoxuşaqlı analara qayğı göstərmək məqsədilə evlərdə uşaq bağçaları yaradıla bilər. Belə müəssisələr pedaqoji, tibbi təhsili olan çoxuşaqlı ananın təşəbbüsü (razılığı) ilə onun evində təşkil edilir. İmkan olan ailələrdə bu məqsədlə iki otaq ayrılır, birində uşaqlar yeyir, məşğələlərdə iştirak edir, digərində isə onların gündüz yuxusu təşkil olunur.

Evdə uşaq bağçasına ananın məktəbəqədər yaşlı uşaqları, yaxın qonşularının, qohumlarının uşaqları cəlb edilir. Belə bağçalar azkomplektli olur. Orada 3, 4, 5 yaşlı uşaqlar tərbiyə alırlar. Bu da tərbiyəçinin işini xeyli çətinləşdirir.

Evdə uşaq bağçalarının təşkilinə dövlətin köməyi və nəzarəti vacibdir. Bağça üçün mebel, avadanlıq dövlət tərəfindən verilməlidir. Tərbiyəçi valideynlərin hesabına əmək haqqı alır və uşaqları yedizdirir. Belə müəssisələrdə tərbiyə və tə'limin təşkilinə xidmət edəcək metodik ədəbiyyat, didaktik material isə Respublikanın Təhsil Nazirliyi tərəfindən tə'min edilir. Evdə bağçanın üstün cəhətləri aşağıdakılardır:

- hər şeydən əvvəl, evdə uşaq bağçasına tanış (qohum) uşaqlar cəlb olunduğundan kiçik kollektiv tez formalaşır;
- xalq pedaqogikasına üstünlük verilir və millilik gözlənir;
- uşaqlar ailə adət və ən'ənələrinə yiyələnirlər;
- özünəxidmət, evdarlıq tərbiyəsi uğurlu təşkil olunur;
- uşaqlar qarışıq qruplarda fəaliyyət göstərdiklərindən müxtəlif yaşlı uşaqlar arasında qarşılıqlı münasibətlərin düzgün təşkili mümkün olur;
- gün rejimini daha səmərəli təşkil etmək mümkün olur;
- uşaqların fərdi xüsusiyyətlərinin nəzərə alınması asanlaşır.

Bütün bunlar ictimai tərbiyənin digər növlərinin üstünlüklərinə qarşı qoyulmur, əksinə az sayda olsa da, belə bağçaların yaradılmasını əsaslandırır. Evdə uşaq bağçalarının yaradılması məktəbəqədər yaşlı uşaqların tərbiyə sisteminə cəlb olunmaları və onların məktəb tə'liminə hazırlanmalarının mühüm sahələrindən biridir.

## c) Xüsusi tə'yinatlı məktəbəqədər müəssisələr

Fiziki və əqli inkişafı pozulmuş uşaqların tərbiyəsi və tə'limi xüsusi diqqət tələb edir. Eşitmə, görmə qabiliyyəti, nitqi pozulmuş uşaqlar üçün fəaliyyət göstərən məktəbəqədər tərbiyə müəssisələrinin əsasnamələri, fəaliyyət dairəsinin məzmunu fizioloji, psixoloji, pedaqoji və metodik cəhətdən diqqətlə, elmi əsaslarla işləndik-

dən sonra Respublika Təhsil Nazirliyi tərəfindən təsdiq olunur. Həmin müəssisələr müvafiq mütəxəssislərlə tə'min olunur, lazımi avadanlıq və ləvazimatla təchiz edilir.

Sağlamlıq imkanları məhdud olan uşaqlar üçün məktəbəqədər müəssisələrinin hər yerdə təşkili mümkün olmadığından onların Bakı şəhərində təşkil edilmiş müəssisələrə cəlbi vacibdir. Ölkəmizdə əqli və fiziki inkişafı defektli uşaqların müstəqil həyata hazırlanmaları üzrə yüksək humanist sistem yaranmalıdır. İnkişafı məhdud olan uşaqlarla işin mütəşəkkil təşkil olunması üçün surdoloqopedik mərkəz, psixonevrologiya dispanseri, birləşmiş uşaq xəstəxanası təşkil olunur. Belə müəssisələrdə tərbiyə və təhsil işi xüsusi tədris planı, proqram, dərslik və rejim əsasında elə təşkil olunmalıdır ki, uşaqlar itirilmiş fərdlər deyil, cəmiyyətin bərabərhüquqlu üzvləri, həyatın bu və ya digər sahəsində fəaliyyət göstərə biləcək, faydalı işlə məşğul olacaq şəxsiyyət vətəndaş kimi həyata hazırlaşsınlar.

Onların həyatda fəal iştirakını tə'min etmək üçün daim korreksiyaedici təglim üzrə iş getməlidir. İnkişafı qüsurlu olan uşaqlar üçün bütün məktəbəqədər müəssisələr dövlət tərəfindən tam tə'min olunmalıdır. Eşitmə, görmə qabiliyyəti, nitqi, əqli fəaliyyəti, dayaq-hərəki aparatı pozulmuş uşaqlar üçün xüsusi tə'yinatlı tərbiyə-müalicə xarakterli müəssisələr yaradılmalıdır. Xüsusi məktəbəqədər müəssisələrin işinin normal təşkili üçün sahə nazirlikləri ilə (səhiyyə nazirliyi, sosial müdafiə nazirliyi və b.) birgə işin aparılması zəruridir.

Bu müəssisələrdə müalicə, korreksiya, səsi və görməni gücləndirən apparatların, proqramların və tə'limati-metodik materialların mütəxəssis tərbiyəçilərin, müəllim-loqopedlərin, müəllim defektoloqların təchizi işi yaxşılaşdırılmalıdır. Korreksiya işi ona yönəldilməlidir ki, uşaq yalnız müəyyən bacarığa yiyələnməsin, həm də ahəngdar inkişaf etsin. Hər bir uşaq klassik pedaqogika və psixologiyanın tələb etdiyi səviyyəyə nail olmağa qabildir. Anomal uşaqların ictimai tərbiyəsinin əhəmiyyəti təbliği gücləndirilməlidir. Məktəbə keçənədək bu uşaqlar xüsusi, hətta ümumi məktəblərdə təhsil almağa tam hazır olmalıdırlar.

### ç) Müəssisə uşaq bağçaları

Azərbaycanda dövlət məktəbəqədər müəssisələri ilə yanaşı ayrı-ayrı nazirliklərin nəzdində fəaliyyət göstərən körpələr evi-uşaq bağçaları da mövcuddur. Hazırda respublikamızda 68 belə müəssisə fəaliyyət gösətrir. Həmin müəssisələrin təchizatı və tə'minatı tabe olduqları nazirliklərdən asılıdır. Onlara pedaqoji, psixoloji və metodik istiqamət isə Respublika Təhsil Nazirliyi tərəfindən verilir.

## Məktəbəqədər tərbiyə müəssisələrində pedaqoji işin məzmunu

Humanist istiqamət daşıyan hər hansı konsepsiya inkişaf etmiş şəxsiyyətin formalaşdırılmasının ümumi məqsədindən irəli gəlir. Bu münasibətlərdə uşaqlıq aləmi də kənarda qalmır. İnkişafa istiqamətlənmə uşağın həyatının sevinclə, xoşbəxtliklə zənginləşdirilməsində konkretləşir. Məktəbəqədər uşaqlığın qiymətliliyinin qəbul olunması və şəxsiyyətin formalaşdırılmasında onun ilk mərhələ olmasının başa düşülməsi bu sahədə pedaqoji işin məzmununun bir daha diqqətlə nəzərdən keçirilməsini tələb edir.

Məktəbəqədər dövrdə uşaq şəxsi mədəniyyətin əsaslarını, insanın mə'nəvi qiymətinin bazisini əldə edir. Şəxsiyyət mədəniyyətinin bazisinin tərkibinə uşağın varlığının əsas dörd fəaliyyət dairəsinə bələd olması daxildir: təbiət, insanın əli ilə

yaranmış əşyalar, ictimai həyatın hadisələri, nəhayət, şəxsi həyatı və fəaliyyətində baş verən hadisələr.

Şəxsiyyət mədəniyyətinin bazisini xüsusilə insanda insani hisslərin başlanğıcı, ümumbəşəri dəyərlərin (gözəllik, xeyirxahlıq, həqiqət və s.) və həyat fəaliyyəti vasitələri (gerçəklik haqqında təsəvvürlər, ətraf aləmə fəal tə'sir yolları, həyatda baş verənlərə emosional - qiymətləndirici münasibət) təşkil edir.

Şəxsiyyət mədəniyyətinin bazisinin yaranması - uşağın bə'zi yerlərdə müəyyən vaxtda və bir qrup adam üçün dəyərli görünənlərə yox, məhz qeyri-dəyişkən, ümumi insani dəyərlərə yiyələnməsi deməkdir. Bu zaman məktəbəqədər yaş dövründə tə'lim və tərbiyə prosesi yalnız şərti olaraq ayrıla bilər.

Ətraf aləmə fəal münasibətlərin əhəmiyyəti və vasitələrinin verilməsini yalnız uşaqların yaş xüsusiyyətlərini nəzərə almaqla həyata keçirmək olar.

## Uşağın sağlamlığının mühafizəsi və möhkəmləndirilməsi

İlkin uşaqlıq uşağın ümumi inkişafının bünövrəsi, bəşəriyyətin start dövrü, başlanğıcıdır. Məhz körpənin sağlamlığının əsası onun həyatının ilk illərində qoyulur. Uşağın bir insan kimi tam sağlam olması və inkişafı məktəbəqədər dövrün bir nömrəli məsələsidir. Ona görə də məktəbəqədər tərbiyə, hər şeydən əvvəl, uşağın fiziki və psixoloji sağlamlığına xidmət etməlidir. Uşaqların fiziki sağlamlığının tə'min edilməsi inspektor və valideynlərin daimi nəzarəti altında olur. Tərbiyəçinin işini tənzim edən bütün sənədlərdə uşağın fiziki sağlamlığının qayğısına qalmaq bu və ya digər şəkildə öz əksini tapır. Uşağın psixoloji sağlamlığı isə çox vaxt arxa plana çəkilir, bə'zən tamamilə unudulur. Əslində isə uşağın düzgün inkişafına nail olmaqdan ötrü onun psixoloji sağlamlığının tə'min edilməsi çox əhəmiyyətlidir. Sağlam bədəndə sağlam ruh olar.

Uşaq bağçasında tərbiyə və tədris işləri uşaqların yaş anatomiyası, fiziologiyası və uşaq psixologiyası ilə müəyyən edilir. Uşaqlığın mühüm xüsusiyyətlərindən biri ondan ibarətdir ki, uşağın psixi inkişafı intensiv fiziki inkişafı və əsəb sistemi strukturunun yetişməsi ilə sıx əlaqədə baş verir. Hər bir yaşa uyğun boyun, çəkinin, döşün və başın həcminin müəyyən göstəriciləri olur. Boyun uzanması sür'ətinə genetik (irsi), ahəngdar faktorlarla yanaşı xarici mühitin, qidalanma və iqlim şərtləri də tə'sir göstərir. Həyat şəraiti yalnız boya və bədənin kütləsinə deyil, həm də bütün orqanların və orqanizmin sistemli inkişafına tə'sir göstərir. Uşağın fiziki inkişafı üçün onun psixi vəziyyəti böyük rol oynayır. Uşağın orqanizminin normal inkişafı, onun əsəb sistemi tam, kamil psixi inkişafı üçün əlverişli şərait yaradır. Bununla belə, hər hansı psixi keyfiyyətlər öz-özünə şəxsiyyəti qabiliyyətli olmağa gətirib çıxarmır. Burada tərbiyənin və ünsiyyətin rolu böyükdür. Uşağın beyni erkən dövrdə çox intensiv inkişaf edir. Yenicə doğulmuş uşağın beyninin çəkisi yaşlılarınkının 25 faizini təşkil edir. 6 aylığında bu nisbət 50 faizə, 2 yaşında 75 faizə, 5 yaşında 90 faizə çatır. Bədən çəkisinin artması ilə beyinin strukturu da təkmilləşir, boy artımı və əsəb hüceyrələrinin diferensə olunması baş verir. Əsəb lifləri qoruyucu haramiliyi qabığı ilə örtülür. Beynin xarici aləmin çox rəngarəng əlaqələrin yaranmasından ibarət funksiyasının formalaşması onun yetişməsi ilə sıx əlaqədardır. Bununla yanaşı, əsəb hüceyrələrinin funksiyalaşması onların artması üçün zəruri şərtdir. Təəssüratın kifayət qədər olmaması (sensor aclıq) hüceyrələrin yetişməsini ləngidir, daha ağır hallarda onları inkişafdan saxlayır.

Məktəbəqədər yaşlı uşaqlar arasında somatik və psixi pozuntuları olanlara da rast gəlmək mümkündür. 3-6 yaşlı uşaqların hər biri xəstəlik üzündən il ərzində təxminən 50-60 gün müəssisəyə davam etməyə bilər. Uşaqların dörddə biri

xəstələnərsə, qalanlar karantində olur. Müşahidələr göstərir ki, hər il piylənmədən əziyyət çəkən uşaqların sayı 1 faiz artır. Belə uşaqların 85 faizinin ürək-damar sistemi xəstə olur ki, bu da onların ömrünün 5 ildən 20 ilədək azalması ilə nəticələnir. Onların 50 faizi ciddi psixoloji uğursuzluqlara mə'ruz qalır, psixo-korreksiya tələb edir. İnfeksiya və soyuqdəymə xəstəliklərinin miqdarı stixiyalı fəlakət xarakteri alır. Nə pediatorlar, nə də valideynlər bunun öhdəsindən gələ bilmirlər. Uşaqların mütləq əksəriyyəti məktəbəqədər dövrdən başlayaraq artıq hərəkətsiz böyüyür, zəiflikdən əzab çəkirlər.

Fiziki tərbiyənin aktual vəzifəsi uşaqlarda hərəkətə tələbatın yaranması əsasında məktəbəqədər yaşda hərəki dairənin inkişafının təkmilləşdirilməsi üçün səmərəli vasitələrin axtarılmasıdır. Hərəkətə marağın inkişafı uşağın yaşıdları ilə qarşılıqlı fəaliyyətdə möhkəm, cəsur, çevik olmağa həyati tələbat əsasında keçirilir. Bununla əlaqədar olaraq xüsusi avadanlıq və trenajorlardan istifadə etməklə hərəkətli oyunlar və idman oyunları prosesində uşaqların tə'limi və müstəqil məşqləri arasında optimal uyğunluğun elmi cəhətdən əsaslandırılmasının zəruriliyi qarşıya çıxır.

Fiziki tərbiyənin müxtəlif vəzifələrinin həllində mühüm yer həm uşaqlar, həm də yaşlılar - pedaqoqlar və valideynlər arasında sağlam həyat tərzinin təbliğinə yönəlmiş gigiyena tərbiyəsi və tə'liminə məxsusdur.

Məktəbəqədər müəssisənin ştat cədvəlinə fiziki mədəniyyət mütəxəssisinin daxil edilməsi (təsərrüfat hesablı ola bilər) məqsədəuyğundur. Bu mütəxəssis əsas məşğələdən başqa qamətin pozulması, hərəki fəallığının aşağı olması, zəifləmiş, tez-tez xəstələnən və başqa uşaqların sağlamlığının tə'min edilməsi üçün əlavə məşğələlər də keçirməlidir. Əlavə məşğələləri gəzinti zamanı və xüsusi ayrılmış sərbəst vaxtlarda keçirmək lazımdır.

Uşaqların fiziki, psixi sağlamlığı və emosional inkişafı vəhdət təşkil edir. Bu vəzifəni yerinə yetirmək üçün yalnız fiziki tərbiyənin və tibb müəssisələrinin imkanları ilə kifayətlənmək olmaz. Məktəbəqədər müəssisələrdə uşaqların həyat və fəaliyyətinin, fənni və sosial mühit rejimini təşkil etmək müxtəlif fəaliyyət növlərinin təşkilində uşaqların yaş və fərdi xüsusiyyətləri nəzərə alınmaqla təşkil edilməlidir.

İnteryerin və xarici qaydanın gözlənməsi xatirinə uşağı yalnız xüsusi fiziki mədəniyyət məşğələlərinə cəlb etməklə təbii hərəki fəallıqdan məhrum etmək olmaz.

Uşaq bağçasının rejiminə hər gün fiziki mədəniyyət məşğələsi, açıq havada oyunlar və əyləncələr daxil edilir. Bütün bunlar uşaq müəssisəsinin yerləşdiyi rayonun ekoloji mühit, regionun iqlim şəraiti nəzərə alınmaqla yerinə yetirilir. Uşaq müəssisəsini su hovuzu ilə, müasir fiziki mədəniyyət avadanlığı ilə təchiz etmək lazımdır. İdman - sağlamlaşdırıcı kompleksin, məktəb stadionunun, mikro-rayondakı su hovuzunun imkanlarından geniş şəkildə istifadə etmək vacibdir. Uşaq bağçasının "açıq sistem" kimi fəaliyyət göstərməsi onun şəxsi imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir.

Uşağın bədəninin mürəkkəb orqanizm sistemi, ona qulluq qaydası haqqında biliklərə yiyələnməsi, şəxsi sağlamlığına qayğı ilə yanaşması üçün əsasdır. Uşağın öz bədəninə qulluq etməsini ən'ənəvi qadağalarda (məsələn, "Uzun müddət televizora baxmaq olmaz" və s.) deyil, məntiqi izahatla ("Nə üçün baxmaq olmaz?") aparmaq lazımdır. Şəxsi gigiyena qaydalarını, gün rejimini gözləməsi gözlərini, səsini, qulaqlarını qorumağın zəruriliyini başa düşməsi, şəxsi sağlamlığına qayğı ilə yanaşması onun məktəbə hazırlanmasının, məktəbdə müvəffəqiyyətlə təhsil almasının mühüm, ayrılmaz hissəsidir.

Uşağın sağlamlığının başlıca şərti emosional uğurluluqdur. İndiki dövrdə bu məsələ xüsusi aktuallıq kəsb edir. Həyatda yaşlıların rast gəldikləri çətinliklər, keçirdikləri stres uşaqların psixikasına neqativ tə'sir göstərir. Öz emosiyalarını dərk

yaranmış əşyalar, ictimai həyatın hadisələri, nəhayət, şəxsi həyatı və fəaliyyətində baş verən hadisələr.

Şəxsiyyət mədəniyyətinin bazisini xüsusilə insanda insani hisslərin başlanğıcı, ümumbəşəri dəyərlərin (gözəllik, xeyirxahlıq, həqiqət və s.) və həyat fəaliyyəti vasitələri (gerçəklik haqqında təsəvvürlər, ətraf aləmə fəal tə'sir yolları, həyatda baş verənlərə emosional - qiymətləndirici münasibət) təşkil edir.

Şəxsiyyət mədəniyyətinin bazisinin yaranması - uşağın bə'zi yerlərdə müəyyən vaxtda və bir qrup adam üçün dəyərli görünənlərə yox, məhz qeyri-dəyişkən, ümumi insani dəyərlərə yiyələnməsi deməkdir. Bu zaman məktəbəqədər yaş dövründə tə'lim və tərbiyə prosesi yalnız şərti olaraq ayrıla bilər.

Ətraf aləmə fəal münasibətlərin əhəmiyyəti və vasitələrinin verilməsini yalnız uşaqların yaş xüsusiyyətlərini nəzərə almaqla həyata keçirmək olar.

## Uşağın sağlamlığının mühafizəsi və möhkəmləndirilməsi

İlkin uşaqlıq uşağın ümumi inkişafının bünövrəsi, bəşəriyyətin start dövrü, başlanğıcıdır. Məhz körpənin sağlamlığının əsası onun həyatının ilk illərində qoyulur. Uşağın bir insan kimi tam sağlam olması və inkişafı məktəbəqədər dövrün bir nömrəli məsələsidir. Ona görə də məktəbəqədər tərbiyə, hər şeydən əvvəl, uşağın fiziki və psixoloji sağlamlığına xidmət etməlidir. Uşaqların fiziki sağlamlığının tə'min edilməsi inspektor və valideynlərin daimi nəzarəti altında olur. Tərbiyəçinin işini tənzim edən bütün sənədlərdə uşağın fiziki sağlamlığının qayğısına qalmaq bu və ya digər şəkildə öz əksini tapır. Uşağın psixoloji sağlamlığı isə çox vaxt arxa plana çəkilir, bə'zən tamamilə unudulur. Əslində isə uşağın düzgün inkişafına nail olmaqdan ötrü onun psixoloji sağlamlığının tə'min edilməsi çox əhəmiyyətlidir. Sağlam bədəndə sağlam ruh olar.

Uşaq bağçasında tərbiyə və tədris işləri uşaqların yaş anatomiyası, fiziologiyası və uşaq psixologiyası ilə müəyyən edilir. Uşaqlığın mühüm xüsusiyyətlərindən biri ondan ibarətdir ki, uşağın psixi inkişafı intensiv fiziki inkişafı və əsəb sistemi strukturunun yetişməsi ilə sıx əlaqədə baş verir. Hər bir yaşa uyğun boyun, çəkinin, döşün və başın həcminin müəyyən göstəriciləri olur. Boyun uzanması sür'ətinə genetik (irsi), ahəngdar faktorlarla yanaşı xarici mühitin, qidalanma və iqlim şərtləri də tə'sir göstərir. Həyat şəraiti yalnız boya və bədənin kütləsinə deyil, həm də bütün orqanların və orqanizmin sistemli inkişafına tə'sir göstərir. Uşağın fiziki inkişafı üçün onun psixi vəziyyəti böyük rol oynayır. Uşağın orqanizminin normal inkişafı, onun əsəb sistemi tam, kamil psixi inkişafı üçün əlverişli şərait yaradır. Bununla belə, hər hansı psixi keyfiyyətlər öz-özünə şəxsiyyəti qabiliyyətli olmağa gətirib çıxarmır. Burada tərbiyənin və ünsiyyətin rolu böyükdür. Uşağın beyni erkən dövrdə çox intensiv inkişaf edir. Yenicə doğulmuş uşağın beyninin çəkisi yaşlılarınkının 25 faizini təşkil edir. 6 aylığında bu nisbət 50 faizə, 2 yaşında 75 faizə, 5 yaşında 90 faizə çatır. Bədən çəkisinin artması ilə beyinin strukturu da təkmilləşir, boy artımı və əsəb hüceyrələrinin diferensə olunması baş verir. Əsəb lifləri qoruyucu haramiliyi qabığı ilə örtülür. Beynin xarici aləmin çox rəngarəng əlaqələrin yaranmasından ibarət funksiyasının formalaşması onun yetişməsi ilə sıx əlaqədardır. Bununla yanaşı, əsəb hüceyrələrinin funksiyalaşması onların artması üçün zəruri şərtdir. Təəssüratın kifayət qədər olmaması (sensor aclıq) hüceyrələrin yetişməsini ləngidir, daha ağır hallarda onları inkişafdan saxlayır.

Məktəbəqədər yaşlı uşaqlar arasında somatik və psixi pozuntuları olanlara da rast gəlmək mümkündür. 3-6 yaşlı uşaqların hər biri xəstəlik üzündən il ərzində təxminən 50-60 gün müəssisəyə davam etməyə bilər. Uşaqların dörddə biri

xəstələnərsə, qalanlar karantində olur. Müşahidələr göstərir ki, hər il piylənmədən əziyyət çəkən uşaqların sayı 1 faiz artır. Belə uşaqların 85 faizinin ürək-damar sistemi xəstə olur ki, bu da onların ömrünün 5 ildən 20 ilədək azalması ilə nəticələnir. Onların 50 faizi ciddi psixoloji uğursuzluqlara mə'ruz qalır, psixo-korreksiya tələb edir. İnfeksiya və soyuqdəymə xəstəliklərinin miqdarı stixiyalı fəlakət xarakteri alır. Nə pediatorlar, nə də valideynlər bunun öhdəsindən gələ bilmirlər. Uşaqların mütləq əksəriyyəti məktəbəqədər dövrdən başlayaraq artıq hərəkətsiz böyüyür, zəiflikdən əzab çəkirlər.

Fiziki tərbiyənin aktual vəzifəsi uşaqlarda hərəkətə tələbatın yaranması əsasında məktəbəqədər yaşda hərəki dairənin inkişafının təkmilləşdirilməsi üçün səmərəli vasitələrin axtarılmasıdır. Hərəkətə marağın inkişafı uşağın yaşıdları ilə qarşılıqlı fəaliyyətdə möhkəm, cəsur, çevik olmağa həyati tələbat əsasında keçirilir. Bununla əlaqədar olaraq xüsusi avadanlıq və trenajorlardan istifadə etməklə hərəkətli oyunlar və idman oyunları prosesində uşaqların tə'limi və müstəqil məşqləri arasında optimal uyğunluğun elmi cəhətdən əsaslandırılmasının zəruriliyi qarşıya çıxır.

Fiziki tərbiyənin müxtəlif vəzifələrinin həllində mühüm yer həm uşaqlar, həm də yaşlılar - pedaqoqlar və valideynlər arasında sağlam həyat tərzinin təbliğinə yönəlmiş gigiyena tərbiyəsi və tə'liminə məxsusdur.

Məktəbəqədər müəssisənin ştat cədvəlinə fiziki mədəniyyət mütəxəssisinin daxil edilməsi (təsərrüfat hesablı ola bilər) məqsədəuyğundur. Bu mütəxəssis əsas məşğələdən başqa qamətin pozulması, hərəki fəallığının aşağı olması, zəifləmiş, tez-tez xəstələnən və başqa uşaqların sağlamlığının tə'min edilməsi üçün əlavə məşğələlər də keçirməlidir. Əlavə məşğələləri gəzinti zamanı və xüsusi ayrılmış sərbəst vaxtlarda keçirmək lazımdır.

Uşaqların fiziki, psixi sağlamlığı və emosional inkişafı vəhdət təşkil edir. Bu vəzifəni yerinə yetirmək üçün yalnız fiziki tərbiyənin və tibb müəssisələrinin imkanları ilə kifayətlənmək olmaz. Məktəbəqədər müəssisələrdə uşaqların həyat və fəaliyyətinin, fənni və sosial mühit rejimini təşkil etmək müxtəlif fəaliyyət növlərinin təşkilində uşaqların yaş və fərdi xüsusiyyətləri nəzərə alınmaqla təşkil edilməlidir.

İnteryerin və xarici qaydanın gözlənməsi xatirinə uşağı yalnız xüsusi fiziki mədəniyyət məşğələlərinə cəlb etməklə təbii hərəki fəallıqdan məhrum etmək olmaz.

Uşaq bağçasının rejiminə hər gün fiziki mədəniyyət məşğələsi, açıq havada oyunlar və əyləncələr daxil edilir. Bütün bunlar uşaq müəssisəsinin yerləşdiyi rayonun ekoloji mühit, regionun iqlim şəraiti nəzərə alınmaqla yerinə yetirilir. Uşaq müəssisəsini su hovuzu ilə, müasir fiziki mədəniyyət avadanlığı ilə təchiz etmək lazımdır. İdman - sağlamlaşdırıcı kompleksin, məktəb stadionunun, mikrorayondakı su hovuzunun imkanlarından geniş şəkildə istifadə etmək vacibdir. Uşaq bağçasının "açıq sistem" kimi fəaliyyət göstərməsi onun şəxsi imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir.

Uşağın bədəninin mürəkkəb orqanizm sistemi, ona qulluq qaydası haqqında biliklərə yiyələnməsi, şəxsi sağlamlığına qayğı ilə yanaşması üçün əsasdır. Uşağın öz bədəninə qulluq etməsini ən'ənəvi qadağalarda (məsələn, "Uzun müddət televizora baxmaq olmaz" və s.) deyil, məntiqi izahatla ("Nə üçün baxmaq olmaz?") aparmaq lazımdır. Şəxsi gigiyena qaydalarını, gün rejimini gözləməsi, gözlərini, səsini, qulaqlarını qorumağın zəruriliyini başa düşməsi, şəxsi sağlamlığına qayğı ilə yanaşması onun məktəbə hazırlanmasının, məktəbdə müvəffəqiyyətlə təhsil almasının mühüm, ayrılmaz hissəsidir.

Uşağın sağlamlığının başlıca şərti emosional uğurluluqdur. İndiki dövrdə bu məsələ xüsusi aktuallıq kəsb edir. Həyatda yaşlıların rast gəldikləri çətinliklər, keçirdikləri stres uşaqların psixikasına neqativ tə'sir göstərir. Öz emosiyalarını dərk

etmək, onların səbəblərini başa düşmək, konkret situasiyada öz münasibətini dəyişməyə cəhd göstərmək, emosional uğurluluğu qorumaqda uşağa kömək edə bilər.

Özünütanıma uşaqlarda özünütərbiyə üçün əsas yaradır. Onlar öz emosiyalarını cilovlamağı öyrənirlər. Uşaqlarda qarşıya çıxmış problemə öz münasibətini dəyişmək qabiliyyəti yaratmaq tələb olunur.

Uşaqlarla müalicə profilaktika işi və məktəbəqədər uşaq müəssisələrinin tibb işçiləri ilə tə'min olunmasını səhiyyə müəssisələri yerinə yetirir.

## Uşaqların tərbiyəsi və tə'limində onların yaş xüsusiyyətlərinin nəzərə alınması

Uşaqlarla tərbiyə işinin hər bir mərhələsində onların yaş xüsusiyyətlərinin nəzərə alınması, onlara həssaslıqla yanaşılması son dərəcə vacibdir.

Uşaq həyatının ilk altı ilində öz inkişafının üç əsas dövrünü yaşayır: çağalıq, körpəlik və məktəbə hazırlıq. Onların hər biri ümumbəşəri dəyərlərin və xarici aləmi emosional mənimsəmənin və dəyişmənin yeni imkanlarının dərk olunmasını səciyyələndirən, sür'ətləndirən müəyyən addımdır. Həyatın bu dövrləri uşağın mümkün olan nailiyyətləri və psixi inkişaf dairəsi ilə bir-birindən fərqlənir. Hər bir əvvəlki, sonrakının meydana gəlməsi üçün şərait yaradır. Onlar sün'i şəkildə bir-birinə qarşı qoyula bilməz.

I. Çağalıq dövrü (həyatın birinci ili). Bu dövr, uşağın meydana gəlməsi imkanları ilə səciyyələnir. Bu dövrdə inkişafı belə xarakterizə etmək mümkündür:

İdrak inkişafı. Həyatının birinci ilinin axırında uşaq ətraf aləmin sadə xassələrinə bələdləşir: ona müraciət olunanda ayrı-ayrı sözlərin mə'nalarını anlamağa başlayır, daha yaxın adamları fərqləndirir, öz bədənindən və xaricdən nəş'ət edən duyğuları fərqləndirməyin elementləri hiss olunur. Beləliklə o, daxili və xarici aləmi diferensiallaşdırır: əşya qavrayışının başlanğıcı toplanır: Südəmərlik dövrünün axırında uşaqda bir şeyi əldə etmək üçün digərindən istifadə etmək üzrə, əyani fəal təfəkkürün yaranması üzrə ilkin əlamətlər özünü göstərir.

Sərbəstliyin inkişafı. Uşaqda onu məqsədə çatmağa aparan hərəkətlər formalaşır: uzandığı, əyləşdiyi halda bədənini o tərəf - bu tərəfə çevirir, əşyaya əl atıb tutur, onu əlində saxlayır.

Emosional inkişaf. Südəmərliyin ortalarında uşağın üzündə təbəssüm özünü göstərir. O öz təbəssümü ilə başqalarından cavab gözlədiyindən bu proses artıq sosial xarakter daşıyır. Onda xarici aləmə e'tibar, inam hissi formalaşır. Bu isə insanlara, fəaliyyətə, gələcək həyatında özünə müsbət münasibətə dayaq yaradır.

II. Körpəlik dövrü (1yaşdan 3 yaşadək). Bu dövr sonrakı yaş dövrünün yaranması və müvəffəqiyyətlə keçməsi üçün güclü potensiala malikdir. Körpələr evi: körpəlik dövrünün birinci kiçik qrupu - 1 yaşadək; körpəlik dövrünün ikinci kiçik qrupu - 1 yaşdan 2 yaşadək; körpəlik dövrünün böyük, uşaq bağçası dövrünün kiçik qrupu - 2 yaşadan 3 yaşadək; uşaq bağçası dövrünün orta qrupu - 3 yaşdan 4 yaşadək; bağça dövrünün böyük qrupu - 4 yaşdan 5 yaşadək, bağça dövrünün məktəbə hazırlıq qrupu - 5 yaşdan 6 yaşadək.

İdrak inkişafı. Uşağa xarici aləmi onun davamlı, daimi, əlaqələrində stabil aləm kimi görmək imkanı açılır. Bu aləmdə hər şey nəyi isə bildirir, nəyə isə lazımdır. Uşaq öz həyatında müəyyən yer tutan insanlar arasında fərqi («özününkü», «yad») müəyyənləşdirir; şəxsi adını öyrənir. Onda şəxsi «mən»inin əhatə dairəsi haqqında təsəvvür formalaşır. Əşyavi qavrayış və əyani-fəal təşəkkül tapır. Təfəkkürün əyani-obrazlı növünə keçid baş verir.

Sərbəstliyin inkişafı. Əşyalarla fəaliyyət göstərmək prosesində uşaq fiziki xassələr də mənimsəyir, sahədə onları idarə etməyi və məkanda yerlərini dəyişməyi öyrənir. Öz hərəkətini əlaqələndirməyə başlayır. Nitqə yiyələnmə əsasında onda şəxsi davranışını (başlıca olaraq yaşlıların göstərişinə əməl etməyi) idarə etməyin başlanığıcı özünü göstərir.

Həyəcanların inkişafı. Muxtariyyat və şəxsi dəyər (özünəhörmət) hissləri baş qaldırır, yaxın adamlara, yaşlılara məhəbbət özünü göstərir.

III. Məktəbəqədər hazırlıq dövrü. (3 yaşdan 6 yaşadək). Bu dövrdə uşağın sonrakı idrakı, iradi və emosional inkişafı üçün potensial toplanır.

İdraki inkişaf. Uşağın qavrayışında xarici aləm həmişə davamlı deyil, həm də nisbi kimi çıxış edə bilər. Bu zaman inkişafın əvvəlki dövründə toplanmış fəaliyyətin şərti planı obrazlı təfəkkürün elementlərində təcəssüm olunur və yaradıcı, məhsuldar təxəyyüldə yenidən canlanır. Şüurun simvolik funksiyasının əsası formalaşır, sensor və intellektual qabiliyyət inkişaf edir. Dövrün axırına yaxın uşaq özünü başqa adamın yerinə qoymağa başlayır: baş verənlərə başqasının mövqeyindən baxmaq və onların fəaliyyətinin motivini anlamaq; məhsuldar fəaliyyətin gələcək nəticələrinin obrazını müstəqil qurmaq. Körpə gerçəkliyin təbii və əllə yaradılan aləmin iki dairəsini ("Mən özüm", başqa adamlar) fərqləndirməyə sə'y göstərən körpədən fərqli olaraq, məktəbəqədər yaşın axırlarında uşaqda bu dairələrin hər birinin müxtəlif cəhətləri haqqında təsəvvür formalaşdırmaq imkanları meydana çıxır. Onda qiymətin mahiyyətini anlama və özünüqiymətləndirmə sə'yləri özünü göstərir.

İradi inkişaf. Uşaq erkən yaş dövrünə xas olan yaşlıları «qlobal təqlidcilik» mərhələsindən qurtarır. O, artıq başqa adamın iradəsinə qarşı dura bilir. İdrakı, şəxsi iradi və emosional özünidarənin elementləri özünü göstərir. Uşaq situativ davranışa qarşı çıxmağa qabil olur.

Emosional inkişaf. Uşağın emosiyası qeyri-iradilikdən (tez qızışmaqdan), bir anlıq coşmaqdan azad olur. Onda məs'uliyyətlilik, ədalətlilik, bağlılıq və s. kimi hisslərin əsası qoyulur, təşəbbüskarlıq fəaliyyətindən şadlıq formalaşır; yaşıdları ilə qarşılıqlı əlaqə zamanı sosial emosiyanın inkişafı üçün yeni təkan alır. Uşaq özünü qabiliyyətli şəxsə oxşatmaq qabiliyyətinə yiyələnməyə başlayır. Bu onda ümumbəşəri başlanığıcı, başqalarından fərqlənmək və fərdi inkişafı tə'min etmək qabiliyyəti yaradır. Şəxsi həyəcanların ümumiləşdirilməsi, başqalarının və öz hərəkətlərinin nəticələrinin emosional üstünlüyü baş qaldırır. Emosiya «ağıllı» şəkil alır.

Uşağın emosional inkişafı ilə yanaşı tərbiçilər qarşısında uşaqlarda özünütərbiyə şəraiti yaratmaq, xüsusilə öz emosiyalarını saxlamaq bacarığı verilməlidir. Uşaq özünü idarə etməyi, qarşıya çıxan problemə münasibətini dəyişməyi bacarır, 6 yaşına çatanda onda təhsilin sonrakı pilləsinə müvəffəqiyyətlə keçilməsi üçün ilkin şərtlər formalaşır. Hər şeyi bilmək həvəsi əsasında oxumağa maraq yaranır; idrak qabiliyyətinin inkişafı nəzəri təfəkkürün formalaşmasında əsas xidmətini göstərir. Yaşlılarla və yaşıdları ilə ünsiyyət saxlamaq bacarığı uşağa tədris əməkdaşlığına keçməyə imkan verir. Sərbəstliyin inkişafı tədris tapşırıqlarını yerinə yetirərkən qarşıya çıxan çətinlikləri aradan qaldırmağın, fəaliyyətin ayrı-ayrı növləri üçün səciyyəvi olan xüsusi dillərin elementlərinə yiyələnməyin, məktəbdə müxtəlif fənlərin (təbiətşünaslıq, riyaziyyat, musiqi və s.) mənimsənilməsinin əsası olur. Bütün bunlar yalnız imkanlar şəklində özünü göstərir.

Əslində onun həyata keçirilməsini uşağın yaşadığı, inkişaf etdiyi sosial şərait müəyyən edir: uşaq hansı fəaliyyətə cəlb olunur; bu fəaliyyəti kiminlə həyata keçirir; onu kim, necə tərbiyə edir.

Uşaqların fəaliyyətinin psixi və fiziki inkişafının müddəti yaşlılar tərəfindən stimullaşdırılması xüsusiyyətlərindən asılı olur. Beləliklə, uşağın şəxsi inkişaf xətti ilə yanaşı, digər dəyişikliklər də ola bilər. İnkişafın hər bir addımında neqativ hallar onun yol yoldaşı ola bilər.

## Məktəbəqədər yaşlı uşaqların tərbiyəsi

Məktəbəqədər tərbiyə müəssisələrində valideynlərlə birlikdə tərbiyənin bünövrəsi qoyulur. İnsan "modelinin" formalaşmasının əsası, demək olar ki, oradan vüs'ət alır. Tərbiyə işi yuxarıda qeyd olunmuş intizam modelinə əsasən təşkil olunduqda uşaqların davranışındakı nöqsanlar korreksiya edilir, onların arzuolunmaz hərəkətlərinin qarşısı təlqin yolu ilə alınır. Şəxsiyyətə istiqamətlənmiş modelə əsasən uşağı tərbiyə etmək, onu insani, bəşəri dəyərlər aləminə daxil etmək tələb olunur. Artıq məktəbəqədər yaş dövrünün sonuna yaxın gerçəkliyə münasibətin dəyərli əsaslarını formalaşdırmaq mümkün olur.

Məktəbəqədər tərbiyə dövründə uşaqlarda təbiətə, insan əli ilə, yaradılanlara, cəmiyyətə və özlərinə münasibət formalaşır. Tərbiyənin bu komponentləri insanın formalaşması üçün lazım olan hər şeyi əhatə edir.

Təbiətə münasibət. Məktəbəqədər müəssisəyə daxil olmuş uşaq normal tərbiyə şəraitində ümumbəşəri dəyərlərin geniş dairəsinə qoşulmaq sahəsində ilkin təcrübə əldə edir. Bu ümumbəşəri dəyərlər içərisində idraki dəyərlər xüsusi yer tutur. Adi gəzinti, təbiətə ekskursiya prosesində özünü kəşfiyyatçı sayan uşaq cansız təbiətin obyekti üzərində müstəqil müşahidə apara, eksperiment keçirə bilməsi sevincini hiss edir. O, tanış olanda yenini, yenidə tanış olanı tapır. Bu, onun üçün kəşfdir. Beləliklə, uşaq təbiətdəki sadə qanunauyğunluğu hissələrinə ayırır, onların dəyişilməz xarakterini dərk edir. Dərketmə prosesində təbiətin sirləri, asanlıqla anlaşılmayan hadisələr uşağı çaş-baş salır, o, təbiətin əsrarəngiz gözəlliklərinə valeh olur, təbiətin canlıya yaxın olduğunu dərk edir, ətraf aləmin əşya və hadisələri ilə özünün birliyi onda təbiətə aludəçilik yaradır. Ən dəyərli bilik mənbəyi olan təbiətə belə münasibət uşağın inkişafının əsası hesab olunur.

Uşağın yaşlılar tərəfindən getdikcə daha mürəkkəb və müxtəlif obyektlərə yönəldilməsi onu hər şeyi bilməyə həvəsləndirir. Yaşlı hər dəfə emosional təəssüratlar zonası yaratmaqla uşağı təbiət hadisələrinin gözəlliyi, böyüklüyü, rəngarəngliyi üzrə öz həyəcanları sahəsinə cəlb edir. Beləliklə, yaşlı hər bir uşağa özünü "məs'ul şəxs", baş verənlərin iştirakçısı hesab etmək imkanı verir. Nəticədə uşaqda ekoloji biliyin bünövrəsi qoyulur.

Məktəbəqədər yaş dövründə uşaqlarda təbii mühitə ehtiyatlı münasibət bəsləmək, öz qüvvəsi daxilində təbiətin sərvətini qorumaq və artırmaq cəhdi özünü göstərir. Bu isə ekoloji tərbiyənin aparılması üçün e'tibarlı mənbədir.

Məktəbəqədər dövrdə canlı və cansız təbiətlə yanaşı insan əli ilə yaradılmışlara da münasibət formalaşır. Bu da idraki dəyərlərin yaranmasında mühüm rol oynayır. Əllə yaradılanlar üzərində müşahidələr və onlarla təmasda olma prosesində uşaqda yeni biliklərə yiyələnmək tələbatı oyanır. Başqalarına mə'lum olanları duymağın hesabına uşağın şəxsi təcrübəsi genişlənir. O, tə'limin nə qədər əhəmiyyətli olduğunu dərk edir.

Uşaq insanlar tərəfindən yaradılmış şeylərin (heykəllərin, maşınların, mebelin, çalğı alətlərinin, paltarın və s.) təkmilləşdirilməsini, daha yaraşıqlı, gözəl olmasını istəyir. Onda yaradıcı adamların əməyinə, onların ustalığına hörmət hissi meydana çıxır.

Uşaqların fəaliyyətinin psixi və fiziki inkişafının müddəti yaşlılar tərəfindən stimullaşdırılması xüsusiyyətlərindən asılı olur. Beləliklə, uşağın şəxsi inkişaf xətti ilə yanaşı, digər dəyişikliklər də ola bilər. İnkişafın hər bir addımında neqativ hallar onun yol yoldaşı ola bilər.

## Məktəbəqədər yaşlı uşaqların tərbiyəsi

Məktəbəqədər tərbiyə müəssisələrində valideynlərlə birlikdə tərbiyənin bünövrəsi qoyulur. İnsan "modelinin" formalaşmasının əsası, demək olar ki, oradan vüs'ət alır. Tərbiyə işi yuxarıda qeyd olunmuş intizam modelinə əsasən təşkil olunduqda uşaqların davranışındakı nöqsanlar korreksiya edilir, onların arzuolunmaz hərəkətlərinin qarşısı təlqin yolu ilə alınır. Şəxsiyyətə istiqamətlənmiş modelə əsasən uşağı tərbiyə etmək, onu insani, bəşəri dəyərlər aləminə daxil etmək tələb olunur. Artıq məktəbəqədər yaş dövrünün sonuna yaxın gerçəkliyə münasibətin dəyərli əsaslarını formalaşdırmaq mümkün olur.

Məktəbəqədər tərbiyə dövründə uşaqlarda təbiətə, insan əli ilə, yaradılanlara, cəmiyyətə və özlərinə münasibət formalaşır. Tərbiyənin bu komponentləri insanın formalaşması üçün lazım olan hər şeyi əhatə edir.

Təbiətə münasibət. Məktəbəqədər müəssisəyə daxil olmuş uşaq normal tərbiyə şəraitində ümumbəşəri dəyərlərin geniş dairəsinə qoşulmaq sahəsində ilkin təcrübə əldə edir. Bu ümumbəşəri dəyərlər içərisində idraki dəyərlər xüsusi yer tutur. Adi gəzinti, təbiətə ekskursiya prosesində özünü kəşfiyyatçı sayan uşaq cansız təbiətin obyekti üzərində müstəqil müşahidə apara, eksperiment keçirə bilməsi sevincini hiss edir. O, tanış olanda yenini, yenidə tanış olanı tapır. Bu, onun üçün kəşfdir. Beləliklə, uşaq təbiətdəki sadə qanunauyğunluğu hissələrinə ayırır, onların dəyişilməz xarakterini dərk edir. Dərketmə prosesində təbiətin sirləri, asanlıqla anlaşılmayan hadisələr uşağı çaş-baş salır, o, təbiətin əsrarəngiz gözəlliklərinə valeh olur, təbiətin canlıya yaxın olduğunu dərk edir, ətraf aləmin əşya və hadisələri ilə özünün birliyi onda təbiətə aludəçilik yaradır. Ən dəyərli bilik mənbəyi olan təbiətə belə münasibət uşağın inkişafının əsası hesab olunur.

Uşağın yaşlılar tərəfindən getdikcə daha mürəkkəb və müxtəlif obyektlərə yönəldilməsi onu hər şeyi bilməyə həvəsləndirir. Yaşlı hər dəfə emosional təəssüratlar zonası yaratmaqla uşağı təbiət hadisələrinin gözəlliyi, böyüklüyü, rəngarəngliyi üzrə öz həyəcanları sahəsinə cəlb edir. Beləliklə, yaşlı hər bir uşağa özünü "məs'ul şəxs", baş verənlərin iştirakçısı hesab etmək imkanı verir. Nəticədə uşaqda ekoloji biliyin bünövrəsi qoyulur.

Məktəbəqədər yaş dövründə uşaqlarda təbii mühitə ehtiyatlı münasibət bəsləmək, öz qüvvəsi daxilində təbiətin sərvətini qorumaq və artırmaq cəhdi özünü göstərir. Bu isə ekoloji tərbiyənin aparılması üçün e'tibarlı mənbədir.

Məktəbəqədər dövrdə canlı və cansız təbiətlə yanaşı insan əli ilə yaradılmışlara da münasibət formalaşır. Bu da idraki dəyərlərin yaranmasında mühüm rol oynayır. Əllə yaradılanlar üzərində müşahidələr və onlarla təmasda olma prosesində uşaqda yeni biliklərə yiyələnmək tələbatı oyanır. Başqalarına mə'lum olanları duymağın hesabına uşağın şəxsi təcrübəsi genişlənir. O, tə'limin nə qədər əhəmiyyətli olduğunu dərk edir.

Uşaq insanlar tərəfindən yaradılmış şeylərin (heykəllərin, maşınların, mebelin, çalğı alətlərinin, paltarın və s.) təkmilləşdirilməsini, daha yaraşıqlı, gözəl olmasını istəyir. Onda yaradıcı adamların əməyinə, onların ustalığına hörmət hissi meydana çıxır.

bir vasitə hesab olunur. "Məktəb modeli"ni xatırladan belə model məktəbəqədər yaş dövründə məqsədəmüvafiq deyil. Burada bilik, bacarıq və vərdişləri tə'lim etmək əvəzinə uşaqların özlərinin onları öyrənmək və həyatda tətbiq etmək yollarını öyrətmək lazımdır. Bəşər tarixində yaranmış və ətraf aləmin dərk olunmasında tətbiq edilən texniki, elmi və mədəni nailiyyətləri, onlara yiyələnməyin vasitə və metodlarını yaşlılar uşaqlara ötürürlər. Uşaqlığın ilk illərində bu cəhətdən də əsaslı bünövrə qoyulmadan, gələcəyin təməlini möhkəm qurmaq mümkün deyil.

Uşaq hələ məktəbə getməyə başlamazdan əvvəl lazımi bilikləri əldə etmək və ya tə'limlə bağlı çətinliklərlə qarşılaşır. İlk illər ərzində uşaq gəzməyi, danışmağı, başqaları ilə ünsiyyətə girməyi, fikirləşməyi və arqumentləşdirməyi; gücünə müvafiq problemi həll etməyi öyrənir. Əgər bu idrak prosesləri səhv təşkil olunarsa, məktəbdə tə'lim zamanı daha ciddi çətinliklər qarşıya çıxacaq. Bu səbəbdən məktəblinin proqram materialını mənimsəməsi tə'limin ilk vaxtlarındakı müvəffəqiyyətindən asılı olur.

Uşaq məktəbə gedənədək tərbiyəçilərin və valideynlərin diqqəti uşağın tə'limi və inkişafına yönəldilərsə, onun ibtidai məktəbdə müvəffəqiyyətlə tə'lim alma şansı yüksələr. Əgər uşaqla onun həyatının ilk illərində məşğul olunsa, tə'limdə baş verəcək çətinlikləri yüngülləşdirmək, əqli inkişafda geridəqalma hallarını aradan qaldırmaq olar.

Şən və məzmunlu uşaqlığı olan uşaqların məktəbdə müvəffəqiyyətlə məşğul olmağa, həyatda müvəffəqiyyətlər əldə etməyə, cəmiyyətə öz töhfələrini verməyə şansı çoxalır.

Məktəbəqədər tə'lim üzrə təcrübəsi olan uşaqlar tək-tək hallarda ikinci ilə qala bilərlər. İlk vaxtlar uşaq özünə yad fəaliyyət sahəsi ilə tanış olmağa başlayanda tamamilə yeni bilik və bacarıqlar əldə edir. Tərbiyəçi sözün və əyaniliyin köməyi ilə uşağın fəaliyyətini addım-addım təşkil etməklə onun fəallığına rəhbərlik edir, diqqətinin öyrəndiyi əşyanın mühüm əlamətlərinə istiqamətlənməsini təşkil edir, fəaliyyət qaydalarını, təsəvvürlərini formalaşdırır. Sonralar uşaq müəyyən bilik və bacarıqlara yiyələndikdə ona böyük müstəqillik, bu və ya digər fəaliyyəti həyata keçirmək imkanları verilir.

Uşaqlar ətraf aləm üzərində müşahidə prosesində müstəqil biliklər əldə etmək, onları təcrübədə tətbiq etmək, başqaları ilə bölüşdürmək bacarığına yiyələnirlər. Ən güclü bilik mənbəyi olan ətraf aləmlə tanışlıq zamanı uşaqlara təbiətin özünəməxsus füsunkar gözəlliklərini, əsrarəngiz guşələrini, görməli yerlərini, onların əhali tərəfindən necə qorunmasını görməkdə kömək etmək lazımdır.

<u>İdrak mədəniyyətinin formalaşdırılması.</u> Uşağın təbiət hadisələrinə bələdləşməsi genişləndikcə, o, canlı və cansız aləm, səbəb və nəticə əlaqələri, zaman və məkan haqqında təsəvvürləri mənimsəyir.

İnsan əli ilə yaradılan əşyalarla tanış olarkən o, sün'ini təbiidən, yaxşını pisdən, gözəli çirkindən, həqiqini xulyadan və s. fərqləndirməyə başlayır.

İnsani münasibətlər aləmi uşağa xeyir və şər, özününkü və özgəninki, doğru və yalan, ədalətlilik və ədalətsizlik anlayışlarının mahiyyətini açır. Öz daxili aləmi, genişlənən imkanları, uşaq üçün arzu olunan və mümkün olan, fikirləşməyin, qavramağın, güman etməyin nə olduğu haqqında təsəvvürlər açılır. Burada ali psixi funksiyaların mənbəyi yaranır. Daha yetkin (kamil) formalar isə artıq məktəb illərində üzə çıxır.

Dünyanı dərk etməyin yeni formaları, idraki vəzifələrin həllində ixtiyarilik elementləri, meydana gəlir, idrak fəaliyyətinə maraq, bütövlükdə idrak mədəniyyəti yaranır.

Uşağın xarici aləmə praktik fəallıq münasibətinin formalaşdırılması (iradi mədəniyyət). Uşaq qeyri-fəal deyil, fəal olanda məktəbəqədər tərbiyə və tə'lim daha müvəffəqiyyətlə yerinə yetirilir. O, ətrafdakı insanlarla qarşılıqlı fəaliyyətdə daha fəal olur, inkişaf edir.

Uşaqların ətraf aləmlə, öz "kiçik vətən"ləri ilə tanışlıq prosesində doğma diyardakı quruculuq işlərinə düzgün şəxsi münasibət bəsləmələri tə'min olunmalıdır.

Uşaq xarici aləmin dəyişməsinə istiqamətlənmiş qaydalar yaradan fəallığın ictimai baxımdan işlənmiş forması ilə təmasda olur. Bu qaydalar hansılardır? Məqsədin qoyulması (zənn edilməsi), növbəliliyin vasitələrinin seçilməsi və onların tətbiqinin ardıcıllığı (planlaşdırma), fəaliyyətin mümkün səmərəliliyinin proqnozlaşdırılması. Uşaq çətinliyi aradan qaldırmağı, nəticələri qiymətləndirməyi öyrənir. Söz yox ki, davranışın yüksək səviyyəsini xarakterizə edən bütün bu hərəkətlər əslində yetkin şəxsiyyətə xas olmaqla məktəbəqədər yaşda yenicə yaranmağa başlayır. Onlar özünün başlanğıc formalarında çıxış edir və başlıcası hələ uşağın davranışını müəyyənləşdirən tam sistem təsəvvürü vermir; müvafiq çalışma uşaq tərəfindən yerinə yetirilərkən hər biri ayrıca mənimsənilir. Məqsədi zənn etmə, planlaşdırma, proqnozlaşdırma, nəzarət və nəticələrin qiymətləndirilməsi oyun və qeyri-oyun anlarının həyata keçirilir.

Məktəbəqədər yaşda sərbəstliyin formalaşmasının daha effektiv vasitələrindən biri uşağın hərəkətini təşkil və tənzim edən, onun qeyri-iradi, öz-özünə baş verən fəallığını məhdudlaşdıran qaydalı oyunlardır. Oyunun qaydası öz hərəkətlərini tutuşdurmaq, onları dərk etmək və qiymətləndirmək üçün istinad nöqtəsi olur. Oyunun qaydasını başa düşməklə uşaqlar şəxsi hərəkətlərini ona tabe etməyə başlayırlar. Nəticədə idraki, iradi, emosional özünütənzimləmənin yaranmasının ilkin şərtləri təşəkkül tapır.

Hissi mədəniyyətin formalaşdırılması. Burada tə'limin məqsədi uşaqda yaranan emosiyaları yaşlılarda özünü göstərən emosional həyəcanların sosial formasına uyğunlaşdırmaqdır. Başqa adamlarla ünsiyyətdə olarkən, öz emosional hissi münasibətlərini onlara bildirməklə, əhəmiyyətli dərəcədə emosional situasiyada onların davranışını təqlid etməklə münasibəti zənginləşdirərkən uşaq özü üçün hisslər, emosional çalarlar seçir. Beləliklə, uşaq ilk dəfə olaraq əməyin, təbiətin, incəsənət əsərinin gözəlliyini duymaqdan sevinc hissi keçirməyə, başqalarından həyəcanlanmağa, qazandığı uğurlara görə iftixar hissini yaşamağa başlayır. Emosiyaların dili mənimsənilir. İnsani hisslərin, həyəcanların sayı artır, zənginləşir, onların başa düşülməsinə, şəxsi emosiyalarına, hissi mədəniyyətə tələbat yaranır.

## Tərbiyə və tə'limin vəhdəti

Məktəbəqədər müəssisədə tərbiyə və tə'limin vəhdətinin əsas şərti həmin istiqamətdə materialın seçilməsinə və işin təşkilinə ümumi yanaşmadır. Məktəbəqədər tərbiyə proqramında nəzərdə tutulmuş hər hansı tə'lim xarakterli tədbirlərin xüsusilə nitq inkişafı, savad tə'limi, ətraf aləmlə tanışlıq, müsiqi, təsviri sənət, əmək və s. məşğələlərdə tə'lim məqsədləri ilə yanaşı tərbiyəvi məqsədlər də həyata keçirilməlidir. Təbiidir ki, hər hansı tərbiyəvi tədbirlərdə də uşaqlara təbiət və cəmiyyət haqqında müəyyən mə'lumat, bilik vermək, bacarıq və vərdişlər aşılamaq mümkündür. Bu zaman uşağın özünəməxsus "uşaq" fəaliyyət növündə formalaşan və özünü göstərən imkanların maksimum dərəcədə həyata keçirilməsi zəruridir. Belə realizə uşaq fəaliyyətinin forma və məzmununun zənginləşdirilməsini və buna xüsusi vasitələrin köməyi ilə nail olmağın mümkünlüyünü nəzərdə tutur. Bu cür

vasitələrin yaradılması və uşaq bağçasının real təcrübəsində tətbiqi müasir məktəbəqədər pedaqogika və psixologiya qarşısında duran ən aktual vəzifədir.

Uşağın mə'nəvi aləminin zənginləşdirilməsi ideyasının əsasında onun həyatının aydın, qeyri-adi, maraqlı hadisələrlə-işlərlə, görüşlərlə, oyunlarla, macəralarla tə'min olunması durur. Bu işdə incəsənətin rolu böyükdür. Uşağın həyatı rəngarəng və zəngin incəsənət aləmində keçməlidir.

İncəsənətin uşağa tə'sirini heç bir şeylə müqayisə etmək olmaz. İncəsənət uşağın psixikasının vacib tərəflərinin - emosional hisslərinin, obrazlı təfəkkürünün, bədii və yaradıcı qabiliyyətlərinin formalaşmasında əvəzsiz vasitədir. Məhz, məktəbəqədər yaş dövründə estetik şüurun, bədii mədəniyyətin əsasları qoyulur, bədii fəaliyyətə tələbat yaranır. Bununla əlaqədar olaraq uşağı musiqi, nağıl, teatr, rəqs və s. aləminə daxil etmək lazımdır.

Uşaqların incəsəntlə tanışlığının formaları zənginləşdirilməli, onun gündəlik həyata daxil edilməsi və estetik yaradıcılıq üçün şərait yaradılmalıdır.

Uşağın mə'nəvi aləminin zənginləşdirilməsi aşağıdakı müddəalara əsaslanır:

Perspektivin açılması. Məktəbəqədər yaşlı uşaqlar yeni bilik, bacarıq və fəaliyyət qaydalarını elə sistemdə əldə etməlidirlər ki, bu sistem onların yeni biliklərə, yeni fəaliyyət qaydalarına yiyələnmələrinə zəmin yaratsın, uşaqların yeni fərziyyələr irəli sürmələrinə, problemli situasiya prosesində yeni biliklər əldə etmək tələbatını fəallaşdırsın.

Əsas sahələrin eynidərəcəli təqdim olunması. Bu prinsipə əsasən hər bir uşağa həyat fəaliyyətinin əsas sferalarını ("təbiət", "cəmiyyət", "mən özüm" və s.) dərk etmək üçün bərabər imkanlar təqdim edilməlidir.

Sərbəst seçim. Əgər tərbiyəçi uşağa nəyi isə (bu və ya digər baxışları, istiqamətləri, zövqləri) təlqin etməyə çalışırsa, bunun şəxsiyyət mədəniyyətinin bazisinin formalaşması ilə birbaşa əlaqəsi olmalıdır. Kənar uşaqlardan bu vəzifələrin heç biri tələb olunmur və onlara heç nə təlqin edilmir. Hər kəs sərbəst seçim, müstəqil müəyyənetmə (o, kiminlə nə, necə edəcək və s.) hüququna malik olur.

Nitq inkişafına istinad etmək. Məktəbəqədər dövrdə uşaqların əldə etdikləri ən mühüm şey onların ünsiyyət və idrakın vasitəsi olan ana dilinə yiyələnmələridir. Uşağın nitq inkişafına yiyələnməsi onun tərbiyəsi və tə'liminin ümumi əsasıdır. Bunsuz uşaqların heç bir fəaliyyətini təşkil etmək olmaz. Əgər uşaqlar 5-6 yaşınadək ana dilinin müəyyən səviyyədə mənimsənilməsinə yiyələnməzlərsə, tə'limin sonrakı mərhələləri müvəffəqiyyətlə keçə bilməz.

Məktəbəqədər yaşlı uşaqların nitq ünsiyyəti imkanlarının formalaşması üçün bağçada onların həyatına xüsusi layihələşdirilmiş fərdi və kollektiv ünsiyyət situasiyası daxil edilir. Tərbiyəçi müəyyən nitq inkişafı tapşırıqları verir, uşaqlar sərbəst ünsiyyətdə iştirak edirlər. Bu situasiyada uşaqların lüğət ehtiyatı genişlənir, onlarda fikri ifadə etmək qaydaları, nitqin başa düşülməsi üçün şərait yaranır. Birgə xüsusi oyunun təşkilində uşağın ümumi tapşırıq vasitələrini seçməsi, fərdi "nitq xəzinəsi" yaratması imkanı tə'min olunur. Belə oyunlarda ünsiyyətin daim dəyişən şəraitində uşağın şəxsi fikrini, niyyətini, emosiyalarını ifadə etmək qabiliyyəti inkişaf edir.

Uşaqların nitqinin inkişafı, doğma dilin zənginliklərinə yiyələnmələri şəxsiyyətin formalaşmasının elementlərindən biridir. Milli mədəniyyətin dəyərlərinin mənimsənilməsi əqli, mə'nəvi, estetik inkişafla sıx bağlı olub, məktəbəqədər yaşlı uşaqların dil tərbiyəsində, tə'limində üstünlük təşkil edir.

Şəxsiyyət mədəniyyətinin bazisinin formalaşması zamanı təxəyyül və ona əsaslanan yaradıcılıq, müstəqil fəaliyyətə qabiliyyətlilik şəklində sərbəstlik, uşağın ətraf aləmdə fəal fəaliyyət göstərmək ehtiyacı yaranır və inkişaf edir.

Təxəyyül uşağın əşyavi-praktik, oyun, kommunikativ, estetik və s. fəaliyyətlərində fəal iştirakının əsasıdır. Təxəyyül təfəkkürün əyani-tə'sirli, əyani-obrazlı formalarına, özünüdərkə (mən obrazının yaranmasına, özünüqiymətləndirmə və s.), başqa adamlara münasibətin tərkibinə qoşulur. Təxəyyülün kifayət qədər inkişaf etməsi uşağa şəxsi oyun fəaliyyətində qarşıya çıxan stereotipi aradan qaldırmaq, rol mövqeyini, oyunun yeni süjetini müəyyənləşdirmək imkanı verir.

Məktəbəqədər yaşlı uşaqların yaradıcılığı hələ inkişaf etməmiş şəkildə olsa da, özündə yaşlılardan aldıqları bilik və bacarıqlardan müstəqil kənara çıxmağa, yeni məhsul (orijinal rəsm, tikinti, yeni nağıl qurmaq və s.) yaratmağa imkan verən vacib keyfiyyəti tə'min edir.

Yaradıcı proses artıq mə'lum olandan mə'lum olmayana keyfiyyət keçididir. Məktəbəqədər yaşlı uşaqlarda təsviri fəaliyyətdə rənglər və formaların yeni birləşməsi, quraşdırma prosesində müxtəlif tikintilər yaratmaq qaydaları, yeni hekayə və nağılın, musiqi fəaliyyətində sadə melodiyanın yaradılması sahəsində axtarışlardır. Uşaqların axtarışlar fəaliyyətinin yüksək dinamikliyi, çevikliyi fəaliyyətin müxtəlif növünü yerinə yetirərkən onların orijinal nəticələr almalarına imkan verir. Yaradıcı fəaliyyət prosesində uşaqların səhvə yol vermək, "lazım olduğu kimi deyil, başqa cür" etmək qorxusunun aradan qaldırılması uşaq qavrayışı və təfəkkürünün, cəsurluğu və azadlığının inkişafı üçün mühüm əhəmiyyət kəsb edir.

Sərbəstlik uşağın öz davranışını şəxsi niyyətini başqa adamların niyyəti ilə uyğunlaşdırmaq imkanlarını genişləndirir. Bu zaman yalnız hazır qaydalara tabe olmaq deyil, həm də yeni qaydaların quraşdırılması, yaşlıların tapşırıqlarını qəbul etməyə və öz fikrini irəli sürməyə hazır olmaq xüsusi əhəmiyyət kəsb edir. Bütün bunlar şəxsi həyatda fəal subyekt olmağa, ətraf aləmi dərk etmək və dəyişmək, başqa adamlara və özünə tə'sir göstərməyə əsaslı tələbatın inkişafını şərtləndirir.

Subyekt olmaq, fəal şəxsiyyət kimi hiss etməyə tələbat uşağın inkişafının aşağıdakı təmayüllərini müəyyənləşdirir: başqalarına bənzəməmək, nadirliyini büruzə vermək, davranışda müstəqillik, hər hansı işi özünəməxsus eləmək, başqa adamlar üçün əhəmiyyətli olmaq, onlarla emosional, səsləşən olmaq, onların həyatında iştirak etmək, onlar tərəfindən sayılmaq.

Yaradıcı təxəyyül sərbəstlik, müstəqil fəaliyyət göstərməyə tələbat şəxsiyyətin özəyi olmaqla tamamilə xüsusi sistem yaradır: onların hər biri ayrı-ayrılıqda qiymətlidir və eyni zamanda bir-birindən ayrı mövcud ola bilməz; onlar bilavasitə pedaqoji tə'sirin nəticələrinə çevrilmir, onlarla şərtlənirlər; onlar böyüməkdə olan insanın özünəməxsus təkrarolunmazlığını ifadə edir, eyni zamanda onun digər adamlarla birliyinə əsaslanır.

Uşağın fərdiliyi özünü göstərir. Uşaqlar və yaşlılarla əlaqə zamanı hər hansı xüsusi tərbiyə vəzifələrinin, yaxud didaktik məqsədlərin həyata keçirilməsində mükəmməl əməkdaşlıq edir. Nəticədə şəxsiyyətlərarası münasibətlər təkmilləşir.

Hər bir uşağı fərdiyyətinin inkişafı, onlarla yaşlılar, həmçinin başqa uşaqlar arasında məzmunlu mə'nəvi-emosional əlaqələr, uşaq bağçasında uşağın həyatının təşkilinin xarakterinin əhəmiyyətli dərəcədə yeniləşdirilməsini tələb edir. Sərbəst, tə'limatlarla sıxışdırılmayan ünsiyyət üçün, uşağın və böyüyün şəxsiyyətinin asılılıqdan azad olması üçün şəraitin yaradılması vacibdir.

## Uşağın həyatının təşkili, inkişaf şəraiti

Uşağın tərbiyəsi, tə'limi və inkişafı onun bağçada və ailədəki həyat şəraiti ilə müəyyən edilir. Uşaq bağçasında uşaq həyatının təşkilinin əsas formaları-oyun və onunla bağlı fəaliyyət növləri, məşğələlər, əyani-praktik fəaliyyətdir.

Oyun. Məktəbəqədər yaşlı uşaqların müstəqil fəaliyyətinin əsas növü süjetli oyunlardır. Onun özünəməxsus cəhəti fəaliyyətin şərti xarakter daşımasındadır. Oyun məktəbəqədər yaşlı uşaqlar üçün ən qiymətli fəaliyyətdir.

Uşaq digər fəaliyyətlərdən daha çox oyunda müstəqillik göstərir. O, oyunu, oyun üçün oyuncaqları, müxtəlif materialları özü seçir, oyunun süjeytini özü yaradır, məqsəd qoyur, onu həyata keçirmək üçün vasitələri müəyyənləşdirir, oynamaq üçün yoldaşlar seçir. Bir sözlə, oyun fəaliyyətində çox şey uşaqların özlərinin fəallığı ilə, onların oyuna məhəbbəti ilə şərtləşir, onda tez-tez uşaq həyatının özfəaliyyət formaları yaranır. Oyun uşağın psixi inkişafına çox güclü şəkildə tə'sir göstərir. Oyun uşaqların tərbiyəsində də çox mühüm rol oynayır. Əgər bu fəaliyyətin xüsusiyyətləri və uşaqların onda müstəqil olmaq arzusu yerinə yetirilərsə, oyun tərbiyə-tə'lim işlərinin ən mühüm vasitəsinə çevrilər. Əgər təcrübəsinin müsbət cəhətlərindən istifadə etməklə oyun formaları əmək tərbiyəsi, məşğələlərdə tə'limlə əlaqələndirilsə, yalnız məzmunlu oyunların köməyi ilə uşaqların həyatı yaxşı təşkil edilə bilər.

Oyun uşağın həyatına daxil olmuş, onun maraqlarının, arzu və imkanlarının bilavasitə parlaq özünü göstərməsinə meydan açan xüsusi tərbiyə vasitəsi və fəaliyyət növüdür. Oyunun tərbiyəvi qiyməti onun "keyfiyyəti"ndən asılıdır, ona görə də tərbiyəçinin məktəbəqədər yaşlı uşaqların sərbəst seçdikləri və sərbəst gedən oyunları məqsədyönlü istiqamətləndirən başlıca şəxs olması çox vacibdir.

Müxtəlif növ oyunların, bu oyunlarda uşaqların qarşılıqlı münasibətlərinin öyrənilməsi prosesində tərbiyəçi aşağıdakıları aşkara çıxara bilər:

1) ayrı-ayrı uşaqların və bütün yaş qruplarının ilk növbədə uşaq bağçasında və ailədə yaşlıların ətraf mühitə tə'sirinin xarakterini;

2) oyun fəaliyyətinin səviyyəsini (mərhələsini);

3) uşaqların oyunda qarşılıqlı münasibətini, onların humanist, kollektivçi istiqamətliliyinin səviyyəsini;

4) uşaqların oyunun qaydalarını, həmçinin süjetli-rollu oyunlarda əks olunan həyati norma və qaydaları gözləmələri.

Tərbiyəçi oyun fəaliyyətinə rəhbərlik üçün diferensə edilmiş vəzifələr və metodlar müəyyənləşdirə bilər. Bu zaman fərdi və birgə oyunlara böyük diqqət yetirmək lazımdır. Birgə oyunun kollektivçiliyin formalaşdırılmasına şərait yaratması yaddan çıxarılmamalıdır.

Oyun uşağın inkişafı üçün obyektiv əhəmiyyət kəsb edir. Oyunda uşağın qabiliyyəti və təxəyyülünün inkişafına hiss və davranışının tənzimlənməsinə, həmyaşıdları ilə qarşılıqlı münasibət və anlaşma təcrübəsinin əldə edilməsinə imkan yaranır. Oyunda yaşlılar həm tərəf müqabili, həm də oyunun spesifik "dilinin" daşıyıcısı kimi çıxış edirlər. Tərbiyəçinin oynayan tərəf (partnyor) olması, təbii emosional davranışı uşaqların sərbəstliyi, oyundan həzz almaları, oyunun qaydalarını müstəqil dərk etmək bacarığına yiyələnmələri üçün tə'minat verir. Oyun prosesində uşaqlar onun üçün müvafiq olan oyun vasitələrindən istifadə etməli, sərbəst olaraq ətrafdakılarla ünsiyyətə girə bilməli, müəyyən dərəcədə yaşlılardan asılı olmayan uşaq aləmi tə'min olunmalıdır.

Məşğələ. Uşaq bağçasında məşğələlərin özünəməxsus yeri var. Məşğələlər tərbiyəçi tərəfindən uşağa bilik, bacarıq və vərdişlərin verilməsinə yönəldilir. Məşğələlər uşağın fiziki və mə'nəvi cəhətdən zənginləşdirilməsinə yönəlir, onda müstəqilliyin, hər şeyi bilmək qabiliyyətinin, formalaşmasını tə'min edir. Məşğələlərdə verilən biliklər uşağı məktəbdə tə'lim vəzifələrini mənimsəməyə hazırlayır. Biliklərin əksəriyyəti uşaqların uşaq bağçasındakı həyatı və ətraf mühitlə əlaqədar olur. Bu biliklər idrak maraqlarının mənbəyi olur. Məşğələlər birbaşa tə'lim

üzərində qurulmur. Ona oyun elementləri daxil edilir. Tə'lim oyun fəaliyyəti kontekstində də həyata keçirilir. Məşğələlərdə tə'limin effektiv növlərindən biri didaktik oyunlardır. Didaktik materiallarda fəaliyyətin oyun qaydası öz əksini tapır, oyunun qaydasına pedaqoji vəzifələr daxil edilir. Oyun materialı ilə əməliyyat zamanı uşağın dərketmə qabiliyyəti inkişaf edir.

Proqramda fiziki mədəniyyət, musiqinin dinlənməsinə, nəğmə və ritmikaya, rəsm və yapmaya, bədii oxuya xüsusi yer ayrılmalıdır. Proqram I sinifdə ana dili və riyaziyyatın müvəffəqiyyətlə tədris olunması üçün bünövrə hazırlamağı nəzərdə tutur. Uşağın məktəbdə mənimsəməli olduğu biliklərin həcminin fasiləsiz artması onun əqli qabiliyyətlərinin daha düşünülmüş şəkildə inkişafını tələb edir.

Hazırlıq qruplarında məşğələlər elə keçirilməlidir ki, uşaqlarda tədris fəaliyyəti, təşkilatçılıq, müstəqillik, öyrənməyə ehtiyac, cəhdlə çalışmağa hazır olmaq vərdişləri formalaşmasın. Uşaq məktəbə gedərkən bu vərdişlərə əsasən onda məktəbli üçün lazım olan möhkəm tədris fəaliyyəti vərdişləri yaranır.

Sxem və modellərdən istifadə etmək bacarığı, əşya və işarələr üzrə fəaliyyət zamanı uşağın diqqəti, hafizəsi, təxəyyülü inkişaf edir. Mövcud oyunların dəyişdirilərək yeni oyunlar düzəltməklə didaktik oyunların tam sistemini yaratmaq zəruridir. Beləliklə, yaşlıların keçirdikləri oyunda məktəbəqədər yaşlı uşaqların tə'liminin spesifik forması olan oyun və məşğələnin özünəməxsus sintezi yaradılır.

Məşğələnin məzmununu müəyyən edən proqram şəxsiyyət mədəniyyətinin bazisinin formalaşdırılması üçün lazım olan anlayışların, vasitə və yolların uşaqlar tərəfindən mənimsənilməsinə yönəldilir.

Əşyavi-praktik fəaliyyət. Uşaq bağçasında uşaqların həyatının təşkilinin yeniləşməsi qrupların komplektləşdirilməsindən başlayır. Kiçik yaş qruplarında böyük qruplara nisbətən uşaqların sayı az olmalıdır. Böyük qruplarda da həddən artıq sıxlıq yaradılması məsləhət görülmür. İki qrupun müvəqqəti birləşdirilməsi, yə'ni "cütləşdirilmiş" qrupların yaradılması təcrübəsi də məqsədəuyğundur. Bu zaman uşaqlarla eyni vaxtda iki tərbiyəçi işləyir. Onlardan biri növbə ilə yarım qruplarla oyun və ya məşğələ keçirir, digəri isə bu vaxt qalan uşaqların sərbəst fəaliyyətini müşahidə edir, lazım olduqda fərdi yanaşaraq kömək göstərir.

Yaş qrupu uşaq bağçasında əsas təşkilat vahidi sayılır (ümumi oyun otağı, yataq otağı, yuyunma otağı və s.). Qrup otağında bir çox məşğələlər və müxtəlif rejim anları həyata keçirilir. Qrup eyni zamanda açıq sistem hesab edilir. (Bu, sanitar-gigiyena tələblərinə əks getmir). Məşğələlər də daxil olmaqla uşaqlar vaxtlarının müəyyən bir hissəsini bağça daxilində formalaşdıran müxtəlif yaş qruplarında keçirə bilərlər. Müxtəlif yaşlı uşaqların müntəzəm bir-biri ilə qarşılıqlı münasibəti onların ünsiyyət bacarıqlarının tam inkişafı üçün əlavə imkanlar yaradır. Bu da böyük uşaqlarla kiçik yaşlı uşaqların qarşılıqlı fəaliyyət zamanı tə'limin inkişafı üçün əlavə imkanlar açır. Beləliklə, məktəbəqədər tərbiyə müəssisələrində hər hansı sün'ilikdən uzaq, çoxcəhətli ünsiyyət formalı, mükəmməl uşaq cəmiyyəti yaranır.

Sosial təcrübənin zənginləşdirilməsi uşaqların yalnız müxtəlif uşaqlarla deyil, həm də müxtəlif yaşlılarla ünsiyyətinə imkan yaradır. Valideynlər uşaq bağçasının həyatında yalnız valideynlər iclasında, iməcilikdə iştirak etməklə kifayətlənməməlidirlər. Valideynlərin tə'lim prosesinə cəlb edilmələri faydalı ictimai mühitə, ailə ilə uşaq bağçasının birliyinə zəmin yaradır. Valideynlər bağçada özlərini yad hiss etməməlidirlər. Uşaqların bağçaya gətirilib, aparılmasına dəqiq vaxt məhdudiyyəti qoyulmamalıdır.

Şəxsi vaxt. Uşaqların həyatında özlərinin sərbəst olaraq müxtəlif maraqlarının yaranmasına şərait yaradılmalıdır. Uşağın öz sevimli işi ilə məşğul olmağa vaxtı

olmalıdır. O, bilməlidir ki, bu zaman onu heç kim işindən ayırmayacaq. Əşya mühitinin təşkili zamanı uşağın psixoloji inkişafı nəzərə alınmalıdır. Binanın interyeri, uşaq mebelinin, oyun və oyuncaqların, idman avadanlıqlarının və s. hazırlanması işi elmi prinsiplərə əsaslanmalıdır. Yüksək interyer mədəniyyəti inkişafetdirici mühitin yaradılması üçün şərtdir. Uşağın bağçadakı həyatının zənginləşdirilməsi forması məkandan ustalıqla müxtəlif cür istifadə olunmasını tələb edir. Uşaq oyuncaqların tamhüquqlu sahibi olduğunu hiss etməli, bağçada rahat və sərbəst fəaliyyət göstərməlidir.

## Ailə, bağça, məktəb

Məktəbəqədər uşaq müəssisələri ailə ilə sıx əməkdaşlıq şəraitində uşaqların hərtərəfli sağlamlığını mühafizə edir, ahəngdar inkişafı və tərbiyəsini həyata keçirir, estetik tərbiyəsinin qayğısına qalır və onlar əməyə dair sadə, praktik vərdişlər aşılayır, uşaqları məktəb tə'liminə hazırlayır, yaşlılara hörmət, vətənə məhəbbət ruhunda tərbiyə edir.

Uşağın məktəbə hazırlanması işini gücləndirmək üçün uşaq bağçaları ilə məktəb arasında varisliyin yaradılması vacibdir. Uşaqların ictimai və ailə tərbiyəsi bir-biri ilə orqanik şəkildə bağlıdır. Uşaq bağçası tərbiyənin nümunəsi hesab olunur. Tərbiyəçi əhali arasında müntəzəm pedaqoji təbliğat aparır, öz övladlarını düzgün tərbiyə etməkdə valideynlərə kömək göstərir, ailənin yaxşı təcrübəsini isə öz işində tətbiq edir.

Uşaq ailənin bağça tərbiyəçisinə ötürdüyü estafet deyildir. Burada paralellik prinsipi deyil, iki sosial institutun qarşılıqlı nüfuzu prinsipi vacibdir. Ailə və bağçanın hər birinin öz funksiyaları var və onlar bir-birini əvəz edə bilməz. Varisliyin mühüm şərti ailə və uşaq bağçası arasında e'tibarlı iş əlaqələrinin yaradılmasıdır. Bu zaman valideynin, tərbiyəçinin tərbiyəedici mövqeyi korrektə olunur ki, bu da uşaqların məktəb tə'liminə hazırlanmasında xüsusilə, vacibdir. Bu müəssisələr arasında məqsədyönlü əlaqələrin yaradılması üçün pedaqoji prosesin vahidliyi və fasiləsizliyi tə'min edilməlidir.

Hazırda uşaq bağçası ilə məktəbin işində varislik uşağın hazırlığına yönəldilir. Bu prsesdə çox şey tərbiyəçi və müəllimlərin tətbiq etdikləri metod və priyomlardan asılıdır. Ona görə də tərbiyəçi və müəllimlərin işgüzar əlaqələrinə, bir-birilə tez-tez görüşmələrinə, qarşılıqlı kömək şəraitində işləmələrinə diqqət yetirilməlidir.

## Uşaq bağçasının tərbiyəçisi

Şəxsiyyəti yalnız şəxsiyyət tərbiyə edə bilər. Tərbiyəçinin proqram və metodik göstərişlər çərçivəsində əl-qolunun bağlanması, ona sadəcə öz rolunun ifaçısı kimi baxılması və fəaliyyətinə sərt nəzarət məktəbəqədər tərbiyə sistemində bir çox nöqsanların baş verməsinə şərait yaradır. Uşağın əlindən tutub uşaq bağçasına kimin aparmasından, onun əqlinə, ürəyinə xarici aləmdən nələrin daxil olmasından çox şey asılıdır. Bu, bugünkü körpənin necə insan olacağını müəyyənləşdirir.

Məktəbəqədər təhsilin normal təşkili, uşaqların inkişafı və məktəb tə'liminə hazır olmaları ilk növbədə pedaqoji kollektivin peşə hazırlığının səviyyəsindən asılıdır. Məktəbəqədər tərbiyənin təhsilin prioritet sahələrindən biri hesab olunduğu müasir dövrdə ali və orta ixtisas məktəblərində kadr hazırlığına xüsusi fikir verilməlidir. Bu işdə uzun illərdən bəri ən'ənə şəklini almış nəzəri biliklərə üstünlüyün verilməsi özünü doğrultmur. Məktəbəqədər müəssisələrdə müvəffəqiyyətlə işləyə biləcək kadrların hazırlanması üçün tədris planlarındakı bə'zi fənlər ixtisar

olunmalı, tələbələrə onların peşə hazırlığı ilə əlaqədar biliklərin verilməsi üstünlük təşkil etməlidir. Bu məqsədlə pedaqoji təcrübəyə çox vaxt ayrılmalı, tələbələrin tə'lim müddətində ardıcıl təcrübə keçmələrinə şərait yaradılmalıdır. Tələbələrin yaxşı məktəbəqədər müəssisələrində qabaqcıl tərbiyəçilərin yanında təcrübə keçmələri tə'min olunmalıdır. Təcrubəçinin hər bir dərsi geniş təhlil olunmalı, tələbələrin, tərbiyəçilərin və təcrübə rəhbərinin iradları, məsləhətləri onun nəzərinə çatdırılmalıdır.

Uşağın şəxsiyyətinin formalaşmasında tərbiyəçi aparıcı rol oynayır. Uşağın bağçada özünü necə hiss etməsi, necə aparması tərbiyəçinin qəlbinin insani keyfiyyətindən, mə'nəvi simasından, pedaqoji ustalığından asılı olur. Cəmiyyətimizin gələcək vətəndaşının tərbiyəsi tərbiyəçidən öz üzərində fasiləsiz işləməyi tələb edir. Tərbiyəçi yalnız uşaqlara müəyyən biliklər və bacarıqlar vermir, o, həm də uşaqların yamsılamaları üçün nümunədir, onların bütün həyat və fəaliyyətlərinin təşkilatçısıdır. Bağçada çox şey tərbiyəçinin uşaqlara necə münasibət bəsləməsindən, onların qarşılıqlı münasibətlərini necə təşkil etməsindən, bağçada yaratdığı emosional atmosferdən asılıdır.

Məktəbəqədər yaşlı uşaqların tərbiyəsinə yeni yanaşma, yeni tərbiyəçi tələb edir. Hazırda respublikanın ali və orta ixtisas məktəblərində ikinci ixtisaslı (tərbiyəçi - fiziki tərbiyə rəhbəri, ingilis dilini tədris etmək hüququna malik tərbiyəçi, tərbiyəçi - musiqi rəhbəri, tərbiyəçi - xoreoqrafiya rəhbəri, tərbiyəçi - təsviri sənət rəhbəri və s.) mütəxəssislər hazırlanmalıdır.

Respublikanın ali məktəblərində xüsusi müəssisələr üçün pedaqoji kadrların hazırlanması mühüm problemdir. Belə kadrların hazırlanması respublikada xüsusi məktəbəqədər müəssisələrin şəbəkəsinin genişləndirilməsinə şərait yaradar. Həmin müəssisələrin pedaqoji kadrlarının illik kurslarda hazırlanmasından da istifadə edilməlidir. Bu müəssisələrin tərbiyəçiləri, rəhbərləri özlərinin peşə hazırlığının səviyyəsini yüksəltmək, ictimai və ailə tərbiyəsinin vəhdətini tə'min etmək üzərində işləməlidirlər. Təhsilin bu sahəsində işlərin elmi əsaslar üzərində qurulması üçün respublika elmi-tədqiqat oftolmologiya və başqa institutlarının fəaliyyət göstərməsi təşkil edilməlidir.

Ali və orta ixtisas təhsilindən sonra tərbiyəçilər öz ixtisaslarını ixtisasartırma kurslarında artıra bilərlər. Məktəbəqədər müəssisələrin pedaqoqlarının öz işlərini səmərəli qurmaları üçün ixtisasartırma kurslarında hər bir sahə və hər bir mərhələ üzrə tədris materialı işlənməli, yeni metod və priyomlardan istifadənin yolları müəyyənləşdirilməli, onların tələblərinə uyğun biliklər verilməlidir.

Məktəbəqədər müəssisələrin pedaqoji kollektivinin nəzəri və praktik hazırlığını müəyyənləşdirmək üçün vaxtaşırı attestasiyanın keçirilməsi məktəbəqədər müəssisələrdə tərbiyə-tə'lim işinin səmərəliliyinin artırılmasını tə'min edər.

## Məktəbəqədər müəssisələrin idarə olunması

Ölkəmizdə məktəbəqədər müəssisələrin idarə olunmasına rəhbərlik və nəzarət Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən yerinə yetirilir. Ayrı-ayrı regionların xüsusiyyətlərindən, məktəbəqədər müəssisələrin xarakterindən asılı olaraq onların idarə olunmasının özünəməxsus cəhətləri qarşıya çıxır. Respublikanın bütün məktəbəqədər müəssisələrinin vahid proqram üzrə fəaliyyət göstərməsi işin gedişi prosesində müəyyən problemlərin qarşıya çıxması ilə nəticələnir. Ona görə də regionun xüsusiyyətlərini, məktəbəqədər müəssisələrin növünü, uşaqların tərbiyəsi və tə'liminə rəhbərliyin xarakterini nəzərə almaqla variativ proqramlar yaradılmalıdır. Məktəbəqədər tərbiyənin təşkilində hazırda baş verən

bütün halları nəzərə alan, çevik rəhbərliyə imkan verən elmi tədqiqatlar aparılmalıdır. Bu zaman nəzərə alınmalıdır ki, məktəbəqədər müəssisələrdə yetişmiş problemlərin həlli yalnız məktəbəqədər təhsil sisteminin demokratikləşməsi dairəsində vəzifənin yerinə yetirildiyi şəraitdə mümkündür.

Bu məqsədlə məktəbəqədər müəssisələrin şuralarının, məktəbəqədər tərbiyə şuralarının, həmçinin müxtəlif cür məktəbəqədər təhsil fondlarının yaradılması zəruridir.

Hər bir rayonda təşkil olunmuş məktəbəqədər tərbiyə şuraları aşağıdakı vəzifələri yerinə yetirə bilərlər: məktəbəqədər müəssisələrin maliyyələşdirilməsinin ictimai fondlarını yaratmaq və vəsaitin bölüşdürülməsinə, xərclənməsinə nəzarət etmək; məktəbəqədər müəssisələrin rəhbərlərinin və tərbiyəçilərinin işini qiymətləndirmək, milli-mədəni şəraitdən asılı olaraq müxtəlif tipli məktəbəqədər müəssisələrin açılmasını nəzərdə tutmaq; məktəbəqədər müəssisələrin əməkdaşlarını yaradıcı axtarışlara yönəltmək, müxtəlif "müəllif" uşaq bağçaları açılmasını tə'min etmək, məktəbəqədər tərbiyə sisteminin tərkibinə psixoloji xidməti daxil etmək və s.

Rayon (şəhər) təhsil şö'bələri uşaq müəssisəsinin işinə daim nəzarət edir. uşaq müəssisələri şö'bəsi uşaqların yay istirahətini, yeməyini, maddi bazanın yaxşılaşdırılmasını, kadrlarla tərbiyə işini müstəqil planlaşdırır və həyata keçirir.

Rayon (şəhər) təhsil şö'bələri fəallar yığıncağı keçirir, müəssisələrin keçirdikləri tədbirləri müqayisə edir, çatışmazlıqların aradan qaldırılması üçün konkret tədbirlər müəyyənləşdirir.

Layihə Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun elmi şurasında, Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elmi-Metodik Şurasının Məktəbəqədər tərbiyə və ibtidai təhsil bölməsinin iclasında müzakirə edilib, çap olunması məsləhət görülmüşdür.

**Tərtib edən: p.e.d., prof. Y. Kərimov**

Konsepsiyanın hazırlanmasında pedaqoji elmlər namizədi L.Cəfərova, Bakının Nərimanov rayonu təhsil şö'bəsinin metodisti K. Əliyeva iştirak etmişdir. Konsepsiya hazırlanarkən keçmiş ittifaq dövrünün konsepsiyasından da istifadə olunmuşdur.

## OXUCULARIN NƏZƏRİNƏ !

Sizə təqdim olunmuş bu layihənin, şübhəsiz, müəyyən düzəlişlərə və təkmilləşməyə ehtiyacı var. Arzu və təklifləri ilə məsləhət verən oxuculara əvvəlcədən təşəkkürümüzü bildiririk.

# AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ İNTERAKTİV METODLARDAN İSTİFADƏ

**Reyhan Qarayeva,**
Binəqədi rayonu 246 nömrəli orta məktəbin müəllimi

İslahat proqramının qarşıya qoyduğu mühüm vəzifələr təhsil işçilərində yeni pedaqoji təfəkkürün formalaşdırılmasını, təhsilin forma və məzmunca yeniləşdirilməsini, tə'limin mütərəqqi prinsip və metodlarından istifadə olunmasını tələb edir.

Hazırda tə'lim-tərbiyə prosesi, tə'lim metodları şagirdlərin müstəqil fəaliyyətini, müəllim və şagirdlərin bir-biri ilə əməkdaşlığını, şagirdlərdə təhliletmək, düşünmək, sərbəst rə'y söyləmək, şəxsiyyəti qiymətləndirmək, əməkdaşlıq etmək, başqalarını dinləmək, öz fikirlərini dəqiq izah etmək bacarığını, natiqlik qabiliyyətini, tənqidi təfəkkürünü inkişaf etdirməyə yönəldilməlidir.

Tərəqqi etmiş ölkələrin təcrübəsi göstərir ki, cəmiyyətin inkişaf dinamikası birbaşa təhsilin vəziyyətindən və səviyyəsindən, qazanılmış biliklərin tətbiqindən asılıdır. Bu gün dünya təcrübəsində yeni pedaqoji texnologiyalardan, interaktiv tə'lim metodlarından geniş istifadə olunur. «İnteraktiv» termini «dialoq, qarşılıqlı əlaqədə fəaliyyət göstərmək» kimi başa düşülməlidir. «Rollu oyunlar», «cütlər və qruplar», «əqli hücum», «layihələrin hazırlanması», «işgüzar səs-küy», «söz assosasiyaları», «ümumi diskusiya», «suallar», «müşahidə» və s. belə metodlardır. Azərbaycan dili dərslərində interaktiv tə'lim metodlarından istifadə böyük əhəmiyyətə malikdir.

Tədris prosesində tə'limin məqsəd və vəzifəsinin uğurla həyata keçirilməsi, ilk növbədə, müəllimin nəzəri biliyinin, praktik qabiliyyətinin, pedaqoji ustalığının nəticəsi kimi ortaya çıxır. Müəllim həmişə yenilik üçün axtarışda olur. Hər bir sinif müəllimi unutmamalıdır ki, Azərbaycan dili, riyaziyyat, təbiətşünaslıq və s. kimi fənlərin təməli ibtidai siniflərdən qoyulur. Azərbaycan dili xalqın varlığını əks etdirən başlıca amildir.

Dilin incəliklərinin düzgün öyrədilməsində sinif müəllimlərinin üzərinə böyük vəzifələr düşür, buna görə də sinif müəllimi bütün interaktiv metodlardan səmərəli istifadə etməlidir ki, istənilən nəticəni əldə edə bilsin.

Düzgün, səliqəli, sür'ətli yazmağın ilk mərhələsi ibtidai siniflərdən başlayır. Şagirdlərin nitqinin yeni-yeni sözlərlə zənginləşdirilməsinin təməli ibtidai siniflərdə qoyulur.

Tə'lim prinsipləri (humanizm; inteqrasiya) və interaktiv metodlar dərsin mövzusundan, qarşıya qoyulan məqsəddən, müəllimin bütün bunlara münasibətindən, yaradıcılıq qabiliyyətindən, pedaqoji, psixoloji hazırlıq səviyyəsindən, dərsə hazırlığından asılı olaraq öz nəticəsini verir. Bütün bunlar birbirləri ilə sıx, qarşılıqlı əlaqədə olub, tədris prosesinin əsasını, canını təşkil edir. Onları özündə cəmləşdirən müəllimin dərsi müasir dövrün tələblərinə cavab verən dərs ola bilər.

İnteraktiv tə'lim metodu üçün aşağıdakılar səciyyəvidir:

- Şagirdlərin fəal işi;
- Müəllimin şagirdlərlə və şagirdlərin bir-biri ilə əməkdaşlığı;
- Didaktik oyunlardan istifadə olunması;
- Şagirdlərin sinifdə qeyri-ən'ənəvi yerləşdirilməsi.

İnteraktiv tə'lim zamanı müəllim üçün ən yaxşı iş formalarından biri qruplar üzrə əməkdaşlıq tə'limini təşkil etməkdir. Bu zaman otaqda stollar elə düzülür ki, hər bir stolun ətrafında dörd nəfər (bu az fərqli ola bilər) yerləşsin. Dərsin gedişində müəllim onlara necə işləmələri barədə məsləhət verə bilər. Ancaq heç vaxt şagirdlərə öz iradəsini, istəyini qəbul etdirə bilməz. Şagirdlər özləri məhz prosesin gedişində kollektiv fəaliyyətin fərdi işdən üstünlüyünü hiss etməlidirlər. Belə olduqda şagirdlər dərk edirlər ki, kollektiv kiçik də olsa, müəyyən problemləri müstəqil həll etmək qüvvəsinə malikdir.

Uzunmüddətli fəaliyyət zamanı şagirdlər həm də öz mövqelərinin doğruluğunu müdafiə etməyə yiyələnirlər.

Azərbaycan dili dərslərinə hazırlığın ilk mərhələsi Əlifba tə'limi dövründən başlayır. Belə ki, ayrı-ayrı səslərin birləşərək hecaları, hecaların birləşərək sözləri, sözlərin birləşərək cümlələri, əmələ gətirdiyini uşaqlar həmin dövrdən öyrənirlər. Dil tə'limi səs və hərflərin öyrədilməsindən başlanır. Səslərin düzgün tələffüzünün və düzgün yazılışının öyrədilməsi fonologiya və qrafikanın başlanğıcı deməkdir. Dilimizin bütün incəliklərinin öyrədilməsi I sinifdən başlanır. Bu işdə interaktiv tə'lim metodlarından istifadənin rolu böyükdür.

Hərflərin fərqləndirilməsi üzrə şagirdlərə aşağıdakı qaydada tapşırıqlar vermək olar. Hərflərdən biri digərindən fərqlənir:

| I qrup | II qrup | III qrup |
|---|---|---|
| A) O | A) E | A) O |
| B) N | B) M | B) A |
| C) Ə | C) N | C) N |

1-ci qrup: B variantını seçir. İş bununla bitmir, izahat verir: O və Ə hərflərindən fərqli olaraq, N hərfi samitdir.

II qrup: A variantını seçib, izahat verir: M və N hərflərindən fərqli olaraq E hərfi saitdir.

III qrup: C variantını seçib, izahat verir: O və A hərflərindən fərqli olaraq N hərfi samitdir.

Hər bir qrupun cavabına digər qrup münasibətini bildirir və şagirdlərin cavablarını müəllim qiymətləndirir.

Sinifdəki şagirdləri ayrı-ayrı mərkəzlərə bölüb onlara tapşırıqlar da vermək olar.

| I mərkəz | II mərkəz | III mərkəz |
|---|---|---|
| Oxu | Riyaziyyat | İncəsənət (rəsm). |

- Hər mərkəz *ana* sözünə dair bildiyini söyləsin.

I. Oxu mərkəzi.

«Ana mənə çox əzizdir».

«Mən anamı çox sevirəm».

«Ana bizim zəhmətimizi çəkir».

«Ana bizi dünyaya gətirən insandır».

Başqa bir şagird ana haqqında şe'r söyləyir.

II. Riyaziyyat mərkəzi.

Ana sözündə üç hərf var. Ana sözü *a* saitinin və *n* samitinin köməyi ilə düzəlib. Sözdəki *n* samitindən əvvəl və sonra *a* saiti işlənib. Bu sözü iki hecaya ayırmaq olar: *a-na*.

III. İncəsənət mərkəzi (rəsm)

Şagirdlər anaya aid şəkil çəkirlər.

Sonra hər bir mərkəzin cavabı dinlənilməli, qiymətləndirilməli, daha yaxşı cavab verən mərkəz alqışlanmalıdır.

Ümumiyyətlə, şagirdlərə hər bir öyrənilən sözü asanlıqla hecalara bölməyin yollarını, hər bir hecanın incə saitlə düzəldiyini, belə hecaların qalın saitlərlə müqayisə etməyin mümkün olduğunu öyrətmək lazımdır.

İnteraktiv tə'lim metodlarından biri də rollu oyunlardır. Rollu oyunlar uşaqlara tanış olan hər hansı hadisənin, prosesin, əməlin əyani canlandırılması vasitəsilə fəndaxili (fənlərarası), fəsildaxili (fəsillərarası) və s. səbəb-məqsəd əlaqələrinin, qanunauyğunluqlarının daha dərindən dərk edilməsinə kömək göstərməkdən ibarətdir. Rollu oyunları Azərbaycan dili, eləcə də başqa fənlərin tədrisi zamanı sinifdənxaric tədbirlərdə, qrup, dərnək məşğələlərində tətbiq etmək olar. Bu məqsədlə sait və samit səsləri təmsil edən (səslərin, hərflərin rolunu ifa edən) uşaqlar hər bir hərfin əlifba sırasında tutduğu yerdən, hər bir hərfin rolundan, əhəmiyyətindən, qalın və incə saitlərdən mə'lumat verə, sərbəst şəkildə heca, söz və cümlələr qura bilərlər. Leksikaya dair təşkil olunan oyunlar şagirdlərdə şifahi nitq bacarığını və vərdişlərini fəallaşdırır, onların lüğət ehtiyatını zənginləşdirir. Bu oyun zamanı xalqımızın müdrikliyüni, tarixini, adət-ən'ənəsini, sağlam fikir və yumor hissini özündə əks etdirən atalar sözlərindən də istifadə etmək olar.

«Əqli hücum» metodu. Bu metod vasitəsilə dərs və məşğələ prosesində şagirdlərin fəallığının rəğbətləndirilməsinə və onlar tərəfindən ideyaların sür'ətlə irəli sürülməsinə imkan yaradılır. Bu üsuldan konkret problemin həlli və ya hansısa suala cavab axtarılması zamanı istifadə olunur. Belə ki, «Əqli hücum» yeni mövzunun izahından əvvəl, habelə çevik yaradıcı çalışmaların (məsələn, hər hansı bir fikrin, ifadənin və s. tamamlanmasında mümkün variantların söylənilməsi və onların məntiqi sonluğa çatdırılması) yerinə yetirilməsi prosesində və digər bu kimi hallarda tətbiq olunur.

İbtidai sinif (xüsusən I sinif) şagirdlərinin fonetik təhlil aparmaq bacarığını yoxlamaq məqsədilə aşağıdakı qaydada suallar tərtib etmək olar:

- Sözdə neçə səs var?
- Sözdə neçə hərf var?
- Səslə hərfin sayı uyğun gəlirmi?
- Sözdə neçə heca var?
- Heca hansı növdədir: açıqdır, yoxsa qapalıdır?

Təhlil üçün *vətən* sözü verilir.

Suallar əsasında uşaqlar fikirləşirlər və biliklərinə istinadən cavab verirlər:

*Vətən* sözündə neçə səs var?

Ş. – *Vətən* sözündə beş səs var.
M. –Yaxşı, bəs neçə hərf var?
Ş. – Sözdə beş hərf var.
M. – Sözdəki səslərin sayı ilə hərflərin sayı uyğun gəlirmi?
Ş. – Bəli. Sözdə beş səs və beş hərf var.
M. – Deyin görək *vətən* sözündə neçə heca var?
Ş. – İki heca var (*və-tən*).
M. – Birinci hecada neçə səs var?
Ş. – İki səs var (*v, ə*).
M. – Bu açıq hecadır, yoxsa qapalı heca?
Ş. – *Və* hecası saitlə bitdiyi üçün açıq hecadır.
M. – Bəs ikinci hecada neçə səs var?
Ş. – Üç səs var: (t, ə, n).
M. – İkinci heca qapalı hecadır, yoxsa açıq?
Ş. – Samitlə bitdiyi üçün qapalı hecadır.

Bütün bu suallara şagirdlər cavab verərkən öyrəndikləri biliklərə əsaslanıb nəticə çıxardırlar. Şagirdlərin hər birini düşünməyə vadar edən sualların əhəmiyyəti çox böyükdür, çünki bu zaman onlar başa düşdükləri formada cavab tapır, bilmədiklərini yoldaşlarından eşidir və təkrar edib öyrənirlər.

Qeyd olunduğu kimi, interaktiv tə'lim metodlarından istifadə tə'limin keyfiyyətini daha da yüksəldir. Yeni metodlar əsasında keçilən dərs hər bir mərhələdə imkan verir ki, zəif şagirdlər öz qüvvələrinə inam hiss etməklə qüvvətli şagirdlərlə birlikdə, hətta onlarla bərabər səviyyədə qruplarına xal qazandırsınlar.

Tə'lim-tərbiyə prosesində müasir, o cümlədən interaktiv tə'lim metodlarının tətbiqi şagirdlərdə müstəqil düşünmək, sərbəst rə'y söyləmək, hər hansı problem barədə başqalarının fikrinə münasibət bildirmək, digər fərqli nöqteyi-nəzəri təsdiq, yaxud inkar etmək, çoxluğun qərarını qəbul etmək, yaxud öz qərarının üstündə israr etmək və s. xüsusiyyətlərin formalaşmasına bilavasitə kömək göstərməklə təfəkkürün tənqidiliyi, müstəqilliyi və çevikliyinə zəmin yaradır.

## RABİTƏLİ NİTQİN İNKİŞAFINDA İNTERAKTİV METODLARDAN İSTİFADƏ

**Səkinə Əzizova,**
Sabirabad rayonu, M.Məlikov adına Şəhriyar kənd orta məktəbin müəllimi

İbtidai siniflərdə ana dili tə'liminin qarşısında qoyulmuş başlıca vəzifələrdən biri də şagirdlərə öz fikrini şifahi və yazılı şəkildə rabitəli ifadə etməyi öyrətməkdir. Təbii ki, bu, tə'limin digər vəzifələri ilə qarşılıqlı əlaqədə həyata keçirilir. Nitqin rabitəliliyi fikrin ardıcıl, məntiqi, dəqiq və məzmunlu olması ilə xarakterizə edilir. O, hər şeydən əvvəl, məntiqi düşüncə tərzinin nəticəsi kimi

meydana çıxır. Deməli, şagirdlərin rabitəli nitqinin inkişafı ilk növbədə gerçəkliyi duymaq, hadisələr arasında əlaqəni qavramaq və dil normalarına yiyələnmək səviyyəsindən asılıdır. Şagirdlərin ümumi inkişafının göstəricilərindən biri kimi çıxış edən rabitəli nitq dil və oxu dərslərində aşılanan əməli vərdişlər sistemidir. Ona ardıcıl, məqsədyönlü, praktik istiqamətdə nail olunması mövcud dərsliklərin məzmunu, müəllimlərin peşəkarlıq səviyyəsi və tə'lim metodlarının düzgün seçimi ilə sıx bağlıdır.

Təhlil göstərir ki, ibtidai siniflər üçün Azərbaycan dili və oxu dərslikləri şagirdlərin rabitəli nitqini inkişaf etdirmək baxımından geniş imkanlara malikdir. Yığcam, lakonik mətnlər, yaxud şəkillər əsasında tərtib olunmuş çalışmalar şagirdlərin ən çox sevdikləri tapşırıq növlərindəndir. Onlar üzərində aparılan iş, əsasən, öyrədici ifadə və inşa yazıların yerinə yetirilməsinə xidmət edir. Şagirdlərin mətni təşkil edən hissələr (giriş, əsas hissə və nəticə) arasında məntiqi və qrammatik əlaqəni qurmaq bacarıqları məhz bu iş növlərində formalaşır.

Çalışmaların böyük əksəriyyəti orfoqrafik, orfoepik, leksik və qrammatik məzmunlu rabitəsiz sözlər və cümlələr üzərində qurulmuşdur. Doğrudur, nəzəri baxımdan bu çalışmalar da nəticə e'tibarilə rabitəli nitqin inkişafına yönəlmişdir, ancaq təcrübə göstərir ki, ayrı-ayrı sözlərin yazılışını, deyilişini, lüğəvi mə'nasını mənimsəyən şagirdlər çox zaman müstəqil mətn qurmaqda çətinlik çəkirlər. Hətta cümləni təşkil edən söz və ya cümlə üzvlərini seçə bilən, cümlənin buraxılmış hər hansı bir üzvünü asanlıqla bərpa etməyi bacaran şagirdlər rabitəli mətn tərtib edərkən dolaşırlar. Məhz buna görə də dil dərsliklərində fonetik, leksik və qrammatik məzmunlu çalışmaların da rabitəli mətn əsasında tərtibi arzu olunur. Yaxud, çalışmalar elə düşünülməlidir ki, burada mətni təşkil edən hissələrin bərpası üzərində iş aparılsın. Hər halda, mövcud dərsliklərin bu strukturda yazılması şagirdlərin hərtərəfli nitq inkişafı üçün qənaətbəxş sayıla bilməz.

Oxu dərslikləri üzərində aparılan müşahidələr də eyni fikri söyləməyə əsas verir. Doğrudur, oxu dərsliklərinin strukturu elədir ki, burada yalnız rabitəli mətnlər verilir, lakin rabitəli mətnin oxunması, yaxud məzmununun nəql edilməsi hələ şagirdlərin rabitəli niqə yiyələnmələri demək deyil. Şagird oxuduğunu öz sözləri ilə ifadə edə bilirmi? Oxuduğu mətn əsasında müstəqil mühakimə yürüdə bilirmi? Mətndəki hadisələrə münasibət bildirə bilirmi? Rastlaşdığı həyat hadisələrinin qiymətləndirilməsində əldə etdiyi biliklərdən, faktlardan yararlana bilirmi? Öyrəndiyi hikmətli kəlam və ya sözlərdən gündəlik nitqində istifadə edirmi? Bu və digər suallar ətrafında düşüncələrimiz göstərir ki, müasir orta səviyyəli şagird normal qəbul olunmuş bu tələblərdən çox uzaqdır. Məhz buna görə də şagirdlərimizin böyük əksəriyyəti müəyyən həyat hadisələri ilə bağlı fikir yürütməkdə çətinlik çəkir. Əvvəlcədən hazırlanmış şablon ifadələrdən istifadə etmək nitqin göstəricisi sayıla bilməz. Sözsüz, bu istiqamətdə oxu dərsliklərində hər mətndən sonra verilmiş sual və tapşırıqların rolu böyükdür. Təhlil göstərir ki, bu sualların çoxu mətndəki ha-

disələri yenidən canlandırmağa, hadisələr arasında əlaqə qurmağa xidmət edirsə də, yaradıcı suallar azdır. N.Abdullayevin IV sinif üçün oxu dərsliyində sualların tərtibinə az fikir verilmiş və onlar daha çox formal xarakter daşıyır.

Şagirdlərin rabitəli nitqinin inkişafını müəllim peşəkarlığı ilə əlaqələndiririk. Müəllimin dərsi qurmaq, şagirdləri istiqamətləndirmək bacarığı nöqsanları aradan qaldırmağa bilər. Yaxşı dərslik üzərində işləyən pis müəllim, sözsüz, məqsədinə nail ola bilməz. Ancaq öz işini bilən, dərsin mərhələləri arasında düzgün əlaqə yaradan və tə'lim prosesində şagirdi müstəqil, sərbəst, yaradıcı işlətməyi bacaran müəllim çox şeyə nail ola bilər.

Müəllimin peşəkarlıq səviyyəsi dərslik və şagirdlə işləmək bacarığı ilə yanaşı, müasir tə'lim metodlarına hansı səviyyədə bələdliyi ilə ölçülür. Yaradıcı müəllim zamanla ayaqlaşmağa, onun tələblərinə uyğun təkmilləşməyə meylli olmalıdır. Bu mə'nada Azərbaycan təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiyasının bir göstəricisi kimi dəyərləndirilən və hazırda ümumtəhsil məktəblərində, o cümlədən onun aşağı pilləsi olan ibtidai siniflərdə fəal tə'lim metodlarından istifadə olduqca əhəmiyyətlidir. Qabaqcıl təcrübə göstərir ki, şagird fəallığı, müstəqilliyi əsasında tərtib edilən bu metodlar onların bir-biri ilə qarşılıqlı əlaqədə olan təfəkkür və nitq qabiliyyətinin inkişafına yönəlmişdir.

Müasir dərs inkişafetdirici olmalıdır. O, ümumən şagirdin dünyagörüşünün zənginləşməsi ilə yanaşı, həyat üçün vacib olan praktik vərdişlərin formalaşmasına xidmət etməlidir. Bu baxımdan tə'lim metodlarına real münasibəti təhlil edən prof. Y.Kərimov belə bir nəticəyə gəlir: «...tə'lim metodu müəllim və şagirdlərin birgə fəaliyyətinin, şagirdlərin bacarıq və vərdişlərinin, dünyagörüşünün formalaşmasını, qabiliyyətlərinin inkişafını, həyata hazırlanmasını tə'min edən yollardır». (Y.Kərimov. İbtidai tə'lim: problemlər, vəzifələr. «Nasir» nəşriyyatı. Bakı, 2000, səh. 55-56.).

Beləliklə, fəal tə'lim metodları dedikdə, şagirdləri tə'lim prosesinin tamhüquqlu iştirakçısına-subyektinə çevirən və onlarda müstəqilliyə, yaradıcılığa, qarşılıqlı ünsiyyətə böyük maraq yaradan praktik yollar nəzərdə tutulur. Bu yollar içərisində fəallaşdırma məşqi, rollu oyunlar, əqli hücum, sorğu vərəqi, «qapalı» suallar, cütlər və qruplar, zəncirvari hekayə və şəkillər, müzakirə xarakterli debatlar və s. hazırda tə'lim prosesinə sur'ətlə daxil olmaqdadır. E'tiraf etmək lazımdır ki, ilk mərhələdə bu iş üsullarının çoxu bə'zi müəllimlər tərəfindən formal mənimsənilərək konkret dərsin qarşısında qoyulmuş məqsədlərlə əlaqələndirilmirdi. Bu qorxulu tendensiya formalizmə aparıb çıxarır. Ancaq yaradıcı müəllimlərin iş təcrübəsi göstərir ki, fəal tə'lim metodlarından məqsədyönlü istifadə dərsi canlı, mütəşəkkil təşkil olunmuş bir prosesə çevirir. Axtarıcılıq, real nəticəyə müstəqil gəlmə, şagirdlərin sərbəst şəkildə mühakimə yürütmələri, eləcə də kollektivin özünü tənzim etməsi və s. cəhətlər belə dərslər üçün xarakterikdir. Müəllimin yalnız

istiqamətverici müdaxiləsi müşahidə olunan belə dərslər eyni zamanda şagirdlərin rabitəli nitqinin inkişafında mühüm amil olur.

Təcrübəmə əsasən bir neçə nümunəni nəzərinizə çatdırmaq istərdim. IV sinif Azərbaycan dili dərslərində şagirdlərin maraqlı qarşıladıqları mövzulardan biri cümlə üzvləri ilə bağlıdır. Həmin mövzunun tədrisi zamanı cümlə üzvləri haqqında mə'lumat vermək və müvafiq nəzəri bilik öyrətməkdən savayı, şagirdlərin cümlə qurmaq, onu genişləndirmək və fikrin ifadəsi üçün cümlələr arasında əlaqə yaratmaq vərdişlərinin inkişafına xüsusi diqqət verir, çox zaman əqli hücum metodundan istifadə edirəm. Yazı taxtasında «Yaz gəlir» kimi sadə bir cümlə yazır və həmin müxtəsər cümləni genişləndirməyi şagirdlərdən tələb edirəm. Deyilmiş hər bir cümləni yazıram:

Yurdumuza yaz gəlir.

Yurdumuza gözəl yaz gəlir.

Doğma yurdumuza gözəl yaz gəlir.

Doğma yurdumuza bahar sovqatlı gözəl yaz gəlir və s.

Bu tipli çalışmaların köməyi ilə şagirdlərin cümlə qurmaq vərdişlərini inkişaf etdirirəm. İş bununla bitmir. Hər bir işçi qrupuna müvafiq mövzuda kiçik bir mətn yazmağı tapşırıram. Bu tapşırıqlar işçi vərəqlərində əks olunur:

İşçi vərəqi 1

*Təbiət, köçəri quşlar, torpaq, canlandırmaq, ruh vermək* kimi sözlərdən istifadə etməklə «Yaz gəlir» mövzusunda 5 cümlədən ibarət bir mətn yazın.

İşçi vərəqi 2

Verilmiş mətni genişləndirib yazın.

Bahar gəlir. O, insanları sevindirir. Həyat qaynayır. Təbiət oyanır. Torpaq canlanır. Ağaclar çiçəkləyir. Quşlar qayıdır. Uşaqlar oynayırlar.

İşçi vərəqi 3

Verilmiş yaz mənzərəsinə dair şəkil əsasında kiçik mətn yazın.

İşçi vərəqi 4

Mətnin hissələrini düzgün əlaqələndirməklə mətni bərpa edin.

1. Məhəllələrdə tonqal qalanır. Hamı tonqal üstündən tullanır, ağrı-acılarını odda yandırırlar.

2. Yazın gəlişi vətənimizdə böyük el bayramı–Novruzla qarşılanır. Xalqımız bu bayrama xüsusi hazırlaşır. Evlər, eşiklər təmizlənir, küsülülər barışır.

3. Uşaqlar Novruzu daha çox sevirlər. Onlar yumurta döyüşdürür, qonşu evlərə papaq atır, nəğmə deyir, şadlıq edirlər.

İşçi vərəqi 5

Verilmiş şe'r parçası əsasında bahar haqqında kiçik bir mətn yazın.

**Yaz gəlir**

Çəmənlərin, çiçəklərin
Səfalı dostu yaz gəlir.
Təbiətin «Oyan!» deyən
Bahar sədası yüksəlir.

Günəş doğur, işıqların
Dərə, təpə, o çöl, bayır,
Şırıl-şırıl axan sular
«Bahar!» - deyə pıçıldayır.

Səhər-səhər qaranquşun
Gəlir sevimli nəğməsi,
Ürəkləri sevindirir
Bu yüksələn həyat səsi.

Narın-narın yağan yağış
Bənövşəni oyandırır,
İlıq nəfəsli yaz, soyuq
Küləkləri dayandırır.

*M.Dilbazi*

Məhz bu canlı proses şagirdlərin fəal işini tə'min edir. Heç kəs dərsə biganə qalmır. Hərə öz imkanı daxilində ümumi nəticənin alınmasına kömək göstərir. Bə'zi qruplar az vaxt ərzində (5-7 dəqiqədə) müstəqil bahar mənzərəsi də çəkməyə nail olur. Bu, dərsdə interaktivliyin tə'min olunmasına şərait yaradır.

Rabitəli nitqin inkişafında fəal tə'lim metodlarından istifadənin səmərəliliyi mübahisəsizdir, lakin ona aludə olmağı düzgün saymıram. Müəyyən hazırlıq aparılmadan, şagirdləri müvafiq bilik və mə'lumatlarla silahlandırmadan, əməli vərdişlərə yiyələndirmədən fəal tə'lim metodlarından istifadə məzmunsuz bir formaya çevrilir. Fikirsiz mətn söz yığınını xatırladır. Odur ki, fəal tə'lim metodları məqsədyönlü tətbiq edilməlidir.

## EYNİ ÇEVİRMƏLƏRİN TƏTBİQİNİN ÖYRƏDİLMƏSİ

**İdris Əliyev,**
ADPU-nin dosenti

İbtidai siniflərdə hesablamalarda tətbiq olunan üsullardan biri ifadələrin eyni çevrilməsidir. Verilən ifadənin qiymətcə ona bərabər olan başqa ifadə ilə əvəz edilməsinə həmin ifadənin eyni çevrilməsi deyilir.

İfadələrin eyni çevrilməsi ilə şagirdlər I sinifdən başlayaraq tanış olurlar. Onlar $5 + 3$ cəmini tapmaq üçün onu təsəvvürdə

$$5 + 2 + 1,\ 5 + 1 + 2,\ 5 + 1 + 1 + 1$$

kimi canlandıraraq cavab verə bilirlər.

II sinifdə, məsələn, $45 + 13$ cəmini tapmaq üçün şagirdlər onu aşağıdakı kimi yazırlar:

$$(45 + 10) + 3;\ (40 + 13) + 5;\ (40 + 10) + (5 + 3)$$

II sinifdə şagirdlərdə vurma və bölmə əməlləri haqqında ilkin təsəvvürlər yaradılarkən eyni çevirmələrdən istifadə olunur: məsələn, şagirdlər bərabər toplananların cəmini hasil ilə əvəz edirlər.

$$4 + 4 + 4 = 4 \cdot 3; \; 7 + 7 + 7 + 7 + 7 = 7 \cdot 5$$

Bununla əlaqədar izah edilməlidir ki, vurma və bölmə işarələri 1698-ci ildə alman riyaziyyatçısı Leybnits tərəfindən işlədilmişdir.

II sinifdə verilən ədədin bərabər toplananlarının cəmi şəklində göstərilməsi məsələsi də (tərs məsələ də) öyrədilməlidir:

$15 = 5 + 5 + 5$; $15 = 3 + 3 + 3 + 3 + 3$;

$16 = 8 + 8$; $16 = 4 + 4 + 4 + 4$; $16 = 2 + 2 + 2 + 2 + 2 + 2 + 2 + 2$ və s. kimi.

III və IV siniflərdə vurma ilə bağlı nisbətən mürəkkəb çevirmələrə aid çalışmalar həll edilir:

1. İfadələri müqayisə edin.

$9 \cdot 4$ və $9 \cdot 6$; $7 \cdot 5$ və $7 \cdot 6$

Şagirdlər tapırlar: $36 < 56$; $35 < 42$

2. Vurma cədvəlindən istifadə edərək, cavabı tapın:

$8 \cdot 6 + 8 = ?$ $\quad 10 \cdot 4 - 10 = ?$

$7 \cdot 8 + 7 = ?$ $\quad 9 \cdot 5 - 9 = ?$

Şagirdlər burada vurma əməlinin mə'nasını tətbiq edirlər.

$8 \cdot 6 + 8 = 8 \cdot 7 = 56$ $\quad 10 \cdot 4 - 10 = 10 \cdot 3 = 30$

$7 \cdot 8 + 7 = 7 \cdot 9 = 63$ $\quad 9 \cdot 5 - 9 = 9 \cdot 4 = 36$

Burada mühakimə belə aparılır: məsələn, $8 \cdot 6 + 8$ üçün.

8 ədədi toplanan kimi 6 dəfə götürülür və həmin cəmə bir 8 də əlavə toplanan kimi əlavə olunur. Alınan bütün bərabər toplananların sayı 7 olduğundan cavab $8 \cdot 7$ olur.

$(10 + 4) \cdot 2$. Bu iki üsulla yerinə yetirilir: $14 \cdot 2$ və $(10 + 4) + (10 + 4)$ kimi.

III sinifdə cədvəldənkənar vurma və bölmə öyrədildikdən sonra şagirdlər, məsələn, $28 \cdot 4$ ifadəsini $(20+8) \cdot 4$ ifadəsinə çevirir və burada vurmanın paylanma xassəsini tətbiq etməklə, verilən hasili hesablayırlar.

Şagirdlərə aşağıdakı kimi çalışmalar verilə bilər:

«465 + 69 cəmini əlverişli üsulla hesablayın».

Müəllim həmin ifadəni 465+70 kimi yazır və tamamlanmasını şagirdlərə həvalə edir.

Belə şifahi hesablama zamanı çalışmalarının həllində şagirdlər çətinlik çəkirlər. Təcrübə göstərir ki, kifayət qədər uyğun çalışmaların həlli bu çətinliyin aradan qaldırılmasına kömək göstərir. Bundan sonra aşağıdakı məzmunda çalışmalar verilə bilər:

İfadələri müqayisə edin və onların arasında >, <, = işarələrindən lazım olanı yazın:

$(40 + 6) \cdot 3$ $\quad 40 + 36 + 3$

$(40 + 6) \cdot 3$ $\quad 40 \cdot 3 + 6 \cdot 3$

Müəllim əməllərin xassələrini və müqayisə qaydasını şagirdlərə xatırlatmalıdır.

Aşağıdakı kimi tapşırıqlar da verilə bilər:

«Bərabərliklərin doğru olub-olmadığını hesablama ilə yoxlayın:

$$10 \cdot 4 + 3 \cdot 4 = (10 + 3) \cdot 4$$

$$40 + (3 + 4) = 40 + 7$$

$$15 \cdot 3 + 5 \cdot 3 = (15 \cdot 3 + 5) \cdot 3$$

İbtidai siniflərdə eyni çevirmələr ədədi bərabərsizliklərin tədrisində də tətbiq olunur və uyğun çalışmaların həlli ilə öyrədilir. Bu məqsədlə aşağıdakı kimi çalışmalar həll etdirmək məsləhətdir.

1) Hər iki ifadənin qiymətini tapıb müqayisə edin:

$8 \cdot 3 + 5$ və $8 \cdot 3 + 6$

$24 + 5 = 29$; $24 + 6 = 30$

$29 < 30$

$8 \cdot 3 + 5 < 8 \cdot 3 + 6$

2) Toplananlarından biri bərabər olan ifadələri müqayisə edin:

$9 \cdot 4 + 6$ və $9 \cdot 4 + 7$

$6 < 7$ olduğundan

$9 \cdot 4 + 6 < 9 \cdot 4 + 7$

İbtidai siniflərdə sadə tənliklərin həllində də eyni çevirmələr tətbiq olunur.

$$1)\ x + 5 = 8$$

Məchul toplananın cəmlə mə'lum toplananın fərqinə bərabər olduğu qeyd edilərək yazılır:

$$x = 8 - 5 = 3$$

$$2)\ 9 - x = 2$$

Çıxılan azalanla fərqin fərqinə bərabər olduğu qeyd edilərək yazılır:

$$x = 9 - 2 = 7$$

$$3)\ 3 \cdot x = 27$$

Məchul vuruğun hasilin mə'lum vuruğa bölünməsindən alınan qismətə bərabər olduğu qeyd edilərək yazılır:

$$x = 27 : 3 = 9$$

$$4)\ x : 6 = 18$$

Məchul bölünənin bölənin qismətə vurulmasından alınan hasilə bərabər olduğu qeyd edilərək yazılır:

$$x = 18 \cdot 6 = 108$$

5) x-in natural qiymətləri üçün ifadələri müqayisə edin:

$$x : 4 \text{ və } x : 5$$

$$x \cdot 4 \text{ və } x \cdot 5$$

Eyni çevirmələrin tətbiqi üzrə işlər şagirdlərin məntiqi təfəkkürünün inkişafını təmin edir.

## ŞAGİRDLƏRİN FİZİKİ TƏRBİYƏSİNDƏ ÜMUMİNKİŞAFETDİRİCİ ÇALIŞMALAR

İbtidai siniflərdə fiziki tərbiyənin xəzinəsində komponentlərindən biri də ümuminkişafetdirici çalışmalardır. Bu çalışmaların müntəzəm yerinə yetirilməsi uşaqların orqanizminin inkişafına, onların sağlamlığına, bir sıra xəstəliklərin profilaktikasına xidmətini qiymətləndirməmək mümkün deyil. Ümuminkişafetdirici çalışmalar güclülük, çeviklik, dözümlülük kimi hərəkəti keyfiyyətlərin inkişafına təkan verir.

Ümuminkişafetdirici çalışmaların emosional cəhətini də nəzərə almaq lazımdır. Böyük və kiçik həcmli toplarla, gimnastika ağacları ilə, tullanma ipi ilə, halqalarla, kisəciklərlə, bayraqlarla təşkil olunan bu çalışmaların yerinə yetirilməsi uşaqlara böyük sevinc bəxş edir.

Hər bir şagird üçün topu dəqiq atıb-tutmaq, müxtəlif alətlərlə işi tənzimləmək, bədəninin hərəkətlərini əşyaların hərəkətlərinə uyğunlaşdırmaq, əlaqələndirmək orqanların normal inkişafını sür'ətləndirir, əzələ hisslərini kəskinləşdirir, uşağın emosional vəziyyətini yüksəldir.

Yaxşı öyrənilmiş və düzgün yerinə yetirilmiş ümuminkişafetdirici çalışmaları əşyasız səhər gigiyena gimnastikaları üçün tövsiyə etmək mümkündür. Düzgün qamətin formalaşmasına xidmət edən çalışmaları yalnız dərsin əsas hissəsinə deyil, bədən tərbiyəsi dəqiqələrinə də daxil etmək lazımdır. Belə olduqda uşaqların yorğunluğu aradan qalxır, ağır əqli işdən sonra fəal istirahətləri tə'min olunur.

Ümuminkişafetdirici çalışmaların sağlamlaşdırıcı, tərbiyələndirici və təhsilləndirici vəzifələri həll etməsi üçün I sinifdə işləyən müəllimlərin aşağıdakıları nəzərə almaları vacibdir.

Hər bir fiziki tərbiyə məşğələsində, onun əsas hissəsində kompleks ümuminkişaf çalışmaları yerinə yetirilir. Ona əllər çiyin nahiyəsi, gövdə və boyun üçün çalışmalar daxildir.

Uşaqlar elə düzülməlidirlər ki, müəllim onların hər birini, onlar isə müəllimi yaxşı görə bilsinlər. Sıra düzümünü vaxtı-vaxtında müxtəlifləşdirmək (üççərgə, dörd cərgə, şahmat şəkilində, iki-üç cərgə, bir-iki dairə zalın, sahənin dioqanalı üzrə və s.) olar.

Hər bir çalışmalar kompleksi əvvəlcə fiziki mədəniyyət dərsində öyrədilir, sonrakı dərslərdə təkrarlanır və möhkəmləndirilir. Kompleksin tez-tez dəyişdirilməsi məqsədə uyğun deyil. Eyni növ çalışmaların dəfələrlə təkrarı məşğələləri maraqsız edir. Ona görə də variantlardan istifadə etmək məsləhət görülür. Hərəkətin başlanğıcı və istiqamətini, sür'ətini, davametmə müddətini dəyişmək faydalıdır. Yeni kompleks yaradılarkən uşaqların arzularını da nəzərə almaq lazımdır.

Çalışmaların yerinə yetirilmə qaydası belədir:

Müəllim çalışmanı göstərir və komanda verir: «Başlanğıc vəziyyətini alın! Çalışmaya baş-la!» Şagirdlər müəllimin sayı altında onu yerinə yetirirlər. Çalışma qurtararkən «Dur!», yaxud «Qurtarın!» komandası verilir.

Şagirdlərin əksəriyyəti hərəkətləri düzgün yerinə yetirmədikdə müəllim komanda verir: «Olmadı!» və yenidən qaydasını göstərir. Şagirdlərdən bu və ya digəri yenə səhvə yol verdikdə müəllim ona yanaşıb fərdi kömək göstərir.

I sinifdə müəllim hərəkətləri izah edə-edə göstərir. Şagirdlər müəllimi müşayiət edə-edə çalışmanı yerinə yetirirlər.

I sinifdə fiziki mədəniyyət dərslərində izahatla müşayiət olunan nümayiş metodu aparıcı hesab olunur Nümayiş güzgüyə əks olunduğu kimi olmalıdır. Müəllim uşaqlarla üz-üzə dayanıb hərəkəti izah edə-edə göstərir və uşaqları başa salır ki, onlar əks istiqamətdə hərəkət etməlidirlər. Uşaqlara sola əyilməyi tələb edən müəllim özü sağa tərəf əyilir: «Çalışmanı sola tərəf baş-la!».

Çalışmalar yerinə yetirilərkən müəllim tənəffüsun hərəkətlərlə düzgün birləşməsi, nəfəs alanda və verəndə hansı hərəkətlərin edilməsinin mümkünlüyünü də göstərir. Əllər yuxarıya, yanlara qaldırılarkən və onları arxaya apararkən nəfəsalma, əllər qabağa gətirilərkən və aşağı salınarkən nəfəsvermə yerinə yetirilir. Gövdə qabağa və yana əyilərkən nəfəsvermə, düzələrkən və geriyə tərəf əyilərkən nəfəsalma baş verir. Ayaqlar qabağa və yana tərəf qaldırılarkən, çömbələrkən nəfəsvermə, ayaqları sallayarkən, arxaya qatlayarkən, çömbələndə qabağa uzadarkən nəfəsalma prosesi gedir. Çalışmalarda nəfəsalma və nəfəsvermənin başlanğıcını müəyyən etmək çətin olduqda tənəffüsü dayandırmadan ahəngdar nəfəs almaq lazımdır.

Çalışmanın yerinə yetirilmə sür'əti onun nəyə xidmət etməsindən asılıdır. Dartınma, əyilmə yavaş sür'ətlə yayvari əyilmə, yerində tullanmalar sür'ətlə yerinə yetirilir.

I sinifdə çalışmaların çoxu oyun formasında, təbii hərəkətlərlə: «Əqrəb», «Təyyarə», «Mişar», «Dəryaz», «Nasos», «Atlı», «Quş uçuşu» və s. variantlarda olur.

I sinifdə iş zamanı müxtəlif istiqamətlərdə çoxlu çalışmaların aparılmasına diqqət yetirilməli, lakin kəskin, çox güc tələb edən hərəkətlərin zədələnmələrlə nəticələnəcəyi yaddan çıxarılmamalıdır.

Aşağıda I sinif şagirdləri üçün kompleks fiziki çalışmalar təqdim olunur. Bu çalışmalar təxminidir. Şagirdlərin hazırlığından, sinfin səviyyəsindən asılı olaraq onları dəyişmək mümkündür. Bə'zi komplekslərlə əlaqədar izahatlar verilir.

**I kompleks**



1. **«Parovoz».** Çıxış vəziyyəti: qollar dirsəkdən bükülür. Qolları dairə şəklində hərəkət etdirməklə yeriş.

2. **«Ştanqçı».** Çıxış vəziyyəti: ayaqları aralı qoyub dayanmaq.

1) Qollar çiyinə, ovuclar qabağa, yumruq düzəltmək; 2) Qolları enerjili şəkildə yuxarı qaldırıb əllərə baxmaq, dərindən nəfəs almaq; 3) Qolları çiyinlərə endirmək. 4) Çıxış vəziyyəti: nəfəs vermək və 6 dəfə təkrar etmək.

3. **«Dovşancıqlar».** Çıxış vəziyyəti: əsas duruş. 1) Dizləri bükərək əyləşmək, əlləri yuxarı qaldırıb başa bitişdirmək, onlara baxaraq çıxış vəziyyətinə qayıtmaq, nəfəs almaq. 6 dəfə təkrar etmək. 2) Çıxış vəziyyətinə qayıtmaq, nəfəsalma. 6 dəfə təkrar etmək.

4. **«Saatlar».** Çıxış vəziyyəti: Ayaqlar aralı, qollar yanlara. 1) sağa əyilmə; 2) sola əyilmə. Əyilmiş vəziyyətdə «tak-tuk» demək. Sərbəst nəfəsalma. 8 dəfə təkrar etmək.

5. **«Odunçu»** («Ağacqıran»). Çıxış vəziyyəti: ayaqları aralı qoymaq, bədəni azacıq arxaya əymək, qolları yuxarı qaldırıb, başın arxasında əlləri çarpazlamaq. 1) irəliyə doğru tam əyilmək, əlləri aşağı sallayıb nəfəs vermək; 2) çıxış vəziyyətinə qayıdıb, düzlənmək və nəfəs almaq. 6 dəfə təkrar etmək.

6. **«Top».** Çıxış vəziyyəti: ayaqlar aralı, əllər belə.

İki ayaq üstə tullanmaq. Sərbəst nəfəs almaq. 25 tullanış, sonra yerində addımlamaq.

**II kompleks**



Bu kompleksə imitativ çalışmalar daxildir: 1) «Alma yığımı». 8 dəfə təkrar etmək. 2) «Külək dəyirmanı». Hər əllə 6 dəfə təkrar etmək. 3) «Odunçu». 6 dəfə təkrar etmək. 4) «Otbiçən». 8 dəfə təkrar etmək. 5) «Küçük». Başı o tərəf, bu tərəfə çevirmək. 10 dəfə təkrar etmək. 6) «Pilləkənlə yuxarı». 8 dəfə təkrar etmək. 7) «At». Yerində qaçmaq. 25 dəfə təkrar etmək.

**III kompleks**



Bu kompleksə imitasiya çalışmaları daxildir:

1. «Tavana toxun». 8 dəfə takrar etmək.
2. «Saat». Gövdəni sağa və sola əymək. 8 dəfə təkrar etmək.
3. «İt pusquda». 8 dəfə təkrar etmək.
4. «Qaranquş». 6 dəfə təkrar etmək.
5. «Sərçə», tək ayaq üstə hoppanma. 25 dəfə təkrar etmək.

**IV kompleks**



Buna imitasiya çalışmaları daxildir: 1. «Kim hündürdür?». 8 dəfə təkrar etmək. 2. «Təyyarə». 8 dəfə təkrar etmək. 3. «Boksçu». 10 dəfə təkrar etmək. 4. «Pişik balası». 6 dəfə təkrar etmək. 5. «Velosiped». 10 dəfə təkrar etmək. 6. «Sallağı rəqs». 6 dəfə təkrar etmək.

**V kompleks**



1. **«Yürüşdə».** Çıxış vəziyyəti - əllər dirsəkdən qatlanır. Dizləri yüksəyə qaldırmaqla yerində 20 addım addımlamaq.

2. **«Kim hündürdür?».** Çıxış vəziyyəti: əsas duruş. a) Qollar çiyin bərabərində yanlara açılır; b) Əllər yuxarı, əllərə baxmaq; pəncələrin burnunda qalxmaq, dartınaraq nəfəs almaq; c) Qollar yan tərəfə, ç) Çıxış vəziyyəti – nəfəs vermə. 6 dəfə təkrar etmək.

3. **«Əqrəb».** Çıxış vəziyyəti: ayaqlar aralı, əllər beldə. a) Sağa əyilmək çiyinlər düz; b) Çıxış vəziyyəti. c) Sola əyilmək, ayaqlar və çiyin düz; ç) Çıxış vəziyyəti. 8 dəfə təkrar etmək.

4. **«Petruşka»** (Təlkək, kukla). Çıxış vəziyyəti: ayaqlar aralı, qollar yana, barmaqlar açıq. a) Qabağa əyilərək əlləri ayaqlara toxundurmaq, ayaqları düz tutub nəfəs vermək; b) Çıxış vəziyyəti: nəfəs almaq. 6 dəfə təkrar etmək.

5. **«Daşa dönmək».** Çıxış vəziyyəti: kürəyi üstə uzanmaq, ovuclar yuxarı olmaqla qolları yana uzatmaq. a) Ayaqları qatlamaq, onları əlləri ilə qaldırıb başa toxundurmaq (daşa dönmək), nəfəs almaq. b) Çıxış vəziyyəti: nəfəs almaq. 8 dəfə təkrar etmək.

6. **«Quş».** Çıxış vəziyyəti: hər iki ayaq üstə hoppanmaq. Yerində yeriş. 25 dəfə hoppanmaq.

**VI kompleks**



Hər bir uşağın başında kicik kisə var.

1. Yerində yeriş. 2. Pəncənin uclarına qalxmaqla qolları yana açmaq. 3. Sağa (sola) dönmək, qolları yana açmaq. 4. Diz üstə əyləşmək. Dik (şax) durmaq. 5. Çöməlmək. Dik (şax) durmaq. 6. Kisəciyi döşəməyə qoymaq, onun üstündə hoppanmaq. 7. Başda kisəciklə yerində «addımlamaq».

7-12 kompleksinə daxil olan çalışmalar əşyalarla (gimnastika çubuğu, kiçik toplar, başda kisələr) və əşyasız yerinə yetirilir. Hər bir çalışma 6-8 dəfə, yerində hoppanma isə 25 dəfə təkrar olunur. Əgər hoppanma əl, ayaq, gövdə isə müşayiət olunursa, onların sayı azala bilər. Hoppanmalardan sonra yerində «addımlama» keçirilir.

**VII kompleks**



**VIII kompleks**

Gimnastika çubuğu ilə çalışmalar.



**IX kompleks**



1. Çıxış vəziyyət. Əllər yanlarda. a) Əllər yuxarı, yanlara, sağ ayağın burnu arxaya. b) Çıxış vəziyyəti: eyni hərəkət sol ayaqla.

2. Çıxış vəziyyəti: ayaqlar aralı, əllər yanlara: a) Sağa əyilmə, əllər yuxarı, ovuclar bir yerdə. b) Çıxış nöqtəsi. Eyni hərəkət başqa tərəfə.

3. Çıxış vəziyyəti. a) Dizləri aralayaraq çökmək, dabanları döşəmədən aralamaq, əlləri dabanlara toxundurmaq. b) Çıxış vəziyyəti.

4. Çıxış nöqtəsi: arxası üstə uzanmaq, əlləri başın altına qoymaq. a) Qıçları dizdən qatlayaraq sinəyə tərəf qaldırmaq.

5. Çıxış vəziyyəti. Əlləri döşəməyə dirəyək dizlər üstə dayanmaq. a) Sağ ayağı düzəltmək; b) Çıxış vəziyyəti: eyni iş sol ayaqla.

6. Çıxış vəziyyəti: qabağa əyilib əllərinin barmaqlarını ayaqlarının ucuna toxundurmaq. a) Əlləri yana açaraq sağa dönməklə düzəlmək; b) Çıxış vəziyyəti.

7. Əllləri belə qoyaraq iki ayaqla hoppanmaq. Yerində yerimək.

**X kompleks**

Kiçik topla çalışmalar.



**XI kompleks**

Gimnastika çubuğu ilə çalışmalar.



1. Çıxış vəziyyəti: sallanmış əllərlə çubuq tutmaq. a) Çubuğu sinəyə; b) Çubuğu yuxarı qaldırıb yuxarı baxmaq; c) Çubuğu sinəyə; ç) Çıxış vəziyyəti.

2. Çıxış vəziyyəti: ayaqları aralı qoyaraq çubuğu qatlanmış qollarla arxada saxlamaq. a) Qabağa əyilmək, çubuğu arxadan yuxarı qaldırmaq, ayaqları yaxınlaşdırmadan irəliyə baxmaq. b) Çıxış vəziyyəti.

3. Çıxış vəziyyəti. a) Çubuğu yuxarı qaldırıb, sağ ayağın burnunu arxada döşəməyə toxundurmaq. b) Çıxış vəziyyəti.

4. Çıxış vəziyyəti: ayaqları aralı qoyub, çubuğu iki əllə döşəməyə dirəmək. a) Ağacın yuxarısından iki əllə tutaraq dizlərə dirənib çöməlmək; b) Çıxış vəziyyəti.

5. Çıxış vəziyyəti: diz üstə əyləşərək çubuğu boynunun arxasında tutmaq. a) Bədəni sağa çevirmək. b) Çıxış vəziyyəti: eyni hərəkət digər tərəfə doğru.

6. Çıxış vəziyyəti: qolları yanlara açmaq və aşağı salmaqla hoppanmaq. Yerində addımlamaq.

**XII kompleks**

Gimnastika çubuğu ilə çalışmalar.



## TƏSVİRİ SƏNƏT DƏRSLƏRİNDƏ KOMPÜTERDƏN İSTİFADƏ

**E'tibar Seyidov,**
Qafqaz Universitetinin müəllimi,
ARTPİ-nun dissertantı

Tə'lim-tərbiyə prosesində kompüterdən istifadə edilməsi diapazonu çox genişdir: məktəblilərin bilik səviyyəsinin yoxlanması və şəxsi keyfiyyətlərinin müəyyən edilməsindən başlamış oyunlara kimi. Kompüter həm öyrənmə obyekti, həm də tə'limin vasitəsi ola bilər. Tə'limin kompüterləşdirilməsi iki istiqamətdə informasiyanın əldə edilməsi və müxtəlif fənlərin öyrənilməsində ondan istifadə edilməsi istiqamətlərində aparıla bilər. Bu baxımdan kompüter tə'limin səmərəliliyinin artırılmasında güclü vasitədir. Kompüter dərs materialının mənimsədilməsi imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir.

Kompüter şagirdin motivasiyasını gücləndirməyə imkan verir. Tə'lim prosesində kompüterdən istifadə yalnız dərsə olan marağın artırılmasına kömək etmir, həmçinin tədris materialının çətinlik dərəcəsinə görə verilmə-

sini, doğru hələrin sayının artırılmasını asanlaşdırır ki, bu da motivasiyaya müsbət tə'sir göstərir. Bundan başqa, kompüter təhsilə mənfi münasibətin, müvəffəqiyyətsizliyin, əsaslı anlamamağın, fənnə aid digər problemlərin aradan qaldırılmasına kömək edir. Kompüterdə işləyən şagird lazım olan yardıma istinadən məsələnin həllini sona çatdırma imkanını əldə edir. Kompüterin imkanları tükənməzdir. Nəzərə almaq lazımdır ki, motivasiya mənbələrindən biri olan əyləncililik tə'lim məqsədindən önə keçməməlidir.

Kompüter şagirdləri müəyyən oyun situasiyası ilə yükləməklə onlara yardım formasını istəmə imkanlarını verir. Kompüter tədris materialını şəkillər, qrafiklər və s. ilə anlatmaqla tə'lim fəaliyyətinin idarə edilməsi yollarını əhəmiyyətli dərəcədə dəyişdirməyə imkan verir. Şagirdlərin işlədikləri modelləşdirmə, alqoritmin tərtibi, proqramlaşdırma və s. kimi tapşırıq tipləri əhəmiyyətli dərəcədə genişləndirilir.

Kompüter tə'lim prosesinin idarə olunmasının elastikliyini tə'min edərək şagirdlərin fəaliyyətinə nəzarəti əhəmiyyətli dərəcədə dəyişdirir. Çox halda o, şagirdin etdiyi səhvi qeydə alır, həmçinin onun xarakterini çox dəqiqliklə müəyyənləşdirir ki, bu da səhvin meydana gəlmə səbəbini vaxtında aradan qaldırmağa kömək edir. Şagirdlər kompüterin verdiyi suallara çox həvəslə cavab verirlər və əgər kompüter onlara «2» qiymət verirsə, bu səhvi daha tez düzəltmək həvəsi oyadır.

Müəllimin şagirdləri nizam-intizama və diqqətli olmağa də'vət etməsinə ehtiyac yoxdur. Şagird bilir ki, əgər diqqəti yayınarsa, tapşırığı vaxtında yerinə yetirə bilməz, çünki ekranda 10-15 saniyədən sonra növbəti tapşırıq görünəcəkdir.

Kompüter şagirdlərin fəaliyyətinin refleksiyasının formalaşdırılmasına kömək edir, onların fəaliyyətlərinin nəticəsini əyani təsvir etməyə imkan verir.

Təsviri sənət dərslərində kompüter texnikasından istifadə edilməsi dərsin cəlbedici və həqiqətən, müasir olmasına, tə'limin fərdiləşdirilməsinə, işlərin vaxtında obyektiv yoxlanmasına və nəticə çıxarılmasına kömək edir.

Şagirdin idrak maraqlarının inkişaf etdirilməsi, şəxsi maraq və tələbatlarının formalaşdırılması müxtəlif vasitələrlə, həmiçinin təsviri sənət vasitələri ilə həyata keçirilir. Burada o zaman müvəffəqiyyət əldə edilə bilər ki, şagird sərbəst fəaliyyətlə bərabər, mənzərə, şəkil, heykəl, me'marlıq və dekorativ tətbiqi sənət əsərlərini qavramağa hazırlanmış olsun.

İbtidai məktəb müəllimi uşaqlara məktəblilərin idrak tələbatlarını öyrənməyi, yadda saxlamağı və inkişaf etdirməyi öyrətməli, elmin əsaslarını mənimsəmələri üçün lazım olan idrak vasitələri ilə tə'min etməlidir. Buna görə də əsas məqsədlərdən biri – idrak proseslərini inkişaf etdirməkdir. İdrak fəaliyyəti idrak proseslərini – məntiqi düşünməni, diqqəti, yaddaşı, nitqi inkişaf etdirir, təhsilə olan marağı artırır. Bütün bu proseslər bir-biri ilə qarşılıqlı surətdə bağlıdır.

Dərsin metodik cəhətdən düzgün təşkili, bütün şagirdlər üçün sərbəst şəraitin yaradılması, yaradıcılıq qabiliyyətinin inkişaf etdirilməsi kompüterdən istifadəyə imkan verir. Dərsin bu formada təşkili uşaqlara məktəbəqədər yaşlarından mə'lum olan təsvir yollarını yada salmağa, müəllim tərəfindən verilən bilikləri tam mənimsəməyə kömək göstərir.

Kiçikyaşlı məktəblilərin qabiliyyətinin inkişaf etdirilməsində kompüterin rolu çox böyükdür. Təsviri sənət dərsində kompüterdən istifadə edilməsi emosional əhvali-ruhiyyə yaradır. Rəssamlıq janrlarını öyrənmək və uşaqları bu və ya digər texniki yollar, yeni bədii materiallar və terminlərlə tanış etmək üçün kompüterdən istifadə edilə bilər. Bu, uşaqlarda öyrənilən termin və ya anlayışa böyük maraq oyadar, diqqəti artırar. Kompüter, eyni zamanda, rəssamın istifadə etdiyi material və alətlərin adlarının, terminlərin təkrarlanmasını tə'min edir.

Yeni materialın uzun sürən izahından və çoxsaylı təkrarından sonra uşaqlarda yorğunluğu aradan qaldırmaq üçün kompüterdən istifadə etmək lazımdır. Bu məqsədlə uşaqlara ilin müxtəlif fəsillərinin təsvir olunduğu şəkillərin surətlərini müəyyən ardıcıllıqla, janrlara görə düzülüşünü, dekorativ-tətbiqi sənət əşyalarının təsvirlərini görünüşlərinə görə qruplarda birləşdirilməsini və ya ayrı-ayrı verilmiş müxtəlif elementlərdən naxışların tərtib olunmasını təşkil etmək mümkündür.

Oyun proqramlarının tətbiqində öyrənilən materialın ümumiləşdirilməsi və möhkəmləndirilməsi üçün də istifadə oluna bilər.

Tə'lim prosesinə kompüterin daxil edilməsi bir çox fənlərin tədrisində olduğu kimi, təsviri sənət dərslərində uşaqların yaradıcılıq qabiliyyətlərini inkişaf etdirməyə lazımi şərait yaradır.

Təsviri sənət dərslərində müxtəlif iş formaları və yollarından istifadə edilməsi uşağın yaradıcılıq prosesinə fəal qoşulmasına, təsəvvür və fantaziyasını inkişaf etdirməsinə imkan verir, onun yeni həllini bu və ya digər texnikada görməsinə kömək göstərir.

* * *

***Sizin kitab rəfiniz***

## İRS



Solmaz Amanovanın tərtib etdiyi "İrs" kitabı (OSCAR, NPM, Bakı, 2004). I-IV sinif şagirdləri üçün dərs vəsaitidir. Kitabdan ulu babalarımızdan xalqımızın tarixi — azadlıq uğrunda mübarizəsi, dili, islam dini, ədəbiyyatı, mədəniyyəti, incəsənəti, təhsili, adət və ən'ənələri, tarixi abidələri, doğma Azərbaycanın flora və faunası, təbii sərvətləri və s. haqqında yığcam informasiya toplanmışdır. Kitaba "Su satan Abbas, bülbül və qızılgül", "Turac", "Səhləb çiçəyi", "İncimiş pəri", "Sehirli buğda" nağılları əsasında hazırlanmış dərslər də daxil edilmişdir.

Kitabda irsimizə dair toplanmış materiallardan I-IV siniflərdə dərsdə və sinifdənxaric məşğələlərdə istifadə etmək mümkündür.

Kitabın redaktoru Y.Kərimov, məsləhətçilər tibb elmləri doktoru V.Şadlinski, Bakı məktəblərinin müəllimləri H.Məmmədova, X.Qədimova, R.İbrahimova, T.Hüseynova, T.Həsənova, H.Qaragözova, tərcüməçi S.İmanovadır.

# II SİNİFDƏ HƏNDƏSİ FİQURLARDAN İSTİFADƏ ETMƏKLƏ OYUNLARIN TƏŞKİLİ

**Leyla Əhmədova,**

Yasamal rayonu 158 nömrəli məktəbin sinif müəllimi

İbtidai siniflərdə həndəsi elementlərin öyrədilməsi və şagirdlərdə ilkin fəza təsəvvürlərinin yaradılması yuxarı sinif şagirdlərində fəza təsəvvürünün kifayət qədər yüksək səviyyədə formalaşması üçün bünövrədir.

Hər hansı bir yeniliyin, qeyri-adiliyi yaratma imkanının təməli uşaqlıqda yüksək psixi funksiyaların (təfəkkür və təxəyyülün) inkişafı prosesində qoyulur. 6-12 yaşlı uşaqların tə'limində məhz bunların inkişafına daha çox diqqət yetirmək lazımdır. Senzitiv xarakterli bu mərhələ obrazlı təfəkkür və təxəyyülün inkişafı üçün ən əlverişli mərhələ hesab olunur. Məhz ibtidai siniflərdə riyaziyyat dərslərində həndəsə materiallarının tədrisi zamanı bu inkişafetdirici vəzifələri yerinə yetirmək üçün daha dolğun imkanlar açılır.

Həndəsi anlayışlar görmə obrazı ilə təbii əlaqədə yaranır. Bunu nəzərə alaraq Yan Amos Komenski həndəsənin əyanilik prinsipini əsas adlandırırdı. Belə ki, butun həndəsi məsələlər əyani əsasda açıqlandığına görə şagirdlərin biliklərinin mükəmməl mənimsənilməsində tə'limin fəal metodlarından, xüsusilə didaktik oyunlardan istifadə olunması böyük əhəmiyyət kəsb edir. S.L.Rubinşteynin fikrinə görə, təfəkkür problemli situasiyadan başlanır. Oyun texnologiyası da elə problemli tə'limin texnologiyasıdır, çünki oyun prosesində informasiya xaricdən daxil olmur, daxili məhsuldur, fəaliyyətin özünün nəticəsidir.

Dərs zamanı oyun əsas məqsəd deyil, o, hər şeydən əvvəl məna ağırlığı daşıyır, yəni şagirdin təfəkkürünü inkişaf etdirir, onun dünya görüşünü genişləndirir, diqqətin, yaddaşın və təxəyyülün inkişafına kömək edir.

II sinif şagirdlərinin fəza təsəvvürlərinin inkişaf etdirilməsi üçün müxtəlif didaktik materiallardan (tikinti dəsti, konstruktor və s.) istifadə edirəm. Bu məşğələlərdə şagirdlər yaradıcılıq fəaliyyəti ilə məşğul olurlar, fikirləşməyi, düşünməyi, xüsusilə qeyri-standart düşünməyi öyrənirlər.

II sinifdə həndəsə materiallarının tədrisi zamanı riyaziyyat dərslərində istifadəsi mümkün olan bir neçə oyun və tapşırığı nəzərdən keçirək.

1. Şagirdlər cütlərə ayrılırlar. Hər cütlük eyni müstəvidə həndəsi fiqurların modelləri dəstini alır, məsələn, 2 bərabər düzbucaqlı üçbucaqlara bölünmüş bərabərtərəfli üçbucaqlar. Onların qarşısına belə bir məqsəd qoyulur: verilmiş fiqurlardan mümkün qədər tez və çox müxtəlif həndəsi fiqurlar düzəltmək və onları təsvir etmək (şəklini çəkmək). Belə ki, bir oyunçu fiqurları düzür, digəri isə onların şəklini çəkir (məs., ev).



Şəkil 1.

2. Nöqtə, şüa, düz xətt, parça kimi ilk anlayışların formalaşdırılması üçün aşağıdakı oyunu təklif etmək olar. Müəllim üzərində hər hansı bir fiqurun təsviri olan 6-7 kartoçka göstərməli, şagirdlər 20 saniyə ərzində bu kartoçkalarda olanları yadda saxlamalı və onları öz dəftərlərində çəkməlidirlər. Bu tapşırığın yerinə yetirilməsinə yarım dəqiqə vaxt ayrılır.



Şəkil 2.

3. Aşağıdakı tapşırıqları yerinə yetirdikdə şagirdlər müqayisə və ümumiləşdirmə əsasında nəticəyə gəlməli, qanunauyğunluqlar aşkar etməlidirlər. Fiqurların müqayisəsi zamanı fərqli və oxşar cəhətlərin tapılması şagirdlərin fəza təsəvvürlərinin formalaşdırılmasında mühüm əhəmiyyət kəsb edən yaddaşı, diqqəti, təxəyyülü inkişaf etdirir:

a) şəkillər cütlüyündə fiqurların müqayisəsi əsasında fərqlərin tapılması;



Şəkil 3.

b) say çöplərindən istifadə etməklə tapşırıq – fiqur düzəltmək və onu təşkil edən həndəsi fiqurların adlarını demək;



Şəkil 4.

c) «Artıq fiquru tap» oyunu (üçbucaq «artıq» fiqurdur);



Şəkil 5.

Belə tapşırıqların köməyi ilə şagirdlər müstəvi üzərində fiqurların formasını, fəzadakı vəziyyətini və qarşılıqlı yerləşməsini təhlil etməyi öyrənirlər.

4. Fiqurlar haqqında anlayışların formalaşdırılması zamanı aşağıdakı tapşırıqlar faydalıdır:

a) ev, it, günəş – sizə mə'lum olan hansı həndəsi fiqurlardan düzəlib?

ev - dördbucaqlı, üçbucaqlı, kvadrat; günəş-dairə, şüalar; it-düzbucaqlı, dairə, üçbucaqlı;



Şəkil 6.

b) bizi əhatə edən və həndəsi fiqurlardan ibarət olan əşyaları göstərin, məsələn: stol, stul kvadrat formasında; dəftər, yazı taxtası, xətkeş – düzbucaqlı formada, saat, fincan, boşqab – dairə şəklindədir.

5. Müxtəlif konstruktor tapşırıqlarının yerinə yetirilməsi zamanı fəza təsəvvürlərinin inkişafının əsas bölünməz hissəsini təşkil edən yaradıcılıq qabiliyyətlərinin inkişafı məsələləri həll olunur:

a) bir neçə həndəsi fiqurlardan qar adamı, maşın, raket düzəldin;

b) müxtəlif şəkillərin alınması üçün hər hansı detalları əlavə edin (çətir, göbələk, top, gül, yelpik);



Şəkil 7.



Şəkil 8.

6. Hellermanın müəyyən etdiyinə görə, konturun barmaq ilə izlənməsi fiqurların xassələrinin mənimsənilməsində mühüm rol oynayır. Xətlərin kəsişməsi, maskalanması və ya bir neçə fiqurun ümumi sərhədləri uşaqların fikrini azdırır. Onlar mürəkkəb formalı şəkli tanımaqdan ötrü, onun hissələrini barmaqla izləyib özlərinə kömək edirlər. Müəllimlər bunu növbəti tapşırıqları verdikdə nəzərə almalıdırlar. Aşağıdakı tapşırıqlar qeyri-standartdır və artıq əldə edilmiş bilikləri yeni situasiyada verilənlərin qeyri-adi uyğunlaşmasının tətbiqini tələb edir. Onlar şagirdlərin bilik və bacarıqlarının keyfiyyətinin yaxşılaşdırılması üçün əlavə material kimi istifadə oluna bilər.

a) Şam ağacının neçə üçbucaqdan təşkil olunduğunu sayın və göstərin (6 üçbucaq).

b) Düzbucaqlıları göstərin (üç düzbucaqlı)



Şəkil 9.



Şəkil 10.

c) Hər şəkildəki üçbucaqlıların sayını müqayisə edin. (üçbucaqlıların sayı eynidir - 7)

ç) Kvadratların sayını deyin. (14 kvadrat)



Şəkil 11.



Şəkil 12.

Fəza təsəvvürlərinin, həmçinin, yaradıcılıq fəaliyyətinin inkişafına yönəldilmiş tapşırıqlar, uşaqların tə'limə, həndəsə fənninə marağını artırır və onların ümumtəhsil bacarıqları ilə yanaşı, xüsusi qabiliyyətlərini aşkar etməyə də kömək göstərir. Beləliklə, bu dərslərdə əldə olunmuş yaradıcılıq qabiliyyəti, məntiqi düşünmək bacarığı şagirdlərin öz uğurlarına əsaslanan inam, uşaqlara indi hamıya mə'lum olan, gələcəkdə isə heç kimə mə'lum olmayan həqiqətləri açmağa imkan yaradacaq.

* * *

# KOLLEKTİVDƏ SAĞLAM MÜHİTİN YARADILMASI ONUN RƏHBƏRİNDƏN ASILIDIR

**Rita Həsənova,**
Bakıdakı 195 nömrəli körpələr evi-uşaq bağçasının müdiri

XXI yüzillikdə Azərbaycan təhsilinin simasını müəyyənləşdirəcək yeni təhsil islahatı dövlətimizin təhsil sahəsində həyata keçirdiyi konsepsiyanın aparıcı istiqamətlərindən biridir.

Təhsil islahatının əsas tələbi təhsilin məzmununun yeniləşməsi, təhsildə yeni pedaqoji texnologiyaların tətbiq edilməsidir. İnkişaf etmiş ölkələrin təhsil sisteminin təcrübəsindən çıxış edən pedaqoqların araşdırmaları göstərir ki, müasir dövrdə arzuladığımız şəxsiyyətin yetişdirilməsi təhsil sistemində özünü göstərən vacib problemlərin həlli ilə əlaqədardır. Bunların əsasını isə yeni tə'lim texnologiyaları təşkil edir. Yeni tə'lim texnologiyaları tərbiyəçi və uşaq kollektivinin birgə əməkdaşlığı şəraitində ardıcıllıqla həyata keçirdikləri fəaliyyət və metodların müəyyən didaktik sistemlə reallaşdırılmasıdır.

**Pedaqoji texnologiya** – psixoloji-pedaqoji quruluşların məcmusu olub, tə'lim və tərbiyə vasitələrinin həyata keçirilmə forma, metod, vasitə və yollarının tam şəkildə xüsusiyyətini müəyyənləşdirir. O, pedaqoji prosesin təşkilati-metodik alətidir.

Psixi hadisələr insanın psixi fəaliyyətinin ən yüksək səviyyəsi olan şüurunu müəyyən edir. Bu o deməkdir ki, adamların şüurunu psixoloji amillərdən kənarda təsəvvür etmək olmaz. Şüurluluq isə ilk növbədə adamların onları əhatə edən mühiti, şəraiti obyektiv olaraq yaradıcı şəkildə təhlil etməkdə, davranışlarını tənzimləməkdə, hadisələrə düzgün qiymət verməkdə təzahür edir. Bağça müdiri bu cəhətləri bilməklə tərbiyəçilərlə, uşaqlarla sağlam psixoloji əlaqə yarada, onların hər birində və özündə daha səmərəli işləmək üçün ən yaxşı psixoloji keyfiyyətləri inkişaf etdirə bilər.

Müdirin kollektivdə sağlam mühit yarada bilməsi üçün aşağıdakı keyfiyyətlərə malik olması zəruridir:

**Peşə keyfiyyətləri:** cəmiyyətin yeniləşməsi ideologiyasına uyğun gələn dəyişiklikləri mənimsəmək və bu baxımdan pedaqoji, elmi-nəzəri və metodik hazırlıq, nümunəvilik, yeniliyi tez görmək, qabaqcıl təcrübəyə meylli olmaq.

**Təşkilatçılıq keyfiyyətləri:** işi planlaşdırmaq bacarığı, adamların əhval-ruhiyyəsini tuta bilmək, kollektivdə mə'nəvi-psixoloji iqlimə tə'sir göstərmək.

**Mə'nəvi-siyasi keyfiyyətləri:** vəzifəsinə və hüququna məs'uliyyətli münasibət, insana dərin hörmət.

**Psixofiziki keyfiyyətləri:** iti ağıl (tərbiyəçi və uşaqlara optimal şərait yaratmaq üçün yeni variantlar tapa bilmək, əqli fəaliyyətin birindən digərinə keçə bilmək, işin öyrənilməsinə kompleks yanaşmaq qabiliyyətləri).

Bağça müdirləri iş prosesində bu keyfiyyətlərə başlıca prinsip kimi əməl etməlidirlər.

Müasir dövrdə insanların şüurunun artdığı, demokratiyanın, müstəqilliyin genişləndiyi bir şəraitdə bağça müdirinin psixoloji amilləri dərindən

bilməsi, bu amillər vasitəsilə tərbiyəçilərə, uşaqlara tə'siretmə qabiliyyətinə malik olması, tələbkarlığı qayğı ilə uzlaşdırması, kollektivin fikri ilə hesablaşması son dərəcə vacibdir.

Psixoloji proseslərin adamlara tə'siri işçilərin psixi vəziyyətindən, bağçada yaradılmış şəraitdən, müdirlə tərbiyəçilər arasındakı münasibətlərdən xeyli dərəcədə asılıdır.

Təcrübə göstərir ki, bağça müdiri ilə tərbiyəçilər arasındakı münasibətlər perspektivli olduqda onları təşəbbüs göstərməyə, yeni metodlar irəli sürməyə sövq edir, əks təqdirdə isə onların əli işdən soyuyur, qeyri-fəallıq, hətta şəxsi inciklik halları baş verir.

Bağçada xoşagəlməz halların olmaması, tərbiyəçilərin fəaliyyətinə məqsədyönlü rəhbərlik etmək üçün psixoloji mühit yaradılmalıdır. Bu mühiti yaratmaq üçün tərbiyəçilərin xarakteri öyrənilməlidir. Bu çox mürəkkəb bir prosesdir. Bu proses isə bağça müdirinin başlıca öyrənmə obyekti olan tərbiyəçinin, uşağın təbiəti ilə bağlıdır. Haqlı sözdür ki, hər bir insan özlüyündə son dərəcə mürəkkəb bir xilqətdir və bir insan qəlbinin dərinliyinə baş vurmaq, onun ürəyindən keçənləri oxumaq, yaxşı və naqis cəhətlərini duymaq, bilikdə, mədəniyyətdə, əxlaqda, inkişafın hansı pillələrində durduğunu öyrənmək dərin dəryaların tərkibinə baş vurmaq kimi çətin işdir. Mürəkkəblik həm də onunla əlaqədardır ki, hər bir yaş dövrünün, istər tərbiyəçinin, istərsə uşağın özünəməxsus xüsusiyyətlərini, hər bir fərdin psixi proseslərini, keyfiyyətlərinin özünəməxsus cəhətlərini vaxtında seçmək və nəzərə almaq müdirdən çox böyük intuitiv qabiliyyət, psixoloji səriştə və müdriklik tələb edir.

Psixoloji əhval-ruhiyə yaradılması sahəsinə pedaqoji sistemləri əks etdirən dörd əsas bacarıq daxildir.

1. Hörməti anlamaq əsasında tərbiyəçilərə, uşaqlara tə'sir etmək bacarığı. Tərbiyəçi və uşaqların şəxsiyyətinin və fəaliyyətinin ən güclü tərəflərini tapmaq və onları açmaq.

2. Pedaqoji prosesin iştirakçıları ilə qarşılıqlı əlaqə yaratmaq, tələbkarlığın və obyektivliyin dərəcəsini aydınlaşdırmaq bacarığı.

3. Münaqişənin qarşısını almaq. Bu, müdirin fəaliyyət strukturunda ən vacib bacarıqlardan biridir. Məhz bu bacarıq fəaliyyətin müvəffəqiyyətini və emosional əmin-amanlığı müəyyən edir.

4. Psixoloji iqlim yaratmaq üçün əsas məsələlərdən biri tərbiyəçi və uşaqların şəxsi keyfiyyətlərinin nəzərə alınmasıdır. Müdir pedaqoji kollektivin şəxsi keyfiyyətlərini, onların şəxsi sənədlərindən və iş prosesində öyrənə bilər.

Beləliklə, müdir öyrənə bilər ki, kimlərin yaradıcılığı, fəallığı var, hansının təcrübəsini öyrənməyə ehtiyac duyulur, kimlərə kömək göstərmək lazımdır, kimləri isə öyrənməyə, işləməyə məcbur etmək olar. Müdir həm də kollektivin hər bir üzvünə fərdi yanaşmağı bacarmalıdır.

Bağça müdirləri tərbiyəçilərdən uşaqların qabiliyyətini, psixoloji aləmini öyrənməyi tələb etməlidir. Psixoloji tə'sirdə sözün də rolu böyükdür. Münasibətdə əsas sayılan mühüm pedaqoji söz ən qüdrətli tərbiyə vasitələrindəndir. Müvafiq münasibətlərin yaranmasında söz psixoloji me'yar rolunu oynayır. Bu me'yar yaranmış münasibətlərin yaxşı və pis cəhətlərini aşkara çıxarmağa qadirdir. Sözdən bacarıqla istifadə etmək, onun funksiyasını nəzərə almaq

tə'lim-tərbiyə prosesində psixoloji tə'sir göstərməkdə mühüm əhəmiyyət kəsb edir. Odur ki, müdir sözdən istifadə edərkən tərbiyəçinin şəxsiyyəti, yaşı, fərdi xarakteri ilə hesablaşmalı, həm də tərbiyəçilərdən bunu tələb etməlidir. Sağlam psixoloji iqlim yaratmaq üçün əsas məsələlərdən biri də kollektivdə optimal şəraitin yaradılmasıdır. Belə bir şəraitin olması üçün bütün işçilərlə düzgün qarşılıqlı əlaqə yaradılmalıdır. Bu əlaqə tərbiyəçi şəxsiyyətinə hörmətlə tələbkarlığın vəhdəti prinsipinə əsaslanmalıdır.

Bə'zi bağça müdirləri kollektivin bir çox üzvünə vahid tələbkarlıq göstərmir: məsələn, tərbiyəçilərdən birinin kiçik nöqsanını tez görür və dərhal kobud şəkildə onu danlayır. Digərlərinin isə ondan çox nöqsanına göz yumur. Belə rəhbərlik olan yerdə tərbiyəçilər arasında narazılıq baş verir.

Əgər rəhbər öz işçisinə e'timad göstərməyib, ona qabiliyyətsiz, gərəksiz, heç şeyə qadir olmayan bir şəxs kimi baxırsa, onun vətəndaşlıq, xidməti və şəxsi statusunu gözləmirsə, tədricən münaqişə meydana çıxır və kollektiv mikroqruplara (doğma, ögey, nəzərə çarpmayan) ayrılır.

Bə'zi bağça müdirləri isə tərbiyəçilərə demokratiya vermək xatirinə onların işinə «qarışmaq»dan çəkinir, kollektivdə nöqsan və çatışmazlığa qarşı mübarizə aparmırlar. Deməli, demokratiya adı ilə tərbiyəçiləri həddən artıq sərbəst buraxır, lazımi tələbkarlıq göstərmir, guya hamı üçün yaxşı olmağa çalışırlar. Nəzarətin zahiri tərəfinə uyaraq tərbiyəçilərin bə'zi nöqsanlarına irad tutmaqla kifayətlənib, mahiyyət e'tibarilə səhvlərə yol verənlər, kobudluq göstərib əmr verməklə, çığır-bağır salmaqla, quru inzibatçılıq etməklə tərbiyəçilər arasında etinasızlıq, sün'i gərginlik yaradanlar da olur. Bütün bunlar yol verilməzdir.

İnsan psixologiyasına tə'sir etməyin bir vasitəsi də onlara lazım gəldikdə qayğı göstərmək və hal-əhval tutmaqdır. Təcrübə göstərir ki, müdirin tərbiyəçi ilə xoş rəftar etməsi, onun necə işləməsi və yaşaması ilə yaxından maraqlanması tərbiyəçinin fəallığını artırır. Təəssüf ki, bə'zi bağça müdirləri məsələnin bu cəhətinə də lazımınca əhəmiyyət vermirlər.

İndiki dövrdə bağça müdirinin psixoloji amilləri dərindən bilməsi, bu amillər vasitəsilə tərbiyəçilərə, uşaqlara tə'sir etmə qabiliyyətinə malik olması son dərəcə vacibdir.

Hər bir müdir elmi, siyasi, pedaqoji, psixoloji biliyini artırmaqla, qabaqcıl təcrübəyə yiyələnməklə, insanlara yanaşarkən etik normaları gözləməklə kollektivdə sağlam mühitin yaranmasına malik ola bilər.

Tə'lim-tərbiyə prosesinin səmərəliyini tə'min etmək üçün ilk növbədə sağlam mühit yaratmaq zərurətini qarşıma məqsəd qoyuram və bu məqsədə nail olmaq üçün öz üzərimdə işləməyi, yə'ni peşə keyfiyyətlərimi artırır, nəzəri, elmi-pedaqoji və metodik cəhətdən hazırlaşmağı əsas şərt hesab edirəm. Çalışıram ki, qabaqcıl müəssisə rəhbərlərinin iş təcrübəsi ilə tanış olub, onların iş üslubunu öyrənim, yeniliyi və müqayisəni müəyyənləşdirə bilim.

Sağlam işçi mühitinin yaradılması üçün başlanmış prosesin davamı olaraq təşkilatçılıq keyfiyyətlərini, yə'ni görüləcək tədbirlərin planlaşdırılması, tərtibat, təchizat məsələlərini həll edirəm, bununla yanaşı olaraq kollektivin əhval-ruhiyyəsini duymağa, işin nəbzini tutmağa çalışıram: məsələn, planlaşdırmada hər bir tədbirin icrası yolları kollektivdə müzakirə edilir, ümumi rə'y qəbul olunur. Mən ilk növbədə kollektivin rə'yi ilə razılaşır, bununla da kollektivin mənəvi-psixoloji iqliminə tə'sir edirəm. Tədbirlər planı

kollektivin arzusuna uyğunlaşdırıldığından kollektiv həmin tədbirin icrasında böyük həvəslə, ruh yüksəkliyi ilə iştirak edir.

Sağlam mühitin yaradılmasında mənəvi-siyasi keyfiyyətlərin aşılanması variantından da istifadə edirəm. Hər bir tərbiyəçinin şəxsi fikrinə, söylədiyi rə'yə hörmətlə yanaşmağa çalışıram. Heç vaxt «Sən düz demirsən», «Sənin fikrin səhvdir», «Düz deyil» deməklə onları alçaltmır ruhdan salmıram, çünki bu halda tərbiyəçinin işə olan marağını zəiflətmiş oluram. Səhv fikirdədirsə, onun bu fikri diskussiya formasında müzakirə olunur, müəyyən fikirlər, münasibətlər bildirir, tərbiyəçi fikrinin səhv olduğunu anlayır, kollektivin rə'yi ilə razılaşır. Burada «hamı bir nəfər üçün, bir nəfər hamı üçün» prinsipinə riayət olunur. Bununla tərbiyəçinin mənəviyyatına tə'sir etmiş oluram.

Sağlam mühitin yaranmasında psixo-fiziki keyfiyyətlərdən də istifadə etməyi zəruri hesab edirəm. Bunun üçün müdir böyük müşahidəçilik qabiliyyətinə malik olmalıdır. Mən çalışıram ki, bütün tərbiyəçilərin fəaliyyətini diqqət mərkəzində saxlayım. Sözsüz, diqqət mərkəzində, birinci növbədə tərbiyəçi-uşaq, tərbiyəçi-valideyn münasibətləri durur.

Kollektivdə sağlam mühitin yaradılması üçün çalışıram ki, hər bir işçinin dünyagörüşü, mədəniyyəti, real həyata baxışı və münasibətini psixoloji xüsusiyyətlərini, meyl və marağının istiqamətini anlayım.

Hazırda bağçamızda təmayüllü qruplar yaradılmış, yaradıcı tərbiyəçilər həmən qruplara cəlb edilmişlər. Uşaqların meyl və marağına əsasən yaradılmış qruplarda məhz qabaqcıl, işinin ustası olan, peşəkar tərbiyəçiləri cəlb etməklə daha çox maraq və məs'uliyyət yaratmış oluram. Bu vəziyyət zəif işləyən, tənbəl, məs'uliyyətsiz tərbiyəçilərə də tə'sir göstərir. Bununla da tərbiyəçilər arasında sağlam rəqabət yaratmağa nail oluram.

## FOLKLOR ALƏMİNƏ SƏYAHƏT


**Adilə Məmmədova,**
Təhsil Problemləri İnstitutunun elmi işçisi,
**Firəngiz Abbasova,**
Nizami rayonu, «Yelkən» uşaq bağçasının metodisti


Folklor xalqımızın özünəməxsus bədii yaradıcılığıdır. O, çox qədim dövrlərdən formalaşan ən'ənələr əsasında meydana gəlmişdir. Kollektiv yaradıcılığın məhsulu olan folklor nümunələri sonrakı nəsillər tərəfindən qəbul edilimiş və yaşama statusu qazınmışdır. Zaman keçdikcə bu yaradıcılıq nümunələri ağızdan-ağıza, nəsildən-nəslə keçərək yaşamış, məzmun və forma cəhətdən tamamlanmış daha da kamilləşmişdir.

Folklora daxil olan əsərlər xalqın həyatını, əsrlər boyu apardığı qəhrəmanlıq mübarizəsini, arzu və istəklərini, psixologiyasını özündə əks etdirən sənət nümunələridir.

Azərbaycan xalqı böyüklərlə yanaşı uşaqlar üçün də gözəl folklor nümunələri yaratmışdır. Tarixən uşaqların tərbiyəsi diqqət mərkəzində olmuşdur. Onların qəhrəman, vətənpərvər, əliaçıq, mədəni, qayğıkeş, əməksevər böyü-

kollektivin arzusuna uyğunlaşdırıldığından kollektiv həmin tədbirin icrasında böyük həvəslə, ruh yüksəkliyi ilə iştirak edir.

Sağlam mühitin yaradılmasında mənəvi-siyasi keyfiyyətlərin aşılanması variantından da istifadə edirəm. Hər bir tərbiyəçinin şəxsi fikrinə, söylədiyi rə'yə hörmətlə yanaşmağa çalışıram. Heç vaxt «Sən düz demirsən», «Sənin fikrin səhvdir», «Düz deyil» deməklə onları alçaltmır ruhdan salmıram, çünki bu halda tərbiyəçinin işə olan marağını zəiflətmiş oluram. Səhv fikirdədirsə, onun bu fikri diskussiya formasında müzakirə olunur, müəyyən fikirlər, münasibətlər bildirir, tərbiyəçi fikrinin səhv olduğunu anlayır, kollektivin rə'yi ilə razılaşır. Burada «hamı bir nəfər üçün, bir nəfər hamı üçün» prinsipinə riayət olunur. Bununla tərbiyəçinin mənəviyyatına tə'sir etmiş oluram.

Sağlam mühitin yaranmasında psixo-fiziki keyfiyyətlərdən də istifadə etməyi zəruri hesab edirəm. Bunun üçün müdir böyük müşahidəçilik qabiliyyətinə malik olmalıdır. Mən çalışıram ki, bütün tərbiyəçilərin fəaliyyətini diqqət mərkəzində saxlayım. Sözsüz, diqqət mərkəzində, birinci növbədə tərbiyəçi-uşaq, tərbiyəçi-valideyn münasibətləri durur.

Kollektivdə sağlam mühitin yaradılması üçün çalışıram ki, hər bir işçinin dünyagörüşü, mədəniyyəti, real həyata baxışı və münasibətini psixoloji xüsusiyyətlərini, meyl və marağının istiqamətini anlayım.

Hazırda bağçamızda təmayüllü qruplar yaradılmış, yaradıcı tərbiyəçilər həmən qruplara cəlb edilmişlər. Uşaqların meyl və marağına əsasən yaradılmış qruplarda məhz qabaqcıl, işinin ustası olan, peşəkar tərbiyəçiləri cəlb etməklə daha çox maraq və məs'uliyyət yaratmış oluram. Bu vəziyyət zəif işləyən, tənbəl, məs'uliyyətsiz tərbiyəçilərə də tə'sir göstərir. Bununla da tərbiyəçilər arasında sağlam rəqabət yaratmağa nail oluram.

## FOLKLOR ALƏMİNƏ SƏYAHƏT

**Adilə Məmmədova,**
Təhsil Problemləri İnstitutunun elmi işçisi,
**Firəngiz Abbasova,**
Nizami rayonu, «Yelkən» uşaq bağçasının metodisti

Folklor xalqımızın özünəməxsus bədii yaradıcılığıdır. O, çox qədim dövrlərdən formalaşan ən'ənələr əsasında meydana gəlmişdir. Kollektiv yaradıcılığın məhsulu olan folklor nümunələri sonrakı nəsillər tərəfindən qəbul edilimiş və yaşama statusu qazınmışdır. Zaman keçdikcə bu yaradıcılıq nümunələri ağızdan-ağıza, nəsildən-nəslə keçərək yaşamış, məzmun və forma cəhətdən tamamlanmış daha da kamilləşmişdir.

Folklora daxil olan əsərlər xalqın həyatını, əsrlər boyu apardığı qəhrəmanlıq mübarizəsini, arzu və istəklərini, psixologiyasını özündə əks etdirən sənət nümunələridir.

Azərbaycan xalqı böyüklərlə yanaşı uşaqlar üçün də gözəl folklor nümunələri yaratmışdır. Tarixən uşaqların tərbiyəsi diqqət mərkəzində olmuşdur. Onların qəhrəman, vətənpərvər, əliaçıq, mədəni, qayğıkeş, əməksevər böyü-

məsi üçün validcynin gördüyü tədbirlər içərisində bədii sənət nümunələri də tərbiyədə ön plana çəkilmişdir.

Məktəbəqədər yaş dövründə folklor nümunələrindən istifadənin əhəmiyyəti böyükdür. Bu nümunələri uşaqlar həvəslə dinləyir, hər bir nümunənin məzmunu onları cəlb etdiyi üçün yadda saxlayırlar. Bu nümunələr vasitəsilə uşaqlar xalqın mə'nəvi və tükənməz sərvəti ilə tanış olur, onun incəliklərini dərk edirlər.

Məktəbəqədər müəssisələrdə ana dili məşğələlərində rabitəli nitqin inkişafında, lüğət ehtiyatının zənginləşdirilməsində, ətraf aləmi dərk etməkdə, ətraf mühitə düzgün münasibətin formalaşmasında folklor nümunələri mühüm əhəmiyyət kəsb edir. Folklor nümunələri canlı danışıq dilinin bütün incəliklərini özündə əks etdirən bir xəzinə olduğu üçün uşaqların nitq mədəniyyətinin, məntiqi təfəkkürünün inkişafına güclü tə'sir göstərir.

Folklor nümunələrindən istifadə məşğələlərin səmərəliliyini artırır. Bu zaman uşaqların estetik zövqü formalaşır, lüğət ehtiyatı zənginləşir.

Folklor nümunələri seçilərkən onların yaşa müvafiq olması, tə'limedici, tərbiyələndirici və inkişafetdirici əhəmiyyətə malik olması tə'min edilməlidir.

Nizami rayonunda fəaliyyət göstərən «Yelkən» uşaq bağçası da uşaqların milli ruhda böyüməsi üçün çalışır. Burada uşaqların xoşladıqları bir sıra tədbirlər keçirilir. Bunlardan biri də «Folklor aləminə səyahət» adlı tədbirdir.

Tədbirin keçirildiyi zal milli üslubda tərtib olunmuşdur. Burada Azərbaycan bölgələrinə məxsus milli geyimlər, məişət əşyaları (dulusçuluq, misgərlik, tikmələr, xalçalar və s.), qədim adət-ənənələri əks etdirən albomlar, stendlər nümayiş etdirilir.

Tədbir milli xalq rəqsi «Yallı»nın musiqi sədaları altında başlanır.

**Aparıcı:**

- Bu gün biz sizinlə maraqlı bir aləmə səyahət edəcəyik. Bu, ucu-bucağı görünməyən, dərin bir ümmana bənzəyən folklor aləmidir. Biz körpə fidan balaların nənələrimizin söz boxçalarından arayıb axtardıqları, öyrəndikləri folklor nümunələrini dinləyəcəyik. Uşaqlar sonsuz ümmanın dərin qatlarına enərək, orada olan bənzərsiz incilərdən bir çələng hazırlamışlar.

Aşıq yaradıcılığı Azərbaycan folklorunun xüsusi və özünəməxsus bir qoludur. Saz aləti (qopuz) bizim ən qədim musiqi alətlərimizdəndir. Babalarımız hətta döyüş meydanında da sazın sədaları altında vuruşmuşlar. Bizim uşaqlar da saz musiqisini çox sevirlər. Məhz buna görə də bu gün sazlı-nəğməli bir qonağımız var. O, Sumqayıt şəhəri, Soltan Hacıbəyov adına musiqi texnikumunun tələbəsi Sevda Laçınlıdır. («Baş Sarıtel» saz havası səslənir).

**Aparıcı:**

- Uşaq folklorunda laylaların xüsusi yeri var. Analarımız öz uşaqlarının beşiyi başında həzin laylalar demiş, onları oxşamışlar.

Hər kəsin öz anası
Ona doğma əzizdir.

Ana qəlbi mehriban
Büllur kimi təmizdir.

Motal, motal
Tərsə motal,
Qaymaq qatar.
Ağ quşum,
Ağarçınım,
Göy quşum,
Göyərçinim.
Qarğa qara,
Durna çala,
İləmə çəlik,
Birgə əmlik,
Çəmbər çarıq,
Əmrəqulu,
Vur nağara,
Çıx qırağa.

A teşti, teşti, teşti
Ağacdan alma düşdü,
Almanın yanı zədə,
Zədəni yeməz gədə.
Çoban çöldə gəzirdi,
Davarların düzürdü,
Çoban qoyuna gedər,
Köpəyi adam didər.
Qabağında üç keçi,
Hanı bunun erkəci?
Erkəc qazanda qaynar,
Qənbər bucaqda oynar.
Qənbər getdi oduna,
Qarğı batdı buduna...

(Bə'zi köhnəlmiş sözlərin (motal, çarıq, çəlik, çəmbər) sözlərinin mə'nasını tərbiyəçi uşaqlara açıqlayır).

**Aparıcı:** Deyirlər ki, illərin
Övladıdır fəsillər.
Deyirlər ki, ellərin
Qanadıdır fəsillər.

Uşaqlar, bu günkü tədbirimizə payız bacı öz ne'mətləri ilə qonaq gəlib. Gəlin onu qarşılayaq (Payız bacı milli geyimdə, əlində meyvə dolu səbətlə zala daxil olur).

**Uşaqlar birlikdə:**
Salam payız, salam payız,
Sən bizə xoş gəlmisən.
Söylə görək, söylə görək,
Nə sovqat gətirimsən?

**Payız bacı:**
Gətirmişəm çox sovqat:
Meyvə dolu xonçada
Alma, armud, üzüm, nar,
Sarı-sarı heyvalar.
Yeyin, əziz uşqalar,
Sağlam olun, qoçaqlar.

(Qızlar «Üzüm» rəqsini ifa edirlər).

**Aparıcı:**
- Uşaqların nitq inkişafında, düzgün danışıq və tələffüz vərdişlərinə yiyələnmələrində, söz ehtiyatının zənginləşməsində ayrı-ayrı folklor nümunələri ilə yanaşı, atalar sözləri, tapmacalar, yanıltmaclar da mühüm yer tutur. Bu qiymətli incilər dildən-dilə düşərək, xalq arasında yayılaraq bu günə gəlib çatmışdır.

Tapmaca deyəndə uşaqlar fikirləşir, axtarır, bildiklərini hafizəsində canlandırıb yoxlayır, nəticə çıxarır və cavab verirlər:

Mən gedirəm beləsinə,
Qara gözün məhləsinə.
Quşlardan hansı quşdur
Süd verir balasına.

Dağdan gəlir Banı xanım,
Əlləri hənalı xanım.
Dindirsən, farsı danışır,
Tükləri tehranı xanım.

(Uşaqlar cavabı deyirlər: yarasa). (Uşaqlar cavabı deyirlər: kəklik).

Qutu qutu içində,
Qutu sandıq içində.
Nənəmin əl yaylığı,
O da onun içində.
(Uşaqlar cavabı deyirlər: şabalıd).

Sarı əbası var bunun,
Büzmə yaxası var bunun.
Üstü çopur, içi dilim,
Gör nə səfası var bunun.
(Uşaqlar cavab verirlər: limon).

- Uşaqlar, indi də bildiyiniz atalar sözlərindən, tapmacalardan, yanıtmaclardan söyləyin.

**I uşaq:**
Deyin nə vaxt bağlar solur?
Yarpaqları yellər yolur? (payız)

(Tapmacalar deyildikcə yerdə əyləşmiş uşaqlar onun cavabını tapırlar).

**II uşaq:**
Qanadı yoxdur uçar,
Ayağı yoxdur qaçar (bulud)

**III uşaq:**
Əynində iynə kürkü
Belində meyvə yükü. (kirpi)



**IV uşaq:**
Doğma yurd şirin olar. Ağılla hər şeyə qalib gəlmək olar.

**VI uşaq:**
Böyüyün sözünə baxmayan peşman olar.

**VII uşaq:**
Çəpərdən aşdı çəpiş,
Dağa dırmaşdı çəpiş,
Anasını itircək,
Yolunu çaşdı çəpiş.

**VIII uşaq:**
Alma aldım, al yanaqları al idi.
Almanın al olmayan sağ yanağı ağ idi.

Sənəm səhəngi Sənubər səhnədə
Suda sındırdı, Süzüb sındırdı.

Tülkünün kürkü söküldü, kürkünün tükü töküldü.

**Aparıcı:** - Çox sağ olun, uşaqlar Siz çox gözəl söylədiniz. Gəlin onları alqışlayaq. İndi də qonağımızın ifasında bir saz havasına qulaq asaq. (Saz dilə gəlir «Ruhani» havası səslənir).

**Aparıcı:**

– Folklor nümunələri içərisində sayaçı sözlər də var. Bu sözlər öz şe'riyyəti ilə uşaqların diqqətini cəlb edir. Onlarda düzgün danışıq, rabitəli nitq vərdişləri formalaşdırır, həmçinin heyvanlar aləminə məhəbbət hissləri oyadır. Bizim uşaqlar da belə sayaçı sözləri həvəslə öyrənirlər. Onları dinləyək.

-

**I uşaq:**
Xırda - xırda çəpişlər,
Yovşanın başın dişlər,
Gedər yaylağa yayılar,
Gələr aranda qışlar.

**II uşaq:**
Ağ at gəlir enişdən,
Sinəbəndi gümüşdən.
Bizə də nəsib olsun
Heybədəki yemişdən.

(Qızlar əllərində kuzələr rəqs edirlər).

**Aparıcı:**

- Əziz uşaqlar, validyenlər və qonaqlar! Biz bu gün şifahi xalq ədəbiyyatımızın zəngin və tükənməz nümunələrini seçib səsləndirməyi özümüzə borc bilmişik. Şifahi xalq yaradıcılığından tərbiyə prosesində məqsədyönlü və sistemli istifadə etməklə gələcəyimiz olan körpə fidanları milli ruhda tərbiyə etməliyik. Milli adət - ən'ənələrimizi folklor vasitəsilə uşaqlara çatdırmaqla gələcək üçün əsil vətənpərvər vətəndaşlar yetişdirmiş olarıq.

## FƏSİLLƏRİN BƏHSİ
### Musiqili kompozisiya

**Esmira Ağayeva,**
Yasamal rayonu 121 nömrəli uşaq bağçasının metodisti,
**Mahirə Soltanova,**
musiqi rəhbəri,

(Uşaqlar musiqi sədaları altında zala daxil olurlar).

**Aparıcı:** Salam, əziz uşaqlar və hörmətli qonaqlar! Azərbaycan ulu babalarımızın bugünkü nəsillərə əmanətidir. Bol sərvətli, min ne'mətlidir, doğma Azərbaycanımız! Dünyaya səs salan nefti, qazı, pambığı, taxılı, çayı, meyvə bağları daha nələri var Yurdumuzun. Yurdumuz necə də gözəldir!!!

(Uşaqlar Dövlət himnini ifa edirlər. Uşaqlar əyləşirlər, dekorasiya arxasından musiqi sədaları altında dörd fəsil gəlir).

**Qış:** Xoş gəlmisiniz, əziz qonaqlar.
**Bahar:** Sizə xoş əhval-ruhiyə və sevinc arzulayırıq.
**Payız:** Sizi çoxdan gözləyirik. Gəlişinizə çox şadıq.
**Yay:** Sizləri xoş gördük!
**Hamı:** Siz də xoş gəlmisiniz!
**Bahar:** Sizə nəğmələr oxuyacağıq.
**Yay:** Şe'rləri və tapmacaları da unutmamışıq.
**Payız:** Rəqslər də hazırlamışıq.
**Qış:** Oyunlar da keçirəcəyik.
Aparıcı (fəsillərə müraciət edir): Siz də xoş gəlmisiz uşaqların şən bayramına. Uşaqlar, siz bunları tanıyırsınız? Kim deyər, bunlar kimdir?
**Uşaqlar:** Fəsillər.
**Aparıcı:** Düzdür, bunlar ilin fəsilləridir. Ay fəsillər, necə də gözəlsiniz! Sizin hansınızın daha gözəl olduğunu ayırmaq çox çətindir.
**Payız:** Nəyə görə çətindir? Mən hamıdan gözələm. Mən gələndə sizin sevdiyiniz meyvələr: alma, heyva, nar və başqa meyvələr yetişir. Sonra təbiət sarı, qırmızı don geyir.
**Yay:** Nə olsun ki, sənin vaxtında alma, heyva, nar və başqa meyvələr olur. Mənim vaxtımda isə uşaqların daha çox sevdiyi alça, gilas, ərik olur. Hələ çiyələyi demirəm. Təbiət çox gözəl olur. Hamı yaylaqlarda, çimərliklərdə dincəlmək istəyir.
**Qış:** Bəsdir! Az lovğalanın! Mən ən gözəl fəsiləm. Uşaqlar məni səbirsizliklə gözləyirlər. Mən gələndə qar, boran olur. Hər tərəf ağ don geyir. Uşaqlar qartopu oynayır, xizəklə sürüşür, qardan adam düzəldirlər.
**Bahar:** Ha-ha-ha! Bunlara bax! Özlərini necə də öyürlər. Fəsillərin ən gözəli mənəm! Mən! Amma mən heç danışmıram. Mən gələndə təbiət oyanır. Hər tərəf yaşıllaşır. Çəmənliklərdə əlvan çiçəklər açır. Quşların şən nəğmələri eşidilir.
(İl baba daxil olur).
**İl:** 4 fəsil – bir yerdə! Siz təbiətin qanunlarını pozaraq, bir yerdə toplaşmısınız. Buna kim icazə verib?
**Yaz:**
- Axı bu gün uşaqların bayramıdır!
**İl:**
- Nə bayram! Harada görünüb ki, ilin dörd fəsli yığışıb bir yerdə bayram etsin? Hər kəs öz yerinə qayıtsın!
**Qış:**
- Düzdür! düzdür!
Fəsillərə müraciət edir:
- Gedin! Burada mən qalacağam. Hökmranlığı mən öz əlimə alacağam.
**Bahar:** Niyə sən? Təbiətin oyanmağı mənimlə başlayır. Ona görə də mən qalacağam.
**Yay:** Niyə sən? Nə olsun ki, təbiət səninlə oyanır? Mən ən gözəl fəsiləm. Çox bar verən fəsiləm.
**Payız:** Xeyir-xeyir, çox lovğalanmayın, fəsillərdən ən gözəli mən özüməm.
**İl:** Sakit olun, dalaşmaq vaxtı deyil. Təbiətin qanununu pozmağınız bəs deyil, hələ bir sözləşirsiniz də! Qoy hər kəs nəyə qadir olduğunu göstərsin!

Şərq təqvimina görə, Bahar, il səninlə başlayır. Ona görə də buyur, məharətini göstər! (il əyləşir).

Qaranquşlar baharın maketini gətirirlər.

**Bahar:**

- Adım yazdır, gələndə mən
Axar çaylar daşa-daşa,
Haray salar dağa daşa.

Adım yazdır, gələndə mən
Yağış yağar narın-narın,
Üzü gülər torpaqların.

**Aparıcı:** Bahar qədəmlərin ruzulu, bərəkətli olsun.

(Qaranquşlar bahara saz gətirirlər. Bahar «Bahar bayramı» mahnısını oxuyub oynayır).

**Aparıcı:** Çox sağ ol Bahar! İndi isə gəl uşaqlarla bir oyun oynayaq.

(O, teletaym oyununun lövhəsini gətirir).

- Bahar, torbanda nə var?

**Bahar:** Daşlar gətirmişəm, uşaqlarla bir oyun oynayaq.

(Baharın torbasından daşları çıxararaq lövhənin üstündəki dairələri sayıb, ona uyğun çərçivələri açırıq. Hər çərçivəni açmamışdan qabaq, uşaqlara ona uyğun tapmacalar deyilir..). ( yerdən 3-cü səslənir)

İl baba III daşı özü çıxarır.

**Tapmacalar:**

1) Bağda uçar səhər-səhər,
Verər bizə yazdan xəbər. (qaranquş)
2) O nədir ki, yaşıldır,
Novruza yaraşıqdır. (səməni)
3) Qırmızı xatun
Xonçanı bəzər. (boyanmış yumurta)
4) Saçaq-saçaq saçaqlar,
Gəzər onu qocalar.
Dolu olar yelini,
Bəzəyərlər gəlini. (xonça)
5) Özü ala, yeri tala,
Para-para, qəlbi qara. (lalə)

Lalələr rəqsi ifa olunur.

Aparıcı oyunu davam etdirmək üçün Bahara deyir: Olar, bu daşı mən çıxarım?

**Bahar:** Buyur.

Aparıcı (daşı çıxarandan sonra, lövhəyə yaxınlaşır):

- Bahar, indi isə mən sizə bir tapmaca deyim:

**IV daş;**

Başında uzun papaq,
Baharda gəlir qonaq. (kosa)

Düzdür, uşaqlar1 Gəlin kosanı çağıraq.

**Hamı:** Ay kosa-kosa gəlsənə,
Gəlib salam versənə. (2 dəfə)

(Kosa musiqi sadaları altında zala daxil olur. Oynaya-oynaya əlində xonça və səməni gətirir).

**Kosa:-** Ay uyruğu-uyruğu,

Saqqalı it quyruğu.
Kosa bir oyun eylər,
Quzunu qoyun eylər.
Yığar bayram xonçası,
Payızda toyun eylər.

**Bahar:** Nə? Nə?! Necə? Necə?!
Payızda toyun eylər?

**Kosa:** Yox! Yox! Baharda toyun eylər.

(Kosa və Bahar səmənini və xonçanı qonaqların qabağına qoyur və oynaya-oynaya zalın ortasında dayanır).

**Aparıcı:** Bahar sağ ol! Sən öz gözəlliklərinlə bizi heyran etdin.

**İl:** İndi isə sən öz yerini yaya ver.

(Quşlar maketi aparırlar. Bahar maketin yanına gedib qarşısında otrurur).

**Bahar:** Buyur yay! (Musiqi səslənir. Yay maketin arxasından çıxıb, oynaya-oynaya gəlir ortaya. Göyərçin maketi gətirir. Yay «Yaz» mahnısını oxuyur).

Ellər, elatlar,
Çiçəklər, otlar,
Əlvan budaqlar,
Şirin sözümdür,
İki gözümdür.

Güvənirəm həmişə
Bu zəhmətli əllərə,
Qanad verəcək onlar
Çiçəklərə, güllərə.

**Aparıcı:** Yay, sənə bir tapmaca desəm, taparsan?

**Yay:** Bəli.

**Aparıcı:** Halaylar, ay halaylar,
Çöldə dovşan balalar.
Ayağından su içər,
Dimdiyindən balalar.
Açması? (taxıl).

**Aparıcı:** Düzdür, indi isə uşaqlar «Əkinçi» Azərbaycan xalq oyununu oynamaq istəyirlər.

**Yay:**
- Buyurun, siz bilmirsiniz:
Sığal çəksən torpağa,
Torpaq çörək bitirər.
O olmasa, süfrəniz
Görkəmini itirər.

(Uşaqlar ayağa qalxıb «Əkinçi» oyununu oynayırlar).

I. Kim görübdür, kəndlilər
Toxumu necə səpirlər?

II. Bax belə, bax belə,
Toxumu belə səpirlər.

I. Kim görübdür kəndlilər

I. Kim görübdür kəndlilər
Taxılı necə üyüdürlər?

II. Bax belə, bax belə,
Taxılı belə üyüdürlər.

I. Kim görübdür, kəndlilər

Taxılı necə biçirlər?

II. Bax belə, bax belə,
Taxılı belə biçirlər.

I. Kim görübdür kəndlilər
Taxılı necə döyürlər?

II. Bax belə, bax belə,
Taxılı belə döyürlər.

Xəmiri necə yoğururlar?

II. Bax belə, bax belə,
Xəmiri belə yoğururlar.

I. Kim görübdür, kəndlilər
Çörəyi necə yapırlar?

II. Bax belə, bax belə
Çörəyi belə yapırlar.

Aşpaz uşaq (çörəyi gətirib deyir:)
- Buyurun.
(O, öz yerinə qayıdır.)
**Aparıcı:** Yaz, sənin də öz aləmin var!
**İl:** İndi isə qoy payız öz sözünü desin.
(Quşlar payız maketini gətirirlər Payızın musiqi sədaları eşidilir).

**Payız:**
- Payız-bardı, nübardı.
Payız-sizin payınız,
Payız-heyva ətirli,
Payız-üzüm payınız.

Payız sanki rəssamdır,
Əlində fırçası var.
Çəkməyə tala-tala
Kətanı, parçası var.

(Uşaqlar «Payız» mahnısını oxuyur).

**Aparıcı:** Payız, gəl biz səninlə «Olur-olmur» oyununu oynayaq. Mən sizə suallar verəcəyəm, siz isə «olur-olmur» deyəcəksiniz.

1) Payızda pambıq yığılır? – (olur)
2) Payızda qarlar əriyir? – (olmur)
3) Payızda uşaqlar dənizdə çimirlər? – (olmur)
4) Payızda yarpaqlar tökülür? – (olur)
5) Payızda bənövşə açır? – (olmur)
6) Payızda məhsul yığılır? – (olur).

(Uşaqlar «Məhsul» rəqsi ifa edirlər. Rəqsdən sonra Cırtdan əlində ağzı örtülü səbət meydana daxil olur).

**Payız:** Xoş gəlmisən, Cırtdan! Səbətində nə var?

**Cırtdan:** Payızın məhsulları.

**Aparıcı:** Uşaqlar, kim deyər, payızda hansı məhsullar olur?

Uşaqlar səbətdəki əşyanın adını çəkən kimi, Cırtdan deyir:

- Düzdür! Adı çəkilən məhsulu göstərir.

**Cırtdan:** Düz tapdınız. Biz bilirik: «Qızıl payız hünər meydanıdır, çünki baharda, yayda görülən işin, çəkilən zəhmətin bəhrəsini payızda yığırlar. Ona görə də əməyi sevənlərin ən sevimli fəsli payızdır».

(Cırtdanla Payız səbəti qonaqlara təqdim edir. Quşlar maketi aparırlar).

**Aparıcı:** Payız, səninlə vaxtımızı çox maraqlı keçirdik.

**İl:** Payız, yerini qışa ver.

**Payız:** Buyur, qış!

Quşlar (sərçələr) qışın maketini gətirirlər. Uşaqlar «Qış baba gəlir» mahnısını ifa edirlər:

- Qışam, mənim böyük adım, sanım var.
Qardan, buzdan iliyim var, canım var.
Ayaz, boran, külək mənim əsgərim.
Dünyada tək bunlardır sevdiklərim.

**Qış:** Bu nədir? Bu nədir? Qışda lalələr, qaranquşlar? Siz hələ donmamısınız? İndi sizi donduraram. Qar dənəcikləri, işinizə başlayın! Bunları dondurun. (Dənəciklərin rəqsi ifa olunur).

**Qış:** Lalələr, qaranquşlar – siz donmadınız?

Dənəciklər! Bunları tez dondurun.

(Dənəciklərin rəqsi davam edir).

**Qış:** Siz bunları dondura bilmədiniz. İndi mən özüm donduraram.

**Aparıcı:** Dayan, qış, hirslənmə. Biz bilirik. Sən çox güclü və qüdrətlisən. Sənin bəxş etdiyin qar dənəcikləri uşaqlara xüsusi sevinc gətirir. Uşaqlar, gəlin qışın könlünü alaq və onunla bir oyun keçirək. Qış, sənin hansı oyun xoşuna gəlir?

**Qış:** Əlbəttə, «Qartopu» oyunu.

**Aparıcı:** Uşaqlar, gəlin bu oyunu qışla oynayaq.

**Qış:** Çox sağ olun. Siz məni çox sevindirdiniz. İndi isə dənəciklər sizə qar sovqatı gətirəcək.

**Aparıcı:** Qış, sən də öz gözəlliklərinlə hamını heyran etdin. Nə qədər boranlı, buzlu, şaxtalı olsan da, bu əlamətlərinə görə uşaqlar səni çox sevirlər.

(Quşlar qar maketini aparırlar).

**Aparıcı:** İl, biz sənin fəsillərinin nəyə qadir olduğunu gördük. Sənin bütün fəsillərin bir-birindən gözəldir!

(Fəsillər ortaya gəlir).

**İl:** Gəlin mübahisə etməyin. Hər fəslin öz təbiəti, öz ruzusu, öz ne'məti var. (İl fəsillərlə birlikdə, «İlin fəsilləri» mahnısını ifa edir).

**İl:** Mən sizə çiçəkli bahar, günəşli yay, məhsullu payız və mülayim qış arzulayıram.

(Yallı musiqisi səslənir. Uşaqlar rəqs edirlər).

**Aparıcı:** Uşaqlar, mən isə sizi fəsilləri sevməyə, hər fəsildə şənlik etməyə də'vət edirəm.

(Uşaqlar «Yallı» oyun havası ilə zalı tərk edirlər).

* * *

**Aparıcı:** Payız, səninlə vaxtımızı çox maraqlı keçirdik.

**İl:** Payız, yerini qışa ver.

**Payız:** Buyur, qış!

Quşlar (sərçələr) qışın maketini gətirirlər. Uşaqlar «Qış baba gəlir» mahnısını ifa edirlər:

- Qışam, mənim böyük adım, sanım var.
Qardan, buzdan iliyim var, canım var.
Ayaz, boran, külək mənim əsgərim,
Dünyada tək bunlardır sevdiklərim.

**Qış:** Bu nədir? Bu nədir? Qışda lalələr, qaranquşlar? Siz hələ donmamısınız? İndi sizi donduraram. Qar dənəcikləri, işinizə başlayın! Bunları dondurun. (Dənəciklərin rəqsi ifa olunur).

**Qış:** Lalələr, qaranquşlar – siz donmadınız?
Dənəciklər! Bunları tez dondurun.
(Dənəciklərin rəqsi davam edir).

**Qış:** Siz bunları dondura bilmədiniz. İndi mən özüm donduraram.

**Aparıcı:** Dayan, qış, hirslənmə. Biz bilirik. Sən çox güclü və qüdrətlisən. Sənin bəxş etdiyin qar dənəcikləri uşaqlara xüsusi sevinc gətirir. Uşaqlar, gəlin qışın könlünü alaq və onunla bir oyun keçirək. Qış, sənin hansı oyun xoşuna gəlir?

**Qış:** Əlbəttə, «Qartopu» oyunu.

**Aparıcı:** Uşaqlar, gəlin bu oyunu qışla oynayaq.

**Qış:** Çox sağ olun. Siz məni çox sevindirdiniz. İndi isə dənəciklər sizə qar sovqatı gətirəcək.

**Aparıcı:** Qış, sən də öz gözəlliklərinlə hamını heyran etdin. Nə qədər boranlı, buzlu, şaxtalı olsan da, bu əlamətlərinə görə uşaqlar səni çox sevirlər.

(Quşlar qar maketini aparırlar).

**Aparıcı:** İl, biz sənin fəsillərinin nəyə qadir olduğunu gördük. Sənin bütün fəsillərin bir-birindən gözəldir!

(Fəsillər ortaya gəlir).

**İl:** Gəlin mübahisə etməyin. Hər fəslin öz təbiəti, öz ruzusu, öz ne'məti var. (İl fəsillərlə birlikdə, «İlin fəsilləri» mahnısını ifa edir).

**İl:** Mən sizə çiçəkli bahar, günəşli yay, məhsullu payız və mülayim qış arzulayıram.

(Yallı musiqisi səslənir. Uşaqlar rəqs edirlər).

**Aparıcı:** Uşaqlar, mən isə sizi fəsilləri sevməyə, hər fəsildə şənlik etməyə də'vət edirəm.

(Uşaqlar «Yallı» oyun havası ilə zalı tərk edirlər).

* * *

# «YOL HƏRƏKƏTİ QAYDALARINI ÖYRƏNİRİK» MÖVZUSUNDA MƏŞĞƏLƏLƏRDƏ TESTLƏRDƏN İSTİFADƏ

**Cəmilə Əhmədova,**
Bakı, Sabunçu RTŞ-nin məktəbəqədər müəssisələr üzrə metodisti

İldən-ilə şəhərin küçələrində avtomobillərin sayı durmadan artır. Nəqliyyat vasitələrinin hərəkətinin intensivliyinin artması piyadalar üçün böyük təhlükə yaradır.

«Yol hərəkəti haqqında» Azərbaycan Respublikası Qanununun 18-ci maddəsində göstərilir: «Yollarda təhlükəsiz davranma qaydaları» vətəndaşlara məktəbəqədər, ümumtəhsil və xüsusi təhsil müəssisələrində, habelə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada razılıq almış digər müəssisələrdə öyrədilir». Bu vəzifələrin məktəbəqədər müəssisələrə həvalə edilməsi qanuna uyğun və məntiqidir. Ona görə ki, «Məktəbəqədər müəssisələrdə tərbiyə və tə'lim proqramının» məktəbəhazırlıq qruplarında ətraf aləmlə və ictimai həyat hadisələri ilə tanışlıq məşğələlərində bütün uşaqlara küçə və yollarda təhlükəsiz davranış qaydalarının öyrədilməsi üçün geniş imkanlar yaradılmışdır.

Uşaq bağçalarında yol hərəkəti qaydalarının öyrədilməsində əsas məqsəd uşaqların ehtiyatsızlığı üzündən baş verən yol-nəqliyyat hadisələrinin qarşısının alınması, uşaqlara küçə və yollarda təhlükəsiz davranış vərdişlərinin aşılanmasıdır.

Təqdim etdiyim «Yol hərəkəti qaydalarını öyrənirik» test sualları məşğələlərin səmərəli, keçirilməsində hər bir tərbiyəçiyə kömək göstərəcək. Ona görə ki, məşğələ zamanı bu testlər əsasında uşaqlara yol hərəkəti qaydaları daha mükəmməl öyrədilə bilər. Onlar yol nəqliyyat nişanlarını rəngləyərək biri-birindən daha yaxşı fərqləndirər, mə'nalarını dərindən dərk edər və yadda saxlayarlar.

**«Yol hərəkəti qaydalarını öyrənirik» mövzusunda**
TESTLƏR

**1.** Svetoforun hansı işığı yananda gediş qadağandır?
a) qarmızı; b) sarı; c) yaşıl.
**2.** Piyadalar yolun hansı hissəsi ilə hərəkət etməlidirlər?
a) yolun ortası ilə; b) səki ilə; c) keçidlə.
**3.** Yolu keçərkən əvvəl hansı tərəfə baxmaq lazımdır?
a) sağa; b) sola; c) arxaya.
**4.** Minik avtomobilinin neçə təkəri var?
a) 5; b) 6; c) 4.
**5.** Svetoforun yaşıl işığı nə deməkdir?
a) diqqət; b) dayan; c) irəli.
**6.** Neçə yaşında yollarda velosiped sürmək olar?
a) 10; b) 7; c) 14.
**7.** Yol nişanları kimin üçündür?
a) maşınlar; b) piyadalar; c) velosipedlər.

**8.** Svetoforun sarı işığı nə deməkdir?
a) dayan; b) diqqət; c) irəli.
**9.** Svetoforun rənglərinin düzgün ardıcıllığını göstərin?
a) yaşıl, qarmızı, sarı; b) qırmızı, sarı, yaşıl; c) yaşıl, sarı, qırmızı.
**10.** Dayanmış tramvayın hansı tərəfindən keçmək lazımdır?
a) arxasından; b) qabaq hissəsindən; c) yan hissəsindən.
**11.** Svetoforun qırmızı işığı nə deməkdir?
a) diqqət; b) dayan; c) irəli.
**12.** Səkidən yola çıxarkən əvvəl hansı tərəfə baxmaq lazımdır?
a) sola; b) sağa; c) arxaya.
**13.** Svetoforun hansı işığı yananda gediş qadağandır?
a) yaşıl; b) sarı; c) qırmızı.
**14.** Svetoforun hansı işığı yananda yolu keçmək olar?
a) yaşıl; b) sarı; c) qırmızı.
**15.** Svetofor nə üçündür?
a) hərəkəti tənzimləmək üçün;
b) maşınları tənzimləmək üçün;
c) piyadaları tənzimləmək üçün.
**16.** Svetoforun neçə işığı var?
a) 5; b) 2; c) 3.
**17.** Dayanmış avtobusun hansı tərəfindən keçmək lazımdır?
a) qarşısından; b) arxasından; c) yanından.
**18.** Bu nişan nəyi göstərir?
a) piyadaların hərəkəti qadağandır;
b) piyadaların yolu açıqdır;
c) maşınların yolu açıqdır.



**19.** İşarələrdən hansı qadağanedicidir?



**20.** Bu nişan nəyi göstərir?
a) maşınlar üçün yol;
b) hərəkət qadağandır;
c) piyadalar üçün keçid.



**21.** Bunlardan hansı xidmət nişanıdır?



**32.** Bu nişanlardan hansı xəbərdaredicidir?

a)  b)  c) 

**33.** Verilən nişanlardan hansı yeraltı piyada keçidinə uyğundur?

  

**34.** Bunlardan hansı uşaqların yol keçidinə müvafiqdir?

  

**35.** Svetoforun hansı düzgündür?

  

**36.** Ağır yük daşıyan maşınların neçə çarxı var?

a) 4; b) 7; c) 6.

I. Xəbərdarlıq nişanları.


Digər təhlükələr


Uşaqlar


Piyada keçidi


İkitərəfli hərəkət

II. Üstünlük nişanları.




Dayanmadan keçmək qadağandır.

III. Qadağan nişanları


Piyadanın hərəkəti qadağandır


Sağa dönmək qadağandır



Maksimum sürətin məhdudlaşdırılması


Giriş qadağandır


Velosipedlə hərəkət qadağandır

## IV. Məcburi hərəkət istiqamət nişanları



Piyada zolağı



Velosiped zolağı



Sağa və ya sola hərəkət



Dairəvi hərəkət

## V. Mə'lumatverici göstərici



Yeraltı piyada keçidi



Piyada keçidi




Minik taksilərinin dayanacaq yeri

## VI. Servis nişanları



Telefon



Yeməkxana



İlk tibbi yardım məntəqəsi

Uşaqların yol nəqliyyat hadisələrindən qorunması vəzifəsi və onlarda təhlükəsiz davranış vərdişlərinin aşılanması ailə ilə yanaşı məktəbəqədər müəssisələrin, digər təşkilatların və bütün ictimaiyyətin diqqət mərkəzində olmalıdır.

* * *

Öz müəllimini üstələməyən şagird yazıqdır.

***Leonardo da Vinçi***

Uşaqdan büt yaratmayın: o böyüyəndə çoxlu qurbanlar tələb edəcək.

***R.Buast***

Uşaqları öyrətmək zəruridir, uşaqlardan bizim öyrənməyimiz də çox faydalıdır.

***M.Qorki***

Vərdişlərin inkişafı işində əqlin inkişafı birinci olmalıdır.

***Aristotel***

Mən müəllimdən yalnız xeyirxah mənaviyyat tələb edirəm.

***D.Didro***

Vicdan imanın yarısı, ola bilsin, hamısıdır.

***Azərbaycan məsəli***

Öz üzərində qələbədən böyük igidlik yoxdur.

***Erazm Rotterdamski***

# ƏMƏK TƏ'LİMİ VƏ ŞƏXSİYYƏTİN İNKİŞAFI

**Gülcahan Əliyeva,**
Naxçıvan şəhəri, 3 nömrəli orta məktəbin müəllimi

Müstəqilliyə nail olan, siyasi və iqtisadi problemlərlə qarşılaşan yeni Azərbaycanın bu gün əməyi seçən, əmək adamlarına böyük hörmət bəsləyən, əməklə, əmək alətləri ilə, texnika ilə bağlı bilik, bacarıq və vərdişlərə dərindən yiyələnmiş gənclərə daha çox ehtiyacı vardır. Belə gəncləri isə, hər şeydən qabaq əmək yetişdirə bilər, çünki əmək bütün arzuların açarı, həyatın rəmzi, insanın əqli və fiziki tərbiyəsinə, vətəndaş kimi formalaşmasına güclü tə'sir göstərən əvəzedilməz bir amildir. Elə bu mühüm əhəmiyyətinə görə də əmək bir fənn kimi məktəb həyatına daxil edilmişdir.

Gənc nəslin peşəyönümlü inkişafında əmək tə'limi fənninin öz yeri, öz mövqeyi vardır. Bu, aparıcı, həlledicidir mövqedir.

Məktəbli gənclərin gələcəkdə cəmiyyətdə faydalı mövqe tutmaları onların düzgün peşə seçmələrindən və seçdikləri peşələrə mükəmməl yiyələnə bilmələrindən asılıdır. Məktəbli peşə seçməyi qərarlaşdırdıqdan sonra orqanizmini özünün gələcək peşəsinə ciddi hazırlamaq qayğısına qalmalı və bu sahədə praktik fəaliyyət göstərməlidir. Hansı işin onu daha çox tə'min edəcəyini məktəbli əvvəlcədən müəyyənləşdirməlidir. Təcrübə göstərir ki, mə'nəvi cəhətdən hər bir şagirdin qabiliyyətinə, marağına və zövqünə uyğun gələn iş onu daha çox tə'min edir. Belə halda şagird seçdiyi peşəni təkmilləşdirmək qayğısına qalır və yaradıcılıq axtarışına qoşulur.

Hər bir şagird əməyin həm əqli, həm də fiziki formalarına yiyələnə bilmək üçün geniş fiziki və psixoloji imkanlara malikdir. Ona görə də şagird özünün şüurlu fəaliyyəti sahəsində tədricən əməyin bir neçə mürəkkəb formalarına əsaslanan peşəyə yiyələnə bilər.

15 illik təcrübəm göstərir ki, yazı, əmək tə'limi və bədən tərbiyəsi dərsləri ilə əlaqəli tədris edildikdə ibtidai sinif şagirdlərinin hərəkətləri gündən-günə uzlaşdırılmış və dəqiq olur.

Məktəbdə öz yaşıdları və yuxarı sinif şagirdləri ilə ünsiyyətdə olmaq onların ictimai varlıq kimi inkişafına kömək edir. Bu yaşlarda uşağın kimlə, hansı xasiyyətə malik uşaqlarla yoldaşlıq etmələri gələcək üçün mühüm əhəmiyyət kəsb edir.

İbtidai sinif şagirdləri müəllimlərin əməyinə xüsusi maraq göstərir, öyrəndiklərini dərsdə, məişətdə, evdə, gündəlik həyatda yerinə yetirməyə çalışırlar. Onların görüş dairələri geniş, arzu və istəkləri müxtəlif olur. Onları hərbçi, dənizçi, təyyarəçi peşəsi daha çox maraqlandırır; özlərini müxtəlif peşə (həkim, müəllim, mühəndis, sağıcı və s.) bənzətmək istəyirlər.

Əmək tə'limi dərslərində biz əməyin bə'zi növləri haqqında şagirdlərin mə'lumatlarını genişləndirir, birgə işdə böyüklərin nümunəsi, işin əhəmiyyəti, keyfiyyəti, maşınlar və əmək alətləri haqqında danışırıq. Yaşlıların əməyi ilə tanışlıq şagirdlərdə böyüklərin əməyini qiymətləndirmək, ona qayğılı münasibət bəsləmək və məhəbbət hissi tərbiyə edir. Bütün bunlar həm də şagirdlərdə həvəs oyatmaq, vicdanla, diqqətlə işləməyi öyrətmək, işləyəndə səbirli olmaq, başladığı işi axıra çatdırmaq, işdəki çətinliyi aradan qaldırmaq üçün çıxış yolu axtarmaq, yoldaşına kömək etmək və s. kimi əxlaqi keyfiyyətləri formalaşdırır.

Şagirdləri əmək fəaliyyəti ilə tanış edərkən aşağıdakı ardıcıllığı gözləyirəm:

1) qarşıya qoyulmuş məqsədin aydınlığı;

2) iş üçün lazım olan materialın və alətlərin əldə edilməsi;

3) işin planlaşdırılmış mərhələlər üzrə və müəyyənləşdirilmiş qaydada həyata keçirilməsi;

4) əmək prosesində əldə ediləcək nəticənin müəyyənləşdirilməsi.

Əmək dərsində şagirdlərin önlük geyinmələri zəruridir. Lakin hər bir şagirdin önlüyü olmur. Deməli, şagirdlərin geyimləri üçün önlüyün tikilməsi tələbi ortaya çıxır Həyatın özü mövzunu diktə edir. Məqsədə uyğun olaraq şagirdlərə rənginə və keyfiyyətinə görə münasib parça seçmək təklif edilir. Şagirdlər həmçinin lazım olacaq alətləri (qayçı, iynə, sap) seçirlər. Müəllim isə prosesində ülgüdən istifadə etməklə ölçünü, kəsmək, tikmək qaydasını başa salır.

Şagirdlər müəllimin əməyini müşahidə edərək konkret təsəvvürlərə yiyələnir və əmək fəaliyyətini onun rəhbərliyi altında yerinə yetirirlər. Bu proses şagirdlərdə böyüklər kimi sə'ylə, məs'uliyyətlə işləmək həvəsi oyadır.

Əmək prosesinin sonunda alınan nəticə, prosesin əvvəlində düşünülmüş təsəvvürləri realizə edir.

Hazırda ibtidai məktəb tə'liminə bir sıra yeni tələblər verilir. Məktəb böyüyən nəsli dərin biliklərlə silahlandırmaqla yanaşı, onlara bu bilikləri müstəqil, sür'ətlə əldə etmək tələbatı və bacarığı, təfəkkür müstəqilliyi, özünütəhsil vərdişləri də aşılamalı, oğlan və qızları müstəqil həyata, müstəqil əmək fəaliyyətinə daha yaxşı hazırlamalıdır. Bu, məktəb islahatının əsas tələblərindən biridir.

Kiçikyaşlı məktəblilərin başlıca əməyi, əlbəttə, təhsildir, elmlərin əsaslarına möhkəm yiyələnməkdir. Bizim borcumuz şagirdlərdə müstəqillik inam, yaradıcı təfəkkür formalaşdırmaqdan, müstəqil Azərbaycanımızın taleyi üçün onların məs'uliyyət hissini gücləndirməkdən ibarətdir.

* * *

# MƏKTƏBƏ PSİXOLOJİ HAZIRLIQ MƏSƏLƏLƏRİ

**İsa Məmmədov**,
psixologiya elmləri namizədi

Dünyaya göz açan kimi ətraf mühitə uyğunlaşan heyvan balasından fərqli olaraq yeni doğulmuş insan ayaq açmazdan, danışmağı öyrənməzdən əvvəl uzun həyat məktəbi keçməlidir. Bu dərslər, hər şeydən əvvəl, ana ilə, ətrafda olan insanlarla əlaqədardır. Uşağın inkişaf prosesinin məntiqi və qanunauyğunluqları hər bir yaş qrupuna xas olan xüsusiyyətlərdə özünü büruzə verir. Tədricən üz cizgiləri dəyişir, sinir sistemi inkişaf edir, uşağın psixi həyatı mürəkkəbləşir.

İnkişaf vahid poses olub, o müxtəlif faktorların çoxluğu ilə səciyyələnir. Onların meydana çıxarılması üçün «pasport yaşı» parametrlərinə diqqət vermək kifayət deyildir. Bu məsələ «psixoloji yaş» xüsusiyyətlərinin öyrənilməsinə və məhz bu əsasda uşağın məktəbə hazırlıq səviyyəsinin aydınlaşdırılması üçün psixoloji me'yarlar cəhətdən yanaşmağı tələb edir. Məktəbə hazırlıq me'yarlarının aşkar edilməsində uşağın fiziki inkişaf göstəricilərinin müəyyən qədər köməyi vardır, çünki təhsillə əlaqədar yüklər uşaqdan davamlılıq və müəyyən fiziki normalar tələb edir, ancaq dominant rol psixi parametrlərə xasdır. Psixoloqlar tərəfindən uşağın məktəbə hazırlıq dərəcəsini müəyyən etmək məqsədilə çoxlu metodlar hazırlanmışdır, bu ayrı-ayrı psixi funksiyaların (yaddaş, nitq, təfəkkür və s.) inkişaf dərəcəsini aşkar etməyə imkan verir. Bu metodlardan istifadə edərkən nəzərə almaq lazımdır ki, psixoloji yaş dövrü ayrı- ayrı psixi funksiyaların xüsusiyyətlərini deyil, psixi inkişafın ümumi səviyyəsini əks etdirir. Aşkar olunmuşdur ki, son keyfiyyət ayrı- ayrı psixi funksiyalar deyil, funksiyalararası əlaqələrdə olan dəyişikliklərlə bağlıdır.

Yaxşı yaddaş, iti ağıl, aydın təfəkkür uşağın fərdi xüsusiyyətləri ilə əlaqədardır. Bütün bu keyfiyyətlər öz-özlüyündə uşağın psixi yaş həddində olması haqda mə'lumat vermir. Belə halda sual doğur: uşağın məktəbə psixi hazırlığını müəyyən edən hansı me'yarlardır? Uşağın məktəb təliminə ümumi psixoloji hazırlıq göstəriciləri məsələsinin həlli üçün onun inkişaf qanunauyğunluqları və hərəkətverici qüvvələrini aşkara çıxarmaq lazımdır.

**Əsas (aparıcı) fəaliyyət haqqında**. Müasir psixologiyada «fəaliyyət» anlayışı mühüm yer tutur. Uşaq fəaliyyət prosesində bir şəxsiyyət kimi formalaşır. Onun fəaliyyəti dinamik və genişdir. Fəaliyyətin müxtəlif növləri bir-birindən nəinki forma və məzmumuna, həm də psixoloji əhəmiyyətinə görə fərqlənir. Fəaliyyətin hər bir növündə bir-birindən fərqlənən bacarıq və vərdişlər formalaşır. Uşağın psixi inkişafı isə, hər şeydən əvvəl, onun aparıcı fəaliyyəti ilə istiqamətlənir. Əsas fəaliyyət, bir tərəfdən inkişafın əvvəlki proseslərinə yekun vurur, digər tərəfdən onun gedişində uşağın yeni yaş mərhələsinə keçidi üçün əlverişli zəmin yaradır. Məhz əsas fəaliyyət uşağın psixoloji yaş dövrünü müəyyən edir.

Psixi inkişafın hər bir yaş mərhələsi ona məxsus aparıcı qüvvə ilə xarakterizə olunur. D.B.Elkonin qeyd edir ki, yaş mərəhələsi üçün xarakter olan inkişaf tendensiyaları və onların vasitəsilə uşağın həqiqətə münasibəti aparıcı fəaliyyət öz əksini tam şəkildə tapır.

İnsan, bir qayda olaraq, daim ünsiyyətdə olur. Məhz ünsiyyət prosesində o, bir şəxsiyyət kimi özünü təsdiqləyir. Həyat tez-tez ağır «sınaqlar» yaradaraq, uşaqları bu və ya digər dərəcədə böyüklərlə vacib olan ünsiyyətdən uzaqlaşdırır. Onlar üçün yaxın adamlarla vacib ünsiyyətin mümkünsüzlüyü kədərli olur, bə'zən hətta faciələrlə nəticələnir.

Mə'lumdur ki, yetimxanalarda tərbiyə alan uşaqlar öz yaşıdlarından fiziki və psixi inkişafda xeyli geridə qalırlar. Bu uşaq kontingenti arasında ölüm halları daha çox müşahidə olunur. Körpə üçün , bir qayda olaraq, böyüklərlə, hər şeydən əvvəl, anası ilə ünsiyyətdə, xüsusilə emosional ünsiyyətdə olmaq vacibdir. Məktəbəqədər yaş dövründə ünsiyyətin müstəsna rolu var. Körpə ilə ünsiyyətdə olan adamlar yalnız onun hisslərinin təkamülündə deyil, həm də əqli və digər qabiliyyətlərinin inkişafında vacib rol oynayır.

**İnkişaf mərhələləri**. Çoxdan mə'lumdur ki, uşağın psixi inkişafı düz yolla getmir və bir qayda olaraq, müxtəlif paradokslarla xarakterizə olunur. Onlar inkişafın böhran vaxtında aydın görünür. Həkimlər böhranı xəstəliyin ən kəskin mərhələsi hesab edirlər. Tibbi böhranla psixoloji böhran arasında oxşarlıq nədədir və onlar necə dərk edilir? Psixoloji böhran da tibbi böhran kimi ağır simptomlarla müşayiət olunur. Böhrandan sonra, adətən, nisbi sakitlik dövrü gəlir.

Psixoloji böhran «xəstəliyin böhranı» deyil, daha çox «sağlamlığın böhranı»dır. Bu qanunauyğun haldır. Onun əmələ gəlməsi psixi inkişafın patoloji deyil, tam normal gedişindən danışır. Böhranlar bir yaş dövrünü digərindən ayırır, eyni zamanda onlar arasında əlaqə zənciri yaradır. Deməк olar ki, böhran öz-özlüyündə inkişafın yeni fazasına keçid mexanizmi ilə əlaqədardır. Bu baxımdan uşağın məktəbə psixoloji hazırlığı bilavasitə onun əsas fəaliyyətinin dəyişilməsi səviyyəsində səciyyələnir.

**Yeddiyaşın böhranı.** Yeddiyaşlı uşaqların davranışında və münasibətində yaşa uyğun xüsusiyyətlər özünü göstərir. Üz cizgiləri dəyişir, əzələ qüvvəsi artır, bədən möhkəmlənir, hərəkətlər təkmilləşir, mərkəzi sinir sisteminin rolu artır.

Məhz bu yaşda qalxanvari vəzin fəaliyyəti fəallaşır. Yeddiyaşlı uşaqların tez-tez dəyişilən əhvalı məhz bu proseslərlə tam əlaqədardır. Yeddiyaşlı uşaqların davranış və münasibətlərində əmələ gələn bütün xüsusiyyətləri yalnız endokrin dəyişikliklərlə izah etmək mümkün deyil. İlk baxışdan yeddiyaşlı uşaqların davranışında özünəməxsus xüsusiyyət və nyuansların müşahidə olunması qəribə görünmür: uşaq ərköyünləşir, əsassız səbəbdən küskünlüyünü bildirir, tərslik edir, göz yaşları tökür. Bu simptomlar təsadüfi deyil. Uşaq şüurlu surətdə hər hansı bir rola girir, daxilən tez-tez vəziyyətə uyğun olmayan mövqe tutur və özünü ona uyğun aparır. Uşağın davranışında qeyri-daimilik və qeyri-təbiilik, emosiyalarının məntiqsizliyi və əhvalının səbəbsiz dəyişilməsi bu zəmində baş verir.

Bütün bu mə'nasız hallar vaxt keçdikcə yox olur, bəs nə qalır? Qalır mövcud vəziyyətin iradəsilə hərəkət etmək qabiliyyəti, bu və ya digər mövqelərin seçilmə azadlığı.

Bu mərhələdə məktəbə psixoloji hazırlıq məqsədilə uşaqlarda ali psixi funksiyaların–sərbəst yaddaş, təfəkkürün inkişafı, nitqin təzahürü üçün əlverişli şəraitin yaradılması vacibdir.

**Məktəbə hazırlığı olmayan uşaqlar haqqında.** Uşaqlarda məktəb təhsilinə marağın formalaşması onların məktəbə hazırlığının əsas göstəricilərindən sayılır. Əgər uşaq tələblərə əziyyətsiz qoşulmağı bacarırsa, inkişaf edib möhkəmlənirsə, onun məktəbə psixoloji hazırlığından danışmaq olar. Təcrübə göstərir ki, uşaqların böyük qismi məktəb təhsilinə psixoloji cəhətdən hazır olmurlar. İlk dərsdən onlar müxtəlif çətinliklərlə toqquşurlar. Psixoloji tədqiqatlar bu çətinlikləri 3 qrupa bölməyə imkan verir:

a) **Birinci qrup çətinliklər** müəllimin rol və mövqeyinin uşaqlar tərəfindən başa düşülməməsilə əlaqədardır. Müəllim yalnız böyük deyil. Onun bütün fəaliyyəti, bə'zi şagirdlərə göründüyü kimi, yalnız təngəgətirici qəyyumluq, uşaq azadlığını sıxışdırmaqdan ibarət deyil, həm də uşaqlarla ünsiyyətdə gözəl və maraqlı dünyada həyata keçirilən insan kəşfləri və bilik aşılamaqdan ibarətdir. Əgər uşaqlar müəllimə bir böyük, qanun nəzarətçisi kimi yanaşırlarsa, onun tələblərini düzgün başa düşmür və onlarda əks- kortəbii reaksiyalar oyanır, bu da məktəb rejiminin pozulmasına gətirib çıxarır.

b) **İkinci qrup çətinliklər** də çox əhəmiyyətlidir. Kollektiv təhsillə əlaqədar olan fəaliyyət. Müəllimin sinifdə şagirdlərə gərgin müasibət şəraitində iş aparmasını tələb edir, lakin bütün uşaqlar bu münasibətə hazırlıqlı olmurlar. Elə uşaqlar var ki, yalnız müəllimin ona müraciətindən sonra işə qoşulurlar. Tez-tez belə fikridağınıq uşaqların valideynləri uşaqlara müəllim tərəfindən materialın izah edilmədən ev tapşırıqlarının verilməsindən şikayətlənirlər. Müəllimlər də öz növbəsində, belə şagirdlərdən narazılığını bildirir, onlara geridə qalan tənbəl uşaq kimi baxırlar. Məktəb psixoloqunun işə qarışması, belə «autsayderlərin» psixoloji müayinəsi və korreksyası nəticəsində uşaqlar kifayət qədər yüksək göstəricilər nümayiş etdirirlər. Diqqətsizlik, narahatlıq, hətta dərsdə özünü pis aparmaq və ev tapşırıqlarının yerinə yetirilməsində çətinlik çəkmək mahiyyətcə bir zəncirin halqalarıdır. Bu qüsurların səbəbi kollektiv təhsil prosesi üçün vacib olan vərdişlərin və şəxsi intizamın olmamasıdır.

c) **Üçüncü qrup çətinliklər** valideynlərin məktəbə münasibətilə şərtlənir. Uşaq təhsildə geri qalır, müəllim şikayətlənir. Valideynlər bu situasiyanı birmə'nalı qarşılayaraq nəticə çıxarırlar: «Məktəb pisdir», «müəllim kobuddur», «riyaziyyat maraqsızdır». Şagirdlərsə, valideyn mövqeyini asanlıqla qəbul edərək, nəinki özlərinə layiq qiymət vermir, onlarda məktəbə qarşı neqativ münasibətlər formalaşır. Valideynlər öz əsassız reaksiyaları ilə «qaş qayıran yerdə göz çıxarırlar».

**Məktəbə hazırlığın göstəriciləri.** Məktəb həyatına və təhsilə uşaqların hazırlığı müxtəlif cür izah edilir. Bu hazırlıq çox vaxt uşağın bilik, bacarıq və vərdişlərinin səviyyəsi ilə ölçülür. Bə'zi müəllimlər də uşaqların hazırlığını bü cür başa düşürlər.

Parta arxasında oturan birincilərin əksəriyyəti oxumaq arzusunda olur. Təzə çanta, təzə əlifba, dəftərlər onlar üçün romantik aləmdir. Bu sirli, cazibəli aləmə düşən uşaq ona layiqli olmağa çalışır. Bu ilhamlı marağı hərtərəfli qorumaq, saxlamaq və inkişaf etdirmək vacibdir. Bilik yanğısı, oxumaq arzusu məktəbə psixoloji hazırlığın tərkib hissəsi olsa da, təhsil prosesində aşkara

çıxan çətinlikləri inkar etmir. Məktəbə psixoloji hazırlıq geniş anlayış, kompleks problem olub bilik, bacarıq və vərdişlərlə bərabər, digər keyfiyyətlər də tələb edir.

Burada uşaqlarda təfəkkür və qavramanın inkişaf səviyyəsinin rolunu xüsusi qeyd etmək lazımdır. Şagird hər şeyi dərk etməklə yanaşı, onu şüurlu fəaliyyətilə idarə etməyi bacarmalı, sinif kollektivinə «yazılmaq» üçün ünsiyyət bacarığına yiyələnməlidir.

Əgər müəllim öz yetişdirməsinin psixoloji inkişaf göstəricilərini bilirsə, ya nəzərə almırsa, onun fəaliyyəti yararlı ola bilməz. O, uşağın qüsurlarının aradan qaldırılmasına nail ola bilməz. Müəllim sinfə xas olan çətinlikləri nəzərə almalı, bu istiqamətdə məqsədyönlü psixoprofilaktik iş aparmalıdır.

**Uşaqların məktəbə psixoloji hazırlığının müəyyən edilməsi**. Məktəbə qəbul zamanı uşaqların hazırlıq səviyyələrini yoxlamaq üçün, bir qayda olaraq, psixoloji-pedaqoji proqnoz təşkil olunur. Uşaq öyrənilərkən müvafiq sinifdə, dərs deyəcək müəllim də iştirak edir. Psixoloji-pedaqoji proqnoz keçirilərkən aşağıdakı parametrlərin aşkar edilməsinə xüsusi diqqət yetirilir: uşağın məktəbə münasibəti, bilik ehtiyatı, nitq və təfəkkürünün, hafizə və təxəyyülünün inkişaf səviyyəsi, xırda və geniş hərəkətlərin motorikası.

Nəticələrin müzakirəsində uşaq və onun valideynləri iştirak etmir.

Uşağın məktəbə münasibətini və biliyin səviyyəsini müəyyən etmək üçün, təxminən belə müsahibə aparılır:

- Adın nədir?
- Neçə yaşın var?
- Ata və ananın adı nədir?
- Harada yaşayırsan?
- Məktəbə getmək istəyirsənmi?
- Məktəbdə ən maraqlı olan nədir?
- Hansı ev heyvanlarını tanıyırsan?
- Bəs vəhşi heyvanları?
- İlin hansı fəslində ağaclar yarpaqlayır?
- Yağışdan sonra torpaq necə olur?
- Gündüz gecədən nə ilə fərqlənir?

Bundan əlavə, cümlə təhlili, dərs şeylərinin yığışdırılması, yanıltmac, tapmaca, ş'er oxumaq, nəqletmə, hissələrinə ayrılmış şəkil hissələrini birləşdirib şəkli bərpa etmək, rəsmetmə, sayma, plastilindən fiqurlar düzlətmə və s. üzrə iş gedir.

Müəllim tə'lim-tərbiyə prosesində əldə edilən psixoloji müayinələrin nəticələrini nəzərə alır. Əgər uşaqda məktəbə müsbət münasibət hələ yoxdursa, tədris prosesində ona daha çox diqqət vermək lazımdır. Onunla ünsiyyəti məktəbəqədər yaş dövrünə xas olan formalarda qurmaq məsləhət görülür; emosional tə'sir üsullarından istifadə edərək, cəzaların tətbiqinə əl atmamaq tövsiyə edilir. Bir sözlə, elə ab-hava yaratmaq lazımdır ki, uşaq tədricən sinif yoldaşlarından nümunə götürərək, öz yeni vəzifəsini-şagird rolunu düzgün dərk etsin, müvafiq davranış və məktəb rejiminin tələblərini anlaya bilsin. Psixoloji müayinənin nəticələrinə müvafiq olaraq, müəllim fiziki motorikanın – əl, qol, ayaq, bədən hərəkətlərinin inkişafı üzrə I sinif şagirdləri ilə müntəzəm iş aparmalıdır.

Psixoloji tədqiqatlar göstərir ki, belə kompleks yanaşma I sinif şagirdlərində əməli tə'lim vərdişlərinin formalaşmasına şərait yaradır.

* * *

# ANA DİLİ ÜZRƏ İLLİK YEKUN YOXLAMA VƏ NƏZARƏT İŞİ

Adətən, biz hər rübün və ilin axırında ana dili üzrə yekun yoxlama işi keçirirdik. Bu işin məktəbin direktorluğunun nümayəndəsinin (direktor, müavin, metodkabinetin müdiri, ibtidai sinif müəllimi) iştirakı ilə aparılması, yoxlanması və bir il saxlanması haqqında dəfələrlə məsləhət verilib.

Yekun yoxlama işlərinin dünya standartlarına uyğun təşkili prosesi bir qədər çətinləşdirsə də nəticələrin daha dəqiq olmasını tə'min edir. Sinfin səviyyəsi müəllim və rəhbərlik üçün aydın olur.

Gələn nömrədə dərs ili üçün isə digər fənlərin tədrisinin də belə yekunlaşdırılması sistemi işlənəcəkdir.

İl boyu hər bir sinifdə çoxlu yoxlama imla və hər rübün axırında yekun yoxlama işi aparılır. Belə işlər şagirdlərin intellektual hazırlığını aşkara çıxaran bir vasitə olduğundan onları çox maraqlandırır, müəllimlərin işə məs'uliyyətini artırır. Aşağıda ana dili üzrə yekun yoxlama işləri verilir. Nümunə kimi verdiyimiz bu yekun yoxlama işləri yerinə yetirilərkən müəllim, məktəbin rəhbərləri məzmunda müəyyən dəyişiklik apara bilərlər. Dəyişikliyin ümumi işə zərər yetirməməsi üçün çətinlik səviyyəsini aşağı salmadan yalnız yerli şəraitə, doğma dilin xüsusiyyətlərinə uyğun mətnlərin seçilməsi, sualların qoyulması, testlərin tərtibi məsləhət görülür.

## SAVAD TƏ'LİMİ
### Yoxlama işi

**I. Şifahi nitqə yiyələnmə dərəcəsi**

Müəllim dərsdə, dərsdənkənar məşğələlərdə, sərbəst vaxtlarda şagirdlərin şifahi nitqi üzərində apardığı müşahidələr əsasında tədricən hər bir şagirdin nitqinin xarici səciyyəsi, onun əhatəliliyi, rabitəliliyi haqqında mə'lumat toplayır.

1. Şagirdlərin şifahi nitqinin xarici səciyyəsinin beş göstərici üzrə qiymətləndirilməsi.

1) həvəslə danışır;
2) müəllimlər və şagirdlərlə ünsiyyət forması situasiyaya uyğun olur;
3) nitq, qrammatik cəhətdən, əsasən, düzgündür;
4) artikulyasiya təmizdir;
5) ucalıq normaya uyğundur.

4-cü səviyyə – 5 göstərici normasında
3-cü səviyyə – 4 göstərici normasında
2-ci səviyyə – 2-3 göstərici normasında
1-ci səviyyə – 1 göstərici normasında.

**2. Şagirdlərin şifahi nitqinin rabitəliliyinin qiymətləndirilməsi** (göstəricilər: danışığın tipik vahidi, obyektin ətraflı səciyyələndirilməsi).

**4-cü səviyyə** – rabitəli cümlələrlə danışır; obyekt və ya hadisənin müfəssəl səciyyəsini verə bilir.

**3-cü səviyyə** – nitq cümlələrdən və ya cümlələri əvəz edən ayrı-ayrı sözlərdən ibarətdir; obyekt və hadisənin səciyyəsi az əlaqələndirilmiş fikirlər şəklində verilir.

**2-ci səviyyə** – nitqdə, demək olar ki, cümlədən istifadə olunmur, əsasən, ayrı-ayrı sözlər tələffüz edilir; şagird obyekt və ya hadisəni təsvir edərkən böyük çətinlik çəkir.

**1-ci səviyyə** – nitq əsasən nida, bağlayıcı və qoşmalardan ibarət olur; fikrin məzmununu çətinliklə tutmaq olur.

**Şifahi nitqə yiyələnmə cədvəli**

| Şagirdin soy adı və adı | Nitqin xarici xarakteristikası göstəricilər | | | | | Səviyyə | Niqin rabitəliliyinin səviyyəsi |
|---|---|---|---|---|---|---|---|
| Məmmədov Həmid | 1 | 2 | 3 | 4 | 5 | 2 | 3 |
| | - | + | + | + | - | | |

*Qeyd.* Şifahi nitqin öyrənilməsi və onun bütövlükdə qiymətləndirilməsi 4-cü sinfin axırınadək saxlanır.

## II. Oxu texnikasına yiyələnmə

1. Ucadan oxu texnikasının və oxumanın başa düşülməsinin qiymətləndirilməsi.

### Oxu üçün mətnlər

(Müəllim mətnləri mürəkkəblik dərəcəsinə görə oxşar hər hansı mətnlə əvəz edə bilər). İki mətn. 80 söz. 6 hecalı söz 1 dənə, qoşasamitli və s.

İKİ QURD VƏ TÜLKÜ

İki qurd bir-biri ilə bəhs eyləyirdi ki, görsünlər hansının dişləri daha itidir. Onlar höcətləşəndə bir tülkü gəlib oraya çıxdı. Qurdlar tülkünü bu işdə hakim seçdilər. Tülkü bunlara dedi ki, quru söz ilə bəhs olmaz. Gərək hər biriniz sözünüzü iş ilə sübut edəsiniz. Durun, çarpışın. O vaxt mən də hansınızın dişinin iti olduğunu deyəcəyəm.

Qurdlar bu təklifə razı olub çarpışmağa başladılar. Çarpışdılar, çarpışdılar. Bir-birinin dərisini parça-parça elədilər. Az sonra hər ikisi qana boyanıb, taqətsiz yıxıldı. Tülkü dedi:

- Hə! İndi başa düşgüm ki, hər ikinizin dişi çox itidir.

***Rəşid bəy Əfəndiyev***

BAŞQASINA NÖQSAN TUTMA

Bir ağıllı, mərd cavan vardı. O, yaxşı ad qazanmışdı. Bu cavan gözəl danışsa da, «ş» səsini düz deyə bilmirdi.

Mən bir dostuma dedim:

- Yəqin bu cavanın qabaq dişi düşüb. Odur ki, «ş» deyə bilmir.

Ağıllı dostum bərk açıqlanıb dedi:

- Bir də bu sözü təkrar etmə. Onda nöqsan görmə. Həmin cavanın çox hünəri var. Unutma ki, başqasında yalnız eybi görmək pis adətdir. Əvvəl gör özünün nə nöqsanın var. Sonra başqasında eyib axtar. Çəməndə gül də bitir, tikan da. Ağıllı tikanı dərməz, gülü dərər.

***Sədi Şirazi***

Müəllim dəftəri «Oxunun təhlili» cədvəli kimi xətləyir və sentyabrın 1-dən orada hər bir oxu prosesinin nəticələrini qeydə alır. Beləliklə, ən başlıca göstəricilər toplanır: oxunun qaydası, səhvlərin xarakteri, oxunmuşun başa düşülməsi. Vaxtdan-vaxta şagirdlər hiss etmədən müəllim onların oxularının sür'ətini qeyd edir. Bu məqsədlə müəllim bir neçə mətn seçir və həftənin müxtəlif günlərində onların sinifdə oxunmasını təşkil edir. Eyni zamanda mə'lumdur ki, hər hansı təcrübəli müəllim və direktor müavini şagirdlərin ucadan oxularına qulaq asaraq onların proqram tələblərinə uyğun, normadan aşağı, yaxud yuxarı oxuduğunu müəyyənləşdirir. Ona görə də şagirdlər üçün stres vəziyyəti yaratmağa və direktor müavinini həddən artıq yükləməyə ehtiyac yoxdur.

**2. Qarışıq verilmiş (forması dəyişdirilmiş) mətnin bərpa edilməsi, qrafika müstəqilliyin səviyyəsi**

**Tapşırığın vəzifəsi.** Cümlələr arasında məntiqi-mə'na əlaqələrini müəyyənləşdirmək bacarığının aşkara çıxarılması; niyyətsiz üzündən köçürmənin keyfiyyəti, qrafik vərdişlər; müstəqillik səviyyəsinin müəyyənləşdirilməsi.

**İşin təşkili.** Cümlələr yazı taxtasında alt-alta yazılır.

Sərçəciyin ayağını sarıdıq.
Meşədən keçirdik.
Onun ayağı sınmışdı.
Ana sərçə qanad çalır, cikkildəyirdi.
Ətcəbala yuvadan yerə düşmüşdü.
Onu yuvaya qoyduq. (20 söz).

**Tə'limat.** Verilmiş cümlələrdən hekayə qur. Onu dəftərdə yaz.

**Mətnin tərtibinin qiyməti**

**4-cü səviyyə.** Bütün məntiqi mə'na əlaqələri düzgün müəyyən edilmişdir.

**3-cü səviyyə.** Əlaqələrin əksəriyyəti düzgün müəyyən edilmişdir.

**2-ci səviyyə.** Əlaqələrin çoxu düzgün müəyyən edilməmişdir.

**1-ci səviyyə.** Cümlələr qarışıq yığılmışdır.

Bu tapşırığın aparılmasını və təhlilini dəyişməklə uşağın müstəqillik səviyyəsi haqqında mə'lumat almaq olar.

**Müstəqilliyin səviyyəsi**

**4-cü səviyyə.** Tapşırıq yazı taxtasından və ya vərəqdən yerinə yetirilir.

**3-cü səviyyə.** Bilavasitə gizlicə söyləmə. Hər bir cümlə ayrıca vərəqə yazılır.

**2-ci səviyyə.** Tapşırığın hissələri üzrə bilavasitə gizlicə söyləmə. Birinci cümlənin göstərilməsi.

**1-ci səviyyə.** Mətn yaşlının köməyi ilə tərtib olunub.

**Üzündən köçürmənin qiyməti**

Üzündənköçürmə zamanı öyrənilmiş və öyrənilməmiş orfoqramların ayrılması mə'nasını itirir. Bütün səhvlər «Təhrif və hərflərin əvəzlənməsinin sayı» qrafasında qeyd olunur. Orada yalnız ümumi sayı deyil, həm də xarakterik səhvlərin göstərilməsi arzu olunur.

**Üzündənköçürmə vərdişlərinə yiyələnmənin səviyyəsi**

**4-cü səviyyə.** Səhvsiz, düzgün köçürür.

**3-cü səviyyə.** Bir-iki səhv buraxılıb, yaxud 3-ə qədər düzəliş aparılıb.

**2-ci səviyyə.** a) 3-4 səhvə yol verilib, yaxud 4 düzəliş aparılıb; b) 1-2 səhvə yol verilib, yaxud 3-ə qədər düzəliş aparılıb.

**1-ci səviyyə.** Uşaq üzündənköçürmə zamanı göstəricilərin əksəriyyəti üzrə əhəmiyyətli dərəcədə çətinliklərlə qarşılaşır.

**Qrafikanın qiyməti**

**4-cü səviyyə.** Qrafik cəhətdən düzgün yazının tələblərinə uyğundur (xətt aydın, dəqiq, düz, gözəldir, hərflər düz bitişdirilib).

**3-cü səviyyə.** Qismən uyğundur, kobud olmayan xətalar.

**2-ci səviyyə.** Kobud xətalar.

**1-ci səviyyə.** Çox kobud xətalar.

Üzündənköçürmənin nəticələri və mətnin tərtibi aşağıdakı cədvəldə qeyd edilir.

| Sıra nömrəsi | Şagirdlərin soyadı və adı | Buraxılış və axıradək yazılmamış işarələrin sayı | Punktuasiya işarələri | Buraxılmış və artıq hərflərin sayı | Təhriflərin və hərflərin əvəzlənməsinin say | Cümlələrin əvvəlində böyük hərf | Düzəlişlərin sayı | Üzündənköçürmənin səviyyəsi | Qrafikanın səviyyəsi | Mətnin tərtibinin səviyyəsi | Müstəqilliyin səviyyəsi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |

### 3. Verilmiş hərfə istinadən sözlərin tərtibi

**Tapşırığın tə'yinatı.** Şagirdlərin *söz* anlayışını mənimsəmə səviyyəsinin müəyyənləşdirilməsi. Şagirdlərin sözlərin variantlarını araşdırmaq qabiliyyətinin, lüğət ehtiyatının aşkara çıxarılması. Verilmiş sözlərlə cümlələrin tərtibi və təhlili zamanı özünənəzarətin yenidən yoxlanması.

**İşin təşkili.** İstinad hərfləri yazı taxtasında belə yazılır.

ç - ək

qa - ıq

bu - q

**Tə'limat.** Hər sətirdə boş yerə istənilən qədər hərf, hərf birləşməsi, heca əlavə etmək olar. Şagird müxtəlif variantda sözlər yaza bilər.

Yuxarıdakı tapşırığa əsasən müvafiq olaraq belə sözlər yazmaq mümkündür:

çiçək, çörək, çərək, çəllək, çiyələk və s.

qatıq, qayıq, qaşıq, qabıq, qalıq və s.

buruq, bulaq, budaq, buzlaq, bucaq, buxaq və s.

**Üç göstərici üzrə sözlərin tərtibinin qiymətləndirilməsi**

1) Əsasən, 3 və artıq söz yazılmışdır.

2) Sözlər verilmiş hərflərə və sxemə uyğundur.

3) Şüursuz hərf birləşmələri yoxdur.

**4-cü səviyyə.** Üç göstəricinin hamısı normasındadır.

**3-cü səviyyə.** 1-2 söz yazılıb, ikinci və üçüncü göstəricilər normasındadır.

**2-ci səviyyə.** 3-cü və 4-cü səviyyələrdə müəyyən şərtlərin pozulması (verilmiş hərflər və sxemlər) halları, düşünülməmiş hərf birləşmələri olub.

**1-ci səviyyə.** Üç göstəricinin hər biri üzrə kifayət qədər pozuntu var.

## 4. Orfoqrafik imla

**Tapşırığın tə'yinatı.** Fonetik eşitmənin formalaşdırılmasının yoxlanması. Sözün fonetik obrazının onun orfoqrafik deyilişinə, hərfi obraza keçirmək. Xüsusi adların böyük hərflə yazılma bacarığının mənimsənilmə səviyyəsinin müəyyənləşdirilməsi. Cümlənin tərtibi.

**İşin təşkili.** Əvvəlcə müəllim mətni bütövlükdə orfoepik normalara əməl etməklə ifadəli oxuyur. Sonra cümləni qismən bitkin hissələrlə (söz birləşmələri ilə) aramla diktə edir. Qurtarandan sonra mətni başdan ayağa «orfoqrafik tələffüzlə» (yazıldığı kimi) oxuyur ki, şagirdlər yazdıqlarını yoxlaya bilsinlər.

Balaca Aydün Nadir babasıgilə getdi. O, Mingəçevir şəhərində oldu. Şəhəri, Kür çayını ilk dəfə görürdü. Babası Boz dağdan Mingəçevir dənizindən danışdı. Aygün Gəncəni də gördü.

**Beşinci cümlə üzrə qrammatik tapşırıq**

1. *Gəncəni* sözündə vurğunu qoy.
2. Qalın saitin altından xətt çək.
3. Sözləri hecalara ayır.

**İmlanın qiyməti** aşağıdakı nöqsanları nəzərə almaqla verilir:

1) *babasıgilə* sözü **babası gilə** şəklində yazılıb.
2) *Mingəçevir, Kür, Boz dağ, Gəncə* sözləri kiçik hərflə yazılıb.
3) Hərf əlavə edilir: *ilk* sözü *ilik* şəklində yazılıb.
4) Hərflər dəyişib (Mingeçevir, Gənjə, dənizinnən).
5) Hərf düşüb (çaynı).

**4-cü səviyyə.** İmla səhvsiz yazılıb.

**3-cü səviyyə.** Ən çox 2 səhv buraxılıb.

**2-ci səviyyə.** Ən çox 5 səhv buraxılıb.

**1-ci səviyyə.** 6 və daha çox səhv buraxılıb.

**Qrammatik tapşırıqların cavabı**

**4-cü səviyyə.** Bütün tapşırıqlar düzgün yerinə yetirilib.

**3-cü səviyyə.** Bir tapşırıq yerinə yetirilməyib, yaxud ayrı-ayrı tapşırıqlarda müəyyən səhvlər buraxılıb.

**2-ci səviyyə.** İki tapşırıq yerinə yetirilməyib, yaxud hər tapşırıqda ikidən artıq səhv buraxılmayıb.

**1-ci səviyyə.** Başqa variantlar.

# OXU

## Yoxlama işi

Proqramın xüsusiyyətlərinə və şagirdlərin bilik və bacarıqlarına verilən minimum tələblərə uyğun olaraq yoxlama işinə şagirdin inkişaf səviyyəsini, həmçinin ədəbi mətnin məzmununu başa düşmə səviyyəsini yoxlamaq tapşırığı daxil edilir.

## Tə'limat

Yoxlama işi dərs ilinin ikinci yarısının axırında aparılır. Yoxlama sinifdə bütün uşaqların iştirakı ilə fərdi şəkildə aparılır.

Yoxlama işinin mətni (oxu üçün material, suallar və tapşırıq) hər bir uşağa çap olunmuş şəkildə təqdim edilir. Hər bir mətn üçün tapşırıq və sualları müəllim ucadan oxuyur, şagirdlər öz-özünə təkrarlayırlar. Sür'əti ölçərkən müəllim oxuya başlanandan bir neçə saniyə sonra birinci, bir dəqiqədən sonra ikinci siqnal verir. Oxunan

parçada işarələrin miqdarını müəllim sayır. Şagirdlər yoxlama işin mətni üzərində karandaşla işləyirlər.

**Tapşırıq 1**

QIRMIZI PAPAQ

Biri vardı, biri yoxdu, balaca bir qız vardı. Bu qız elə qəşəng idi ki, daha dünyada ondan gözəli yox idi. Anası onu çox sevir, nənəsi isə anasından da artıq istəyirdi.

Nəvəsinin anadan olduğu günü nənəsi ona bir qırmızı papaq bağışlamışdı. O vaxtdan bəri qız hara getsəydi, özünün təzə, yaraşıqlı qırmızı papağını başına qoyub gedərdi, qonşular da onun barəsində beləcə deyərdilər:

- Baxın, Qırmızı Papaq gəlir.

Bir dəfə anası qutab bişirdi.

***Ş.Perro***

ÜZÜM BAĞI

Hikmət meşəni yamanca sevirdi. Saralmağa başlayan yarpaqların xışıltısına qulaq asmaq, budaqlardan sırğa kimi sallanan zoğallardan yemək ona ləzzət verirdi.

Bir azdan fikri dəyişdi. O, üzüm bağına getdi. Orada qızğın iş gedirdi. Adamlar üzümü dərib, səbətlərə, vedrələrə yığırdılar. Bir az aralıda, hamarlanmış yerdə iri qapan vardı. Hikmət də gəlib qapanın yanında durdu. Başında ağ günlüyü olan bir kişi üst-üstə qalaqlanmış yeşikləri maşından boşaldırdı.

***Həsən Nasir***

1. Birinci mətni ucadan (yarımsəslə) oxu.
2. Müəllimin siqnalını eşidəndə oxuduğun hissəni karandaşla qeyd et.
3. İkinci mətni ucadan (yarımsəslə) oxu.
4. Hansı mətndə insanın əməyindən bəhs olunur?
Lazım olan nömrəni haşiyəyə al.
5. 1-ci mətn: a) hekayə; b) nağıl. Lazımi hərfi haşiyəyə al.
6. 2-ci mətn: a) hekayə; b) nağıl. Lazımi hərfi haşiyəyə al.
7. Nağıl hesab etdiyin mətndə yalnız nağılların mətnində rast gəlmək mümkün olan sözün altından bir xətt çək.

**Tapşırıq 2**

Günəş buluda girdi,
Birdən hava qaraldı.
Yağış yağdı, sel axdı,
Güclü ildırım çaxdı.
Ana bərk nigarandı:
-Harda qaldı Eldarım?!
Külək əsdi bu ara,
Yağış da tez dayandı.
Qarşısında quzular,
Evə qayıtdı Eldar.
Ana öpüb oğlunu
Dedi: -Ürəyim, canım!
Yamanca islanmısan,
Ay balaca çobanım.

***Ə.Cəfərli***

1. Şe'ri ucadan (yarımsəslə) və səssiz oxu.
2. Şe'ri mə'naca iki hissəyə ayır.
3. Hansı hissəni bir qədər həyacanla, kədərlə, qorxu ilə oxumaq lazımdır. a)birincini; b)ikincini? Lazım olanı karandaşla haşiyəyə al.

4. Hansı hissəni bir qədər sakit, rahat, həm də sevinclə oxumaq lazımdır a)birincini; b)ikincini? Lazımı hərfi haşiyəyə al.

5. Bu şe'rdə müqayisəni tap və altından dalğalı xətt çək.

6. Bu şe'r üçün ad fikirləşib yaz.

**İşin yerinə yetirilmə səviyyəsi**

I. Oxunun sür'əti (dəqiqədə 25-35 söz)

**4-cü səviyyə.** Dəqiqədə 25-35 və daha artıq söz sür'ətlə, bütöv sözlərlə.

**3-cü səviyyə.** Dəqiqədə 25 sözdən az sür'ətlə, hecalarla.

**2-ci səviyyə.** Nöqsanlı və hecalarla oxu.

II. Oxunmuş mətnin məzmununun başa düşülməsi, mətnin mə'na verən hissələrə ayrılması, mətnin emosional və dəqiq mənimsənilməsi.

**4-cü səviyyə.** 1-ci tapşırıq (4-cü tapşırıq), 2-ci tapşırıq (2, 3, 4, 6-cı suallar) düzgün yerinə yetirilib.

**3-cü səviyyə.** 2-ci tapşırıq (2, 3, 4-cü suallar) düzgün yerinə yetirilməyib.

**2-ci səviyyə.** Beş sualdan dördünə qeyri-dəqiq səhv cavab verilib.

**1-ci səviyyə.** Tapşırıq nöqsanlı yerinə yetirilib və ya yerinə yetirilməyib.

III. Müxtəlif elmi məqalələr və bədii xalq yaradıcılığı nümunələri, yaxud müəllif mətni; janr e'tibarilə müxtəlif mətnlərin fərqləndirilməsi.

**4-cü səviyyə.** 1-ci tapşırıq (5, 6, 7-ci suallar) 3-cü tapşırıq (2, 3, 4, 5-ci suallar) düzgün yerinə yetirilib;

**3-cü səviyyə.** 1-ci tapşırıq (7-ci sual) və 3-cü tapşırıq (4, 5-ci suallar) düzgün yerinə yetirilməyib və ya səhvlərlə yerinə yetirilib.

**2-ci səviyyə.** Yeddi sualdan beşinə qeyri-dəqiq və ya yanlış cavab verilib.

**1-ci səviyyə.** Tapşırıq nöqsanlı yerinə yetirilib və ya yerinə yetirilməyib.

## AZƏRBAYCAN DİLİ
## II SİNİF

### Cümlələrin sərhədi olmayan mətnin cümlələrə ayrılması

**I iş**

Yazın əvvəlləri idi kəndin qırağında bir pişik balaları ilə şırın-şırın oynayırdı onlar çox xoşbəxt idilər birdən böyük bir qaraquş ildırım kimi şığıyıb pişik balalarından birini caynağına aldı qaraquş havaya qalxmağa macal tapmamış pişik onun üstünə atıldı onların arasında ölüm-dirim savaşı başlandı. (41 söz)

**İşin qaydası.** Mətn yazı taxtasına yazılır. Müəllim hər cümlədən sonra azacıq fasilə verməklə mətni oxuyur.

**Tə'limat**

1. Mətni bir də oxu.
2. Mətndə neçə söz olduğunu rəqəmlə yaz.
3. Mətnə başlıq ver.
4. *kəndin, pişik, üstünə, xoşbəxt* sözlərini yaz və çətinlik çəkdiyin hərfin (orfoqram nəzərdə tutulur) altından xətt çək.

### Nitq hissələrini tapmaq bacarığının aşkara çıxarılması

**II iş** (imla)

OVÇU

Səttar ov iti ilə meşəyə getdi. Bu, sıx palıd meşəsidir. Burada sərin bulaqlar və çiçəkli talalar var. Səttar kiçik təpənin başında dayanıb. O tüfəngini ikiəlli qaldırıb,

4. Hansı hissəni bir qədər sakit, rahat, həm də sevinclə oxumaq lazımdır a)birincini; b)ikincini? Lazımı hərfi haşiyəyə al.

5. Bu şe'rdə müqayisəni tap və altından dalğalı xətt çək.

6. Bu şe'r üçün ad fikirləşib yaz.

**İşin yerinə yetirilmə səviyyəsi**

I. Oxunun sür'əti (dəqiqədə 25-35 söz)

**4-cü səviyyə.** Dəqiqədə 25-35 və daha artıq söz sür'ətlə, bütöv sözlərlə.

**3-cü səviyyə.** Dəqiqədə 25 sözdən az sür'ətlə, hecalarla.

**2-ci səviyyə.** Nöqsanlı və hecalarla oxu.

II. Oxunmuş mətnin məzmununun başa düşülməsi, mətnin mə'na verən hissələrə ayrılması, mətnin emosional və dəqiq mənimsənilməsi.

**4-cü səviyyə.** 1-ci tapşırıq (4-cü tapşırıq). 2-ci tapşırıq (2, 3, 4, 6-cı suallar) düzgün yerinə yetirilib.

**3-cü səviyyə.** 2-ci tapşırıq (2, 3, 4-cü suallar) düzgün yerinə yetirilməyib.

**2-ci səviyyə.** Beş sualdan dördünə qeyri-dəqiq səhv cavab verilib.

**1-ci səviyyə.** Tapşırıq nöqsanlı yerinə yetirilib və ya yerinə yetirilməyib.

III. Müxtəlif elmi məqalələr və bədii xalq yaradıcılığı nümunələri, yaxud müəllif mətni: janr e'tibarilə müxtəlif mətnlərin fərqləndirilməsi.

**4-cü səviyyə.** 1-ci tapşırıq (5, 6, 7-ci suallar) 3-cü tapşırıq (2, 3, 4, 5-ci suallar) düzgün yerinə yetirilib;

**3-cü səviyyə.** 1-ci tapşırıq (7-ci sual) və 3-cü tapşırıq (4, 5-ci suallar) düzgün yerinə yetirilməyib və ya səhvlərlə yerinə yetirilib.

**2-ci səviyyə.** Yeddi sualdan beşinə qeyri-dəqiq və ya yanlış cavab verilib.

**1-ci səviyyə.** Tapşırıq nöqsanlı yerinə yetirilib və ya yerinə yetirilməyib.

## AZƏRBAYCAN DİLİ
## II SİNİF

### Cümlələrin sərhədi olmayan mətnin cümlələrə ayrılması

**I iş**

Yazın əvvəlləri idi kəndin qırağında bir pişik balaları ilə şırın-şırın oynayırdı onlar çox xoşbəxt idilər birdən böyük bir qaraquş ildırım kimi şığıyıb pişik balalarından birini caynağına aldı qaraquş havaya qalxmağa macal tapmamış pişik onun üstünə atıldı onların arasında ölüm-dirim savaşı başlandı. (41 söz)

**İşin qaydası.** Mətn yazı taxtasına yazılır. Müəllim hər cümlədən sonra azacıq fasilə verməklə mətni oxuyur.

**Tə'limat**

1. Mətni bir də oxu.
2. Mətndə neçə söz olduğunu rəqəmlə yaz.
3. Mətnə başlıq ver.
4. *kəndin, pişik, üstünə, xoşbəxt* sözlərini yaz və çətinlik çəkdiyin halın (orfoqram nəzərdə tutulur) altından xətt çək.

### Nitq hissələrini tapmaq bacarığının aşkara çıxarılması

**II iş** (imla)

OVÇU

Səttar ov iti ilə meşəyə getdi. Bu, sıx palıd meşəsidir. Burada sərin bulaqlar və çiçəkli talalar var. Səttar kiçik təpənin başında dayanıb. O tüfəngini ikiəlli qaldırıb,

diqqətlə ətrafına baxır. Səttarın iti də qulaqlarını şəkləyib, yaşıl talaya tərəf boylanır. (40 söz)

**İşin qaydası.** Müəllim əvvəlcə bütün mətni oxuyur, sonra onu cümlə-cümlə diktə edir. *Səttar, palıd, bulaqlar, tüfəngini, ikiəlli, diqqətlə, qulaqlarını* sözlərini orfoqrafiyaya uyğun (yazıldığı kimi) diktə edir.

Şagirdlər yazdıqlarını mətnlə yoxlayırlar. İkinci dəfə apardıqları yoxlamada düzəlişləri başqa rəngli qələmlə qeyd edirlər.

**Tə'limat**

1. Hər bir cümləni müəllim onu diktə etdikdən sonra yaz.
2. İmlanı düzgün yazıb-yazmadığını yoxla. Səhvləri səliqə ilə düzəltmək mümkündür (Düzgün düzəliş səhv hesab olunmur).
3. İndi bir də yoxla (Müəllim mətni yavaş-yavaş oxuyur).
4. Dördüncü cümlədə işi və onu görəni bildirən sözlərin altından xətt çək.
5. «Ov iti», «bulaq», «boylanır» sözlərinin hər birini hansı sözlərlə əvəz etmək olar?

## Söz birləşməsi tərtib etmək və nitq hissələrini praktik yolla müəyyənləşdirmək bacarığının aşkara çıxarılması

**III iş**

**Alma haqqında**

Böyüklüyü (necədir?)
Forması (necədir?)
Rəngi (necədir?)
Dadı (necədir?)

**İşin qaydası.** Yuxarıdakı material (suallar) və tə'limatın birinci maddəsi yazı taxtasında yazılır. Qalan tapşırıqlar şifahi verilir.

**Tə'limat**

1. Oxu. Mə'naca uyğun gələn sözü əlavə edərək söz birləşməsini yaz.
2. Əşyanın necəliyini bildirən sözlərin altından dalğalı xətt çək.
3. Əşyanın adını bildirən sözlərdə tanış gələn çətinliklərin (orfoqramların) altından xətt çək.
4. *Forması* sözünü sətirdən sətrə keçirmək üçün hissələrinə ayır.

**IV iş** (keçilmişlər üzrə imla)

Görəsən meşədə nağara çalan kimdir? O necə nağaraçıdır ki, gözə görünmür? Aha, tapmışam. Odur, palıd ağacından fıstıq ağacına üçan ağacdələndir. Caynağının əyri dırnaqları ilə ağacın gövdəsindən yapışıb. Dimdiyi ilə ağacı döyəcləyir. Zərərverici həşəratları tapıb yeyir. Bu qanadlı meşə həkimi yorulmur. (40 söz)

**İşin qaydası.** Müəllim əvvəlcə bütün mətni oxuyur, sonra onu cümlə-cümlə oxuyur. Aşağıdakı sözləri yazıldığı kimi (orfoqrafik) diqtə edir: nağara, tapmışam, palıd, ağacından, fıstıq, ağacına, caynağının, əyri, dırnaqları, gövdəsindən, yapışıb, dimdiyi, ağacı, döyəcləyir, zərərverici, həşəratları, tapıb, qanadlı.

Şagirdlər müstəqil yoxladıqdan sonra müəllimin orfoqrafik oxusu əsasında bir də yoxlayırlar. Düzəliş başqa rəngli qələmlə verilir.

**Tə'limat**

1. Hər bir cümlə müəllim tərəfindən oxunduqdan sonra yazılır.
2. Mətni düzgün yazıb-yazmadığını yoxla. Səhvi səliqə ilə düzəlt (Düzəliş səhv hesab olunmur).
3. Yazdığını bir daha yoxla (Müəllim mətni yavaş-yavaş oxuyur).
4. İki sözdən əmələ gələn sözləri seçib yazın.

5. Qohum sözlərin altından xətt çəkin.
6. *Həşəratları* sözündə çətin orfoqramın altından xətt çəkin.
7. *Zərərverici* sözünü hansı eynimə'nalı sözlə əvəz etmək olar?
8. Əşyanın adını bildirən sözlərin altından xətt çəkin.
9. Əşyanın necəliyini bildirən sözlərin altından dalğalı xətt çəkin.
10. Əşyanın hərəkətini bildirən sözlərin altından iki xətt çəkin.

**Yoxlam işinin təhlilinin sxemi**

_________məktəb _________sinif

| | |
|---|---|
| **Siyahı üzrə sinifdə**<br>**İmlanı yazıb** | ...şagird<br>...şagird |
| **Tapşırıq yerinə yetirilmişdir** | |
| Tapşırığı düzgün yerinə yetirmişdir.<br>Tapşırığı nöqsanlarla yerinə yetirmişdir.<br>Tapşırığı yarımçıq yerinə yetirmişdir. | ...şagird<br>...şagird<br>...şagird |
| **Səhvlərin təsnifi** | |
| **I iş** | |
| Bütün cümlələri ayırmamışdır.<br>Orfoqramların altından xətt çəkməmişdir.<br>Yoxlamaq üçün sözlər seçməmişdir.<br>Sözləri sətirdən sətrə keçirmək üçün ayırmamışdır. | ...şagird<br>...şagird<br>...şagird<br>...şagird |
| **II iş** | |
| Qohum sözləri tapmamışdır.<br>Leksik tapşırığı yerinə yetirməmişdir. | ...şagird<br>...şagird |
| **III iş** | |
| Əşyanın adını bildirən sözləri düzgün tapmamışdır.<br>Əşyanın necəliyini bildirən sözləri düzgün tapmamışdır.<br>Əşyanın hərəkətini bildirən sözləri düzgün tapmamışdır. | ...şagird<br>...şagird<br>...şagird |
| **İmlada buraxılmış səhvlər** | |
| Orfoqramlar və punktoqramlar | |
| 1. Hərflərin əvəzlənməsi.<br>2. Hərflərin buraxılması.<br>3. Hərflərin yerdəyişməsi.<br>4. Xüsusi isimlərin böyük hərflə başlanması.<br>5. Cümlənin tərtibi.<br>6. Sözlərdə qoşa samitlərin yazılışı.<br>7. Sözlərin sətirdən sətrə keçirilməsi.<br>8. Bağlayıcıların ayrı yazılması. | ...<br>...<br>...<br>...<br>...<br>...<br>...<br>... |

**İşin yerinə yetirilməsinin səviyyəsi**

**4-cü səviyyə.** Tapşırıqlar düzgün yerinə yetirilir. Bu səviyyəyə cavablar təfəkkürün yüksək dərəcədə inkişaf etdiyi, fikri proseslərin çevik olmasını, öz hərəkətlərinin şüurlu olmasını sübut edir.

**3-cü səviyyə.** Bu səviyyədə obyektə bir nöqtəyi-nəzərdən baxmaq və öz fəaliyyətini dərk etmək, deməli, təfəkkürdə böyük irəliliyiş qabiliyyəti meydana çıxır.

**2-ci səviyyə.** Şagird, ola bilər ki, təqdim olunmuş materialı təhlil etsin, lakin bütün sözlərin ümumi əlamətinə baxılmasını genişləndirmir və baş vermiş qruplaşdırmaya izahat vermir. Bu, seçilmiş əlamətin hələ dərk olunmamasını, hələ intuitiv yanaşmanın özünü göstərdiyinə dəlalət etmir. Şagird fikrinin gedişini dərk etmir.

**1-ci səviyyə.** Şagird işi yerinə yetirməyə girişmir, yaxud düzgün olmayan cəhd göstərir. Bu səviyyə göstərir ki, şagird hər hansı əlaməti seçə və sözə bu əlamətə görə baxa bilməz.

1-3 səviyyələri iki yarımqrupa ayrılır:

- tapılmış həlli şagird izah edə bilmir, bu özünün fikri fəaliyyətinin qeyri-dəqiq dərk olunmasına dəlalət edir;
- tapılmış həlli şagird izah edə bilər. Burada özünün fikri fəaliyyətinin aydın dərk olunması aşkara olunur, deməli, təfəkkür daha çox inkişaf etmişdir.

## III SİNİF

### Cümləni cümlə üzvlərinə və nitq hissələrinə görə təhlil etmə bacarığının aşkara çıxarılması

**I iş**

Körpə quzular, çəpişlər göy çəməndə qaçışır və mələşir, otlayırdılar.

**İşin qaydası.** Cümlə yazı taxtasına yazılır.

**Tə'limat**

1. Cümləri yaz və onu cümlə üzvləri və nitq hissələri üzrə təhlil et. Cümlə üzvlərinin altından xətt çək, nitq hissələrinin adlarını üstündə yaz.
2. Cümlələrdə söz birləşmələrini tap və onları alt-alta yaz: əvvəlcə mübtəda qrupunu, sonra xəbər qrupunu.
3. Nitq hissələrini qruplaşdır: əvvəlcə isimləri, sonra fe'lləri, daha sonra sifətləri.

***Qeyd.*** II variant üçün aşağıdakı cümlədən istifadə etmək olar.

Baharda incə novruzgülü, boynubükük bənövşə boylanır, dərələri bəzəyir.

**II iş**

Yayda qardaşımla meşəyə getdik. Meşədə palıd, vələs, fısdıq ağaclarını gördük. Talada göy, sarı, qırmızı çiçəklər bitmişdi. Biz qulancar, kəklikotu, dəvədabanı və başqa dərman bitkiləri yığırdıq. Kolun dalından dovşan çıxdı. İti görən kimi tullandı, qaçdı, kolluğa girdi. Boz dovşanın qulaqları uzun, qabaq ayaqlar gödək idi. (45 söz)

**İşin qaydası.** Mətn yazı taxtasına yazılır.

**Tə'limat**

1. Eyni suala cavab verən isimlərin olduğu cümlələri seçib yazın. Onların sualını yazın.
2. Eyni suala cavab verən sifətlərin olduğu cümləni seçib yazın. Onların sualını yazın.
3. Eyni suala cavab verən fe'llərin olduğu cümlələri seçib yazın. Onların sualını yazın.

### İsmin hallanmasının müəyyənləşdirilməsi və sözün tərkibinin təhlili

**III iş**

Külək əsdi və cökə ağacları elə bil dərindən nəfəs aldı. Milyon qızılı yarpaq havada uçuşdu. Yarpaqlar yaralı quş kimi ləngər vura-vura yerə endi. Külək bir də əsdi, qoca-cökədə tək-tək sarı yarpaqlar qaldı. Külək cökə ağacı ilə belə oynadı. O,

**3-cü səviyyə.** Bu səviyyədə obyektə bir nöqtəyi-nəzərdən baxmaq və öz fəaliyyətini dərk etmək, deməli, təfəkkürdə böyük irəliliyiş qabiliyyəti meydana çıxır.

**2-ci səviyyə.** Şagird, ola bilər ki, təqdim olunmuş materialı təhlil etsin, lakin bütün sözlərin ümumi əlamətinə baxılmasını genişləndirmir və baş vermiş qruplaşdırmaya izahat vermir. Bu, seçilmiş əlamətin hələ dərk olunmamasını, həllə intuitiv yanaşmanın özünü göstərdiyinə dəlalət etmir. Şagird fikrinin gedişini dərk etmir.

**1-ci səviyyə.** Şagird işi yerinə yetirməyə girişmir, yaxud düzgün olmayan cəhd göstərir. Bu səviyyə göstərir ki, şagird hər hansı əlaməti seçə və sözə bu əlamətə görə baxa bilməz.

1-3 səviyyələri iki yarımqrupa ayrılır:

- tapılmış həlli şagird izah edə bilmir, bu özünün fikri fəaliyyətinin qeyri-dəqiq dərk olunmasına dəlalət edir;
- tapılmış həlli şagird izah edə bilər. Burada özünün fikri fəaliyyətinin aydın dərk olunması aşkara olunur, deməli, təfəkkür daha çox inkişaf etmişdir.

## III SİNİF

### Cümləni cümlə üzvlərinə və nitq hissələrinə görə təhlil etmə bacarığının aşkara çıxarılması

**I iş**

Körpə quzular, çəpişlər göy çəməndə qaçışır və mələşir, otlayırdılar.

**İşin qaydası.** Cümlə yazı taxtasına yazılır.

**Tə'limat**

1. Cümləri yaz və onu cümlə üzvləri və nitq hissələri üzrə təhlil et. Cümlə üzvlərinin altından xətt çək, nitq hissələrinin adlarını üstündə yaz.
2. Cümlələrdə söz birləşmələrini tap və onları alt-alta yaz: əvvəlcə mübtəda qrupunu, sonra xəbər qrupunu.
3. Nitq hissələrini qruplaşdır: əvvəlcə isimləri, sonra fe'lləri, daha sonra sifətləri.

*Qeyd.* II variant üçün aşağıdakı cümlədən istifadə etmək olar.

Baharda incə novruzgülü, boynubükük bənövşə boylanır, dərələri bəzəyir.

**II iş**

Yayda qardaşımla meşəyə getdik. Meşədə palıd, vələs, fısdıq ağaclarını gördük. Talada göy, sarı, qırmızı çiçəklər bitmişdi. Biz qulancar, kəklikotu, dəvədabanı və başqa dərman bitkiləri yığırdıq. Kolun dalından dovşan çıxdı. İti görən kimi tullandı, qaçdı, kolluğa girdi. Boz dovşanın qulaqları uzun, qabaq ayaqlar gödək idi. (45 söz)

**İşin qaydası.** Mətn yazı taxtasına yazılır.

**Tə'limat**

1. Eyni suala cavab verən isimlərin olduğu cümləlıəri seçib yazın. Onların sualını yazın.
2. Eyni suala cavab verən sifətlərin olduğu cümləni seçib yazın. Onların sualını yazın.
3. Eyni suala cavab verən fe'llərin olduğu cümlələri seçib yazın. Onların sualını yazın.

### İsmin hallanmasının müəyyənləşdirilməsi və sözün tərkibinin təhlili

**III iş**

Külək əsdi və cökə ağacları elə bil dərindən nəfəs aldı. Milyon qızılı yarpaq havada uçuşdu. Yarpaqlar yaralı quş kimi ləngər vura-vura yerə endi. Külək bir də əsdi, qoca-cökədə tək-tək sarı yarpaqlar qaldı. Külək cökə ağacı ilə belə oynadı. O,

buludlara çatdı. Külək əsdi və buludlar dağılışdı. Onlar yağışa dönüb aşağı endi. (54 söz)

İşin qaydası. Mətn əvvəlcədən yazı taxtasına yazılır. İlk dəfə müəllim oxuyur. Sonra şagirdlə müstəqil oxuyurlar. Sonra şagirdlər tapşırığın yazılı hissəsini yerinə yetirməyə keçirlər.

**Təlimat**

1. Oxu. Mətndən təki bildirən sözləri seçib köçürün.
2. Aşağıdakı sözləri kök və şəkilçiyə ayrıb yazın: *əsdi, havada, yarpaqlar, yaralı, cökədə, buludlar, yağışa.*

**IV iş (imla)**

Tezliklə qızmar yay gələcək. Yayda şəhərdə yaşamaq çətindir. Adamlar köçüb sərin yaylaqlara gndəcəklər.

Məktəblilər də istirahətə gedəcəklər. Mən ailəmizlə Sabirabada gedəcəyəm. Babamgil orada yaşayırlar. Evləri Kürlə Arazın qovuşduğu yerə yaxındır. Həmin yerə Suqovuşan deyirlər. Böyük qardaşım mənə üzməyi öyrədib. Biz orada çiməcək, balıq tutacağıq. Biz istirahətdən qayıdanda məktəbə quruludmuş ağac yarpaqları, çiçəklər, cücülər və cürbəcür daşlar gətirəcəyik. (60 söz)

**İşin qaydası.** Müəllim mətni oxuyur, sonra onu cümlələrlə diktə edir. Aşağıdakı sözlər yazı taxtasında yazılır.

yaylaqlara, istirahət, ailəmizlə, Sabirabada, babamgil, Suqovuşan, üzməyi, balıq, yarpaqları, cürbəcür.

İmlanın mətnini yazdıqdan sonra şagirdlər müstəqil yoxlayır və düzəliş aparırlar. Sonra müəllim yenə mətni yavaş-yavaş oxuyur. O, sözlərin çoxunu yazıldığı kimi (orfoqrafik) tələffüz edir.

Şagirdlər düzəlişi başqa rəngli qələmlə aparırlar.

**Tə'limat**

1. Sözün kökündəki orfoqramın altından xətt çəkin: qızmar, istirahət, ailəmizlə, Sabirabada.
2. Dördüncü və axırıncı cümlələrdə cəmi bildirən sözləri seçib yazın.
3. Birinci və üçüncü cümlələrdə bir-birinə əksmə'nalı sözlərin (antonimlərin) altından xətt çəkin.
4. Axırıncı cümlədə sadalanan sözlər hansı suala cavab olur?

## Yoxlama işinin təhlili sxemi

_______sinif ________ məktəb

| | |
|---|---|
| Siyahı üzrə sinifdə<br>İşi yazmışdır | ...şagird<br>...şagird |
| **Tapşırığın yerinə yetirilməsi** | |
| 1. Tapşırığı düzgün yerinə yetirmişdir.<br>2. Tapşırığı səhvlə yerinə yetirmişdir.<br>3. Tapşırığı yarımçıq yerinə yetirmişdir. | ...şagird<br>...şagird<br>...şagid |
| **Səhvlərin təsnifi**<br>**1-ci iş**<br>Bütün cümlə üzvlərinin altından xətt çəkməmişlər.<br>Bütün nitq hissələrinin üstündən adını yazmamışlar. | <br><br>...şagird<br>...şagird |

| | |
|---|---|
| **2-ci iş** | ...şagird |
| Eynicinsli üzvü olan bir cümlə köçürmüşlər. | ...şagird |
| Bütün eyni cinsli xəbərin altından xətt çəkməmişlər. | ...şagird |
| Eynicinsli sifətləri seçib yazmamışlar. | ...şagird |
| Fe'lin zamanını yazmamışlar. | |
| **3-cü iş** | ...şagird |
| Təki bildirən bütün sözləri seçməmişlər. | ...şagird |
| Sözlərin az qismini kök və şəkilçiyə ayırmışlar. | ...şagird |
| Sözlərin bir qismini kök və şəkilçiyə səhv ayırmışlar. | |
| **4-cü iş** | ...şagird |
| Sözlərdə çətin orfoqramın altından xətt çəkməmişlər. | ...şagird |
| Cəmi bildirən sözlərin bir qisimni seçmişlər. | ...şagird |
| Əksmə'nalı sözləri tapa bilməmişlər. | ...şagird |
| Sadalanan sözlərin hansı suala cavab verdiyini bilməmişlər. | |
| **4-cü iş (imla)** | ...şagird |
| Səhvsiz yerinə yetirmişlər. | ...şagird |
| 1-2 səhvlə yerinə yetirmişlər. | ...şagird |
| 3-5 səhvlə yerinə yetirmişlər. | |

**İmlada buraxılmış səhvlər**

| | |
|---|---|
| 1. Sözün kökündəki orfoqramı düz yazmamışlar. | ...şagird |
| 2. Cəmi bildirən sözləri düz yazmamışlar. | ...şagird |
| 3. Əksmə'nalı sözləri düz göstərməmişlər. | ...şagird |
| 4. Sadalanan sözlərin sualını düz göstərməmişlər. | ...şagird |
| 5. Tələffüz olunmayan sözlərdə səhvə yol vermişlər (səs | ...şagird |
| düzümü). | ...şagird |
| 6. *Q* və *k* hərflərinin yazılışında səhvə yol vermişlər. | ...şagird |
| 7. Mürəkkəb sözləri düz yazmamışlar. | ...şagird |
| 8. Babamgil sözündə *gil* hissəsini ayrı yazmışlar. | ...şagird |
| 9. Söz sonunda cingiltili samitlər karlaşmışdır. | ...şagird |
| 10. Sətirdən sətrə keçirmədə səhvə yol vermişlər. | ...şagird |
| 11. Hərfburaxma hallarına yol vermişlər. | ...şagird |
| 12. Hərfartırma hallarına yol vermişlər. | ...şagird |
| 13. Hərflərin əvəzlənməsi (yerdəyişmə) hallarına yol vermişlər. | ...şagird |
| 14. Durğu işarəsi səhvlərinə yol vermişlər. | ...şagird |
| 15. Başqa səhvlərə yol vermişlər. | |

**İsmin əvvəlcə suallara, sonra canlı və cansız olmasına görə qruplaşdırılması**

**V iş**

Hind okeanındakı adalardan birinə son illərədək insan ayağı dəyməmişdi. Səyyahlar gördülər ki, adanın hər yeri yuvalarla doludur. Onlar yalnız gecələr yuvalarından çıxıb sahilə gəlir, dayaz yerlərdə üzən balıqları tutub yeyirlər.

Adanın qonağı olmuş səyyahlar təəccüblənmişlər. Görəsən bu qədər pişiyi insan yaşamayan adaya kim buraxmışdır? Bu sirr indiyə qədər açılmamışdır. Bəlkə də pişiklərin əcdadları həmin adanın yaxınlığında fəlakətə uğramış gəmidən gəlib çıxmışdır. (65 söz)

**İşin qaydası.** Mətn yazı taxtasına yazılır. İlk dəfə müəllim oxuyur.

**Tə'limat**

1. Mətni bir daha oxu.

2. Cümlədə tək (ismin dəyişməsini bildirən sualları və altında müvafiq sözləri (bir sözün hallanmasını) yaz.

**Qeyd.** İsmin qruplaşdırılması nəticəsində belə yazı alınır. Bu, yazı taxtasına yazılıb üstü örtülür.

| nə? | nəyin? | nəyə? | nəyi? | nədə? | nədən? |
|---|---|---|---|---|---|
| günəş | maralın | bənövşəyə | balığı | qazda | kitabdan |
| ceyran | qatarın | dələyə | ağacı | dildə | inəkdən |
| qələm | quşun | kəpənəyə | arını | stulda | tərəvəzdən |
| pələng | kələmin | qoza | çiçəyi | fildə | otdan |

Yazının üstü açılır.

3. Yoxla, gör sözlər düzmü yazılıb? Düzəlişi başqa rəngli qələmlə apar.

4. Əgər düz yazmısansa, fikirləş sözləri daha necə qruplaşdırmaq olar?

5. Sözləri oxşarlığına görə qruplaşdırıb iki sütunda yaz.

***Qeyd.*** İsimləri əlamətlərinə görə iki qrupa ayıranda aşağıdakı iki qrup alınmalıdır:

| | |
|---|---|
| ceyran | günəş |
| pələng | qələm |
| maralın | qatarın |
| quşun | kələmin |
| dələyə | bənövşəyə |
| kəpənəyə | qoza |
| balığı | ağacı |
| arını | çiçəyi |
| qazda | dildə |
| fildə | stulda |
| inəkdən | kitabdan |
| | tərəvəzdən |
| | otdan |

## İşin yerinə yetirilmə səviyyəsi

**4-cü səviyyə.** Tapşırığın birinci hissəsində isimlər altı qrupa ayrılır, ikinci hissəsində isə iki qrup tapılır: a)qruplaşdırma izahatla gedir; b)qruplaşdırma izahatsız gedir. Ümumiyyətlə, bu səviyyəyə cavab, xüsusilə 4 a səviyyəsinə cavab şagirdlərin təqdim olunmuş materiala müxtəlif nöqtəyi-nəzərdən baxa bilmək qabiliyyətlərini inkişaf etdiyini, fikri proseslərinin müstəqilliyini və çevikliyini göstərir. 4 b səviyyəsinə cavablar qruplaşdırmanın yerinə yetirilmə şərtinin tərtib olunmasına aydın nəzarətin kifayət qədər olmadığını göstərir.

**3-cü səviyyə.** İsimlərin beş qrupa düzgün ayrılması tapşırığın şərtinin başa düşüldüyünü, təqdim olunmuş sözlərə bir aspektdə cismin təkinin dəyişməsi ismin hallarına görə baxılması əhatə olunur. Şagird ismin digər xassəsini tapmaq, sözü təhlil edərkən digər aspektə qoşulmaq (ismin canlı, cansız olması, bu bölgüdə onların qrammatik sualdan, ismin hallarından asılı olmaması) iqtidarında deyil.

**2-ci səviyyə.** Beş mümkün haldan bir və ya bir neçə qrup düzgür. Bu səviyyədə şagirdin obyektə bir nöqtəyi nəzərdən baxmaq qabiliyyəti özünü göstərir, lakin

şagird bütün isimlərdən istifadə edə bilmir, təsnifat tam həcmdə baş vermir, şagirdlərin sözə başqa əlamət üzrə baxmaq imkanları olmur.

**1-ci səviyyə.** Şagird tapşırığın yerinə yetirilməsinə girişmir, yaxud qeyri-müəyyən cəhədlər göstərir. Bu səviyyə göstərir ki, şərtə uyğun olaraq bir sıra obyektə, bir nöqtəyi nəzərdən baxmaq əməliyyatı formalaşmayıb.

## IV SİNİF

Sadə və həmcins üzvlü cümlələrin fərqləndirilməsi sifətin şəkilçilərinin düzgün yazılması vərdişinin aşkara çıxarılması

**I iş**

Yayda dostum səməd, Nəbi və qardaşımla meşəyə getdik. Güclü yağış, daşqın körpünü uçurmuş, dərin yarğan əmələ gətirmişdi. Hava tutqun idi. Çiçəkli tarladakı uçuq daxmanın yanından keçib meşəyə girdik. Səssiz bir güşədə sərin sulu bulağın əyləşib nəfəsimizi dərdik. Biz getmək istəyəndə meşəbəyi gəldi. O, ağıllı və bilikli adam idi. İtkin düşmüş ceyran balasını axtarırdı. Meşəbəyi bizə ağacdakı yuvaları, kəsik ağacları, yanmış kolları göstərdi. Təbiəti qorumağı. Cansız təbiətin gözəlliyi, canlıların həyat uğrunda mübarizəsi bizi valeh etdi. Qanadlı dostlarımızın şən nəğmələrini eşitmək xoş idi. (79 söz)

**İşin qaydası.** Mətni müəllim diktə edir, şagirdlər yazırlar. Ola bilər ki, yazı taxtasında aşağıdakı sözlər yazılsın və çətin orfoqramların altından xətt çəkilsin.

dostum, daşqın, yarğan, tutqun, guşədə, meşəbəyi, itkin, mübarizəsi, qanadlı.

**Tə'limat**

1. Hər bir cümlənin birinci sözünün üstündə onün necə cümlə olduğunu yaz: S. (sadə), h. ü. (həmcins üyzvlü).
2. Sifətlərin şəkilçilərinin altından xətt çək.
3. *Tutqun, ağacdakı, qanadlı* sözlərini tərkibinə görə təhlil et.

### Sifətlərin, fe'lin keçmiş zamanının və məsdərlərin şəkilçilərinin düzgün yazılması vərdişlərinin aşkara çıxarılması

***Qeyd.*** Bu məqsədlə yeni mətn vermək mümkündür, lakin əvvəlki mətndə bunlar əhatə olunduğundan ondan istifadə etmək mümkündü.

**İşin qaydası.** Mətn əvvəlcədən yazı taxtasına yazılıb üstü örtülür. Mətndə sifət fe'l və məsdərlərin şəkilçiləri buraxılır, əvəzində üç nöqtə qoyulur: yaz..., ağac..., get..., dincəl..., qoru..., eşit (yarğan, ağacdakı, getdik, dincəldik, qorumaq, eşitmək).

Müəllim mətnin üstünü açır, onu tam oxuyur. Şagirdlər nöqtələrin yerinə şəkilçiləri əlavə etməklə yazırlar.

**Tə'limat**

1. Sifətin şəkilçilərini ayır.
2. Sözdə *-maq, -mək* şəkilçilərinin yazılışı ilə əlaqədar sual ver.
3. Beşinci cümlədə məcari mə'nada işlənmiş ifadənin altından xətt çək.
4. Axırıncı cümlədəki obrazlı ifadənin altından xətt çək.

### Fe'lin zamana və şəxsə görə dəyişməsi vərdişinin aşkara çıxarılması

**III iş**

*Yaratmaq, düşünmək, qorumaq, bələmək, yetişdirmək, yazmaq, oxumaq, görmək, qurmaq, gülmək*

**İşin qaydası.** Sözlər yazı taxtasına yazılır.

**Tə'limat**

Sözləri əvvəlcə indiki və gələcək zamanın təkində, sonra isə cəmində işlət.

**IV iş (imla)**

Qaranquşlar alçaqdan uçurlarsa, yağış olacaq. Cücələr analarına qısılırlarsa, havanın nəmiş olacağı gözlənir. Sərçələr tozda eşələnirlərsə, yağış yağacaq. Qarğalar qıldayırlarsa, yazda, yayda və payızda yağış, qışda qar yağacaq. Pişiklər peçin yanına qaçırlarsa, soyuq, itlər yerdə sürünürlərsə, yağış gözlənir. Qoyunların baş-başa verib dayanmaları küləyin olacağını bildirir. At kişnəyir, başını silkələyir və tez-tez yuxarı baxırsa, deməli hava tutqun olacaq. Hörümçək torun ortasında dayanıb tərpənmirsə, yağış yağacaq.

Gecə yarısı cırcıramaların cırıldaması havanın isti olacağını bildirir. Yağışdan əvvəl akasiya ağacına çoxlu arı toplanır. (80 söz)

**İşin qaydası.** Müəllim bütün mətni oxuyur. O, şagirdlərin diqqətini hər bir söz üzərində yaxşı düşünməyin, orfoqramları və durğu işarələrini yadda saxlamağın zəruriliyinə yönəldir.

Yazı taxtasına aşağıdakı sözləri yazmaq məsləhət görülür: qaranquşlar, alçaqdan, pişiklər, qoyunlar, kişnəyir, hörümçək, yarısı, isti, əvvəl, akasiya, ağacına.

Müəllim mətni cümlələrlə, sinfə müvafiq sür'ətlə oxuyur.

Şagirdlər yazılarını müstəqil yoxlayır və düzəliş aparırlar. Düzgün düzəlişlər səhv hesab olunmur.

**Tə'limat**

1. Axırıncı cümləni cümlə üzvlərinə görə təhlil et.
2. *Uçur* sözünü zamana və şəxsə görə dəyiş.
3. *Küləkli* və *küləyin* sözlərini tərkibinə görə təhlil et.

**Yoxlama işinin təhlili sxemi**

_______ sinif ______ məktəb

| | |
|---|---|
| Siyahı üzrə sinifdə | ...şagird |
| İşi yazmışdır | ...şagird |
| **Tapşırığın yerinə yetirilməsi** | |
| Tapşırığı düzgün yerinə yetirmişlər. | ...şagird |
| Tapşırığı səhvlərlə yerinə yetirmişlər. | ...şagird |
| Tapşırığı yarımçıq yerinə yetirmişlər. | ...şagird |
| **Səhvlərin təsnifi** | |
| **I və II işi** | |
| Sifətin bütün şəkilçilərini ayırmamışlar. | ...şagird |
| Sifətin sualını yazmamışlar. | ...şagird |
| Eynicinsli üzvlərin olduğu cümlələri ayırmamışlar. | ...şagird |
| Sözü tərkibinə görə təhlil etməişlər. | ...şagird |
| **III iş** | |
| Bütün fe'lləri indiki zamanın təkində işlətməmişlər. | ...şagird |
| Bütün fe'lləri indiki zamanın cəmində işlətməmişlər. | ...şagird |
| Bütün fe'lləri gələcək zamanın təkində iştəlməmişlər. | ...şagird |
| Bütün fe'lləri gələcək zamanın cəmində işlətməmişlər. | ...şagird |
| Fe'llərin bə'zilərini indiki zamanın təkində səhv işlətmişlər. | ...şagird |
| Fe'llərin bə'zilərini indiki zamanın cəmində səhv işlətmişlər. | ...şagird |
| Fe'lləri gələcək zamanın təkində səhv işlətmişlər. | ...şagird |

| | |
|---|---|
| Fe'lləri gələcək zamanın cəmində səhv işlətmişlər. | ...şagird |
| Tapşırığı yerinə yetirməyə cəhd göstərmişlər. | ...şagird |
| Tapşırığı yerinə yetirməmişlər. | ...şagird |
| **IV iş** | |
| Səhvsiz yerinə yetirmişlər. | ...şagird |
| 1-2 səhvlə yerinə yetirmişlər. | ...şagird |
| 3-5 səhvlə yerinə yetirmişlər. | ...şagird |

**İmlada buraxılmış səhvlər**

| Orfoqramlar və punktoqramlar | Səhvlərin sayı |
|---|---|
| 1. Söz kökündə cingiltili samitlərin yazılışında. | ... |
| 2.Sözün axırında cingiltili samitlərin yazılışında | ... |
| 3. Söz kökündə kar samitin yazılışı. | ... |
| 4. Sözün axırında kar samitin yazılışı. | ... |
| 5. İsmilərin hal şəkilçilərinin yazılışı. | ... |
| 6. Sifətlərin şəkilçilərinin yazılışı. | ... |
| 7. Fe'llərin zaman şəkilçilərinin yazılışı. | ... |
| 8. Məsdər şəkilçilərinin yazılışı. | ... |
| 9. Hərfartımı. | ... |
| 10. Hərfdüşümü. | ... |
| 11. Hərflərin əvəzlənməsi, yerdəyişməsi. | ... |
| 12. Sözlərin sətirdən sətrə keçirilməsi. | ... |
| 13. Durğu işarəsi səhvləri. | ... |
| 14. Başqa səhvlər. | ... |

**Tapşırığın yerinə yetirilməsi**

| | |
|---|---|
| 1. Tapşırığı düzgün yerinə yetirmişlər. | ...şagird |
| 2. Tapşırığı səhvlərlə yerinə yetirmişlər. | ...şagird |
| 3. Tapşırığı tam yerinə yetirməmişlər. | ...şagird |
| 4. Tapşırığı yerinə yetirməmişlər. | ...şagird |
| **Tapşırıq 1** | |
| Cümlənin baş üzvlərinin altından xətt çəkməmişlər. | ...şagird |
| **Tapşırıq 2** | |
| *Uçur* sözünü zamana və şəxsə görə dəyişməmişlər. | ...şagird |
| **Tapşırıq 3** | |
| *Küləkli, küləyin* sözlərinin təhlilində səhvə yol vermişlər | ...şagird |

## Müstəqil nəticə çıxarmaq və ümumiləşdirmə aparmaq qabiliyyətinin aşkara çıxarılması

**V iş**

Yamyaşıl bəzənir düzlər, yamaclar,
Köçəri quş olur qəm də, kədər də.

*Nəbi Xəzri*

**İşin qaydası.** Tapşırıq öyrənilmiş nitq hissələrinə müxtəlif nöqteyi-nəzərdən baxılmasını (dəyişən, dəyişməyən olması) və bu əlamətlərə görə sözlərin təsnifini tələb edir.

Müəllim yazı taxtasına yazır:

Atam dedi ki, Əzizə ilə Sevdanı da gözəl Göy gölə aparacaq.

**Tə'limat**

1. Cümləni dəftərə köçür. Gözəl sözünü hansı sözlə əvəz etmək olar. Həmin sözü yaz.

2. Şe'r parçasındakı və cümlədəki hər bir nitq hissəsinin adını həmin ardıcıllıqla yaz.

3. Yalnız başlanğıc formasına keçirilməsi, yaxud dəyişdirilməsi mümkün olan sözləri yaz.

4. Dəyişdirilməsi mümkün olmayan sözləri yaz.

5. Yuxarıdakı 3-cü və 4-cü bəndlərə əsasən nitq hissələrini ayrı-ayrı sütunlarda yaz.

| | | |
|---|---|---|
| yamyaşıl | Qəm | |
| bəzənir | Kədər | da |
| düzlər | Atam | də |
| yamaclar | Dedi | ki |
| köçəri | Məni | ilə |
| olur | Gözəl | |
| quş | Göy gölə | |
| | aparacaq | |

6. Nəticə çıxar: sənə tanış olan nitq hissələri hansı iki qrupa ayrılır? Hər bir qrupun üstündə (sütunların üstündə) onların ümumi əlamətlərini bildirən sözü yazın.

7. Hansı qrupa nitq hissəsinin adını qeyd edə bilərsən. Onları yaz.

**Qeyd.** Nəticədə nitq hissələrinin dəyişilməsinə və dəyişilməməsinə görə qruplaşdırılması şagirdlərin işində belə bir mənzərə təşkil edər:

| **Dəyişənlər** | **Dəyişməyənlər** |
|---|---|
| isim (is) | bağlayıcı (bağ) |
| əvəzlik (ə) | |
| sifət (sif) | |
| fe'l (f) | |

**Qeyd.** Terminlər keçilmədiyindən müəllim şagirdlərin diqqətini yalnız cümlədəki *ki, ilə, də* bağlayıcılarına yönəldir.

## Yerinə yetirilmiş işin səviyyələri

**4-cü səviyyə.** İki qrup nitq hissəsi əlamətlərinə (dəyişənlər, dəyişməyənlər) ayrılır, qruplar üzrə nitq hissələrinin adları yazılır. Həmin səviyyədə olan cavablar həmin tapşırığın şərtində təfəkkürün yüksək ümumiləşdirmə qabiliyyətinin olduğunu xəbər verir.

**3-cü səviyyə.** Öyrənilmiş nitq hissələrindən 1-2-ni buraxılması yaxud onun yerinə bu və ya digər nitq hissəsinə aid konkret sözün adı verilir. Baxmayaraq ki, cavab natamam, yaxud konkret xarakter daşıyır, ünsiyyətin başlanmasından söz açmaq olar.

**2-ci səviyyə.** Öyrənilmiş nitq hissələrini qrupa aid edərkən onların qarışdırıldığı müşahidə edilir. Belə hallarda şagird nitq hissələrini dumanlı dərk edir. Onların dəyişikliyə mə'ruz qaldığını bilmir, onları bu əlamətlərinə görə ümumiləşdirmir.

**1-ci səviyyə.** Cavab verilmir. Şagird nitq hissələri haqqında biliklərini dəyişənlər dəyişməyənlər nöqtəyi-nəzərdən ümumi əlamət altına gətirmək halında olmur. Başqa sözlə həmin halda təfəkkürün ümumiləşdirici fəaliyyəti olmur.

## NÜFUZ İŞ PROSESİNDƏ QAZANILIR



İbtidai siniflər təhsil sisteminin elə bir mərhələsidir ki, daim qayğı və kömək tələb edir. Bu, təhsilin həmin mərhələsinin çoxcəhətli, mürəkkəb olması ilə bağlıdır. Təhsilin bünövrəsini təşkil edən ibtidai siniflərə rəhbərlik etmək, ona düşünülmüş, elmi-metodik cəhətdən ölçülüb-biçilmiş göstəriş vermək üçün hərtərəfli hazırlığa, təbiət elmləri üzrə geniş mə'lumata, pedaqogika, psixologiya, metodika, fiziologiya, gigiyena sahəsində mükəmməl biliklərə, üstəlik kalliqrafik cəhətdən gözəl xəttə, müəyyən alətdə çalmaq, oxumaq, rəsm etmək, kağız, karton, taxta və parçadan müxtəlif fiqurlar hazırlamaq və s. kimi bacarıqlara yiyələnmək tələb olunur.

Bir sözlə, ibtidai sinif müəllimləri ordusu ilə işləmək, onları məqsədyönlü şəkildə irəli aparmaq üçün əsl metodist olmaq lazımdır.

Xaçmaz Rayon Təhsil Şö'bəsinin əməkdaşı Sələmərc Teymurov məhz belə metodistlərdəndir.

S.Teymurov 1969-cu ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun ibtidai təhsil pedaqogikası və metodikası fakültəsini bitirmişdir. Bir neçə il rayonun Qıraqlı kəndində və şəhər 3 nömrəli orta məktəbində işləmiş özünü bacarıqlı sinif müəllimi kimi tanıtmışdır. Məhz bunun nəticəsidir ki, o, rayon maarif şö'bəsinin diqqətini cəlb etmiş və 1973-cü ildə aparatda işə də'vət olunmuşdur. Həmin vəzifədə işlədiyi 30 il ərzində Sələmərc Teymurov sinif müəllimlərinin dərin hörmətini qazanmışdır. Hər şeydən əvvəl, yüksək insani keyfiyyətlərinə-həlim xarakterli, təmkinli, gülərüz, mə'nəvi cəhətdən təmiz, xeyirxah, təmənnasız, təvazökar olmasına görə. Nəzəri və metodik hazırlığı bu mə'nəvi keyfiyyətlərlə uzlaşdığından o, əsl metodist kimi şöhrət tapa bilmişdir.

Sələmərc müəllim metodist kimi fəaliyyətə başladığı gündən müəllimlərin nə ilə nəfəs almalarını öyrənməyə girişdi. Müxtəlif məktəblərdə hər bir müəllimin dərslərini dinləməklə kimin nəyə qadir olduğunu, rayonda qabaqcıl təcrübənin hansı rüşeymlərinin mövcudluğunu, nə kimi nöqsanların kök saldığını öyrəndi. Qabaqcıl təcrübənin öyrənilib yayılması, çatışmazlıqların aradan qaldırılması sahəsində görəcəyi işləri planlaşdırdı.

S.Teymurov sinif müəllimlərinin öz peşəkarlıq səviyyələri, pedaqoji-metodik ədəbiyyatı oxumaları, elmi mübahisələrə girişmələri üzərində xüsusilə dayandı.

O, tez-tez müəllimlərin açıq dərslərini təşkil edir, onlar üçün müxtəlif mövzularda seminarlar keçirir. Rayonda aylıq seminarların təşkili artıq ən'ənə şəklini almış, hər il bir mövzu ətrafında elmi-praktik konfrans keçirilir. Bu canlanma, inkişaf özünü aydın şəkildə büruzə verir. Qabaqcıl iş təcrübəsi öyrənilib yayılır. Ə.Abdullayev (Xaçmaz şəhər 1 nömrəli məktəb), A.Dadaşov (Qaraçaycek kəndi), M.Babayev (Hacıməmmədova kəndi), Z.Səfərəliyeva (Bayova kəndi), G.Ağabalayev (Xudat şəhər 4 nömrəli məktəb), O.Məmmədkərimova, P.Rəmiyeva (Xudat şəhər 3 nömrəli məktəb), F.Əhmədova, R.Aslanova (Xaçmaz şəhər 4 nömrəli məktəb), S.Mirzəməmmədova (Xaçmaz şəhər 2 nömrəli məktəb), G.Xankişiyeva (Çarxı kənd məktəbi), N.Davudova (Xaçmaz şəhər 6 nömrəli məktəb) və başqalarının qabaqcıl iş təcrübəsi rayon miqyasında, Yergüc kənd orta məktəbinin müəllimi F.Xəlilovun iş təcrübəsi isə respublika miqyasında yayılmışdır.

Xaçmaz şəhər 1 nömrəli orta məktəbin müəllimi Ə.Abdullayev ilin ən yaxşı müəllimi müsabiqəsinin, Xudat şəhər 2 nömrəli məktəbin müəllimi N.Kərimova respublika pedaqoji mühazirələrinin qalibi olmuşdur.

Ə.Abdullayev, G.Ağabalayev və Z.Səfərəliyevanın adları «Azərbaycanın tanınmış maarifçiləri» adlı ensiklopedik kitaba daxil edilmişdir.

Müəllimlərə, xüsusilə gənc müəllimlərə metodik kömək S.Teymurovun işinin canını təşkil edir. Hər gün onlarla müəllim fərdi məsləhət almaq üçün onun yanına gəlir.

S.Teymurov daim yenilikləri izləyir, araşdırmalar aparır, geniş mütaliə ilə məşğul olur, öyrəndiklərini müəllimlərə çatdırmağa çalışır. Məktəb islahatının müvəffəqiyyətlə keçirilməsinə kömək etmək onun amalıdır.

«Təhsil sistemində müasir yanaşmaların təşəkkülü ili» adlanan bu dərs ilində S.Teymurov daha da fəallaşıb. O, müəllim, metodist kimi yalnız praktik məsələlərlə deyil, həm də bacarıqlı elmi-tədqiqatçı kimi də fəaliyyət göstərir. Bu işdə ona uğurlar arzulayırıq.

**İlqar İsgəndərov,**
redaksiyanın əməkdaşı

* * *

## NOVRUZUM

***Oqtay Zəngilanlı***

Novruz bütün bayramların gözəli,
Çox qədimdir bu bayramın əzəli.
Xoş günlərlə biz yaşayaq yüz ili,
Unutdursun dərdi-qəmi Novruzum.
Deyəm gərək birincidir bu bayram,
Saf duyğudur, dürr incidir bu bayram,
El-obanın sevincidir bu bayram,
Unutdursun dərdi-qəmi Novruzum.
Bəzəsin hər yeri yaşıl səməni
Gətirsin evlərə çölü, çəməni
Bahar qızı öpsün Vətən sevəni.
Unutdursun dərdi-qəmi Novruzum.
Novruz silsin ürəklərdən kədəri,
Qara günlər bir də dönməsin geri.
Sevinc, şənlik qoy bürüsün hər yeri,
Unutdursun dərdi-qəmi Novruzum.
Tonqallardan çölə yayılsın işıq,
Kosalara geyim versin yaraşıq.
Küsülülər eyləsinlər barışıq,
Unutdursun dərdi-qəmi Novruzum.
Novruz gəlsin, yuyulsun günahımız,
Novruz dünən, bu gün həm sabahımız,
Novruz günün pay verib Allahımız,
Unutdursun dərdi-qəmi Novruzum.

## ƏLİFBA

***Nəriman Hüseyn***

İlk kitab, ilk dərsliyəm,
Məni sevir uşaqlar.
Bayramlar sırasında
Mənim də öz yerim var.

Otuz iki səsimlə
Hər elmin açarıyam.
Sirlər xəzinəsinin
Dövlətiyəm, varıyam.

Mənsiz yazıla bilməz
Nə əfsanə, nə dastan.
Hələ körpə yaşından
Hər insanın dostuyam

İlk addımı həyatda
Mənimlə atır hər kəs.
Mənimlə dost olmayan
Yazıb-oxuya bilməz.

## QÖNÇƏYƏM AÇMAMIŞAM



Orxan Həsənli İlyas Əfəndiyev adına Elitar Gimnaziyanın IV sinif şagirdidir. Müvəffəqiyyətlə təhsil alan bu oğlanın yaradıcılıq uğurları da sevindiricidir. Bədii ədəbiyyat sahəsində ilk kövrək addımlarını atan Orxan ümidverici iste'daddır. Onun ilk şe'rləri hələlik 15 səhifəlik bir kitabçada toplanmışdır. İnanırıq ki, illər keçəcək, Orxan gənc bir şair kimi öz sözünü deyəcəkdir.

Aşağıda Orxanın şe'rlərindən bir neçəsini oxuculara təqdim edirik.

Qönçəyəm, açmamışam,
Ətrimi saçmamışam.
Dünya məndən ycadır,
Mən ona çatmamışam.

### ÇÖRƏK DƏ GÜNƏŞDİR

Günəş işıq saçmasa,
Verməsə istisini,
Taxıl bitməz tarlada,
Torpaq olar buz kimi.

Günəşin parçasıdır
Dadlı, ləzzətli çörək.
Elə çörək vərəni
Biz alşıqlayaq gərək.

### NƏRMİN

*Şe'r bacım qızı Nərminə həsr olunmuşdur.*

Qoca Vaqif dədəmiz
Gətirdi evə cocuq.
Sifəti bap-balaca,
Gözləri qara muncuq.

Burnu fındıq kimi,
Dodaqları püstədir.
Gülümsəyir gözləri,
Qulaqları səsdədir.

Nərmin şirin-şəkərdir,
Adam yemək istəyir.
Gülümsəyən gözləri
Elə bil gəl-gəl deyir.

### NOVRUZ BAYRAMI

Novruz bayramı gələr,
Sevinərlər uşaqlar.
Nərgiz, bənövşə gələr,
Gülümsəyər ilk bahar.

Yanar hər bir həyətdə
İşıq saçan tonqallar.
Tonqalların üstündən
Tullanarlar uşaqlar.

## AYSELİN DUYĞULARI



Aysel Mədədlinin 10 yaşı var. O, Bakıdakı 20 nömrəli məktəb-liseyin IV sinif şagirdidir. Dərs ə'laçısıdır, sinif nümayəndəsidir. Keçən ildən şe'r yazan Ayselin 70-dən çox şe'ri var. Şe'rlərin əksəriyyəti qəzetlərdə çap olunub, televiziya və radio verilişlərində səslənib. O, həm də Az.TV-nin «Sehirli güzgü» verilişinin aparıcısı kimi tanınır.

### MƏN AZƏRBAYCANLIYAM

Azərbaycan adlanan
Ölkənin övladıyam.
Doğma ata yurduma
Torpağıma bağlıyam,
Mən azərbaycanlıyam.

Yad, yabançı sözlərdən
Dilimi qoruyuram.
Onun təmizliyinin
Keşiyində dururam.
Doğma ana dilimə
Lap ürəkdən bağlıyam,
Mən azərbaycanlıyam.

### GÜNƏŞ

Çıxdı günəş
Yatağından,
Baxdı bizə
Otağından.

Gülə-gülə
İşıq saçdı,
Qaranlıqlar
Qorxub qaçdı.

Açıldı xoş
Səhərimiz.
İşıqlandı
Şəhərimiz.

### ŞƏHİDLƏR

Azadlıq uğrunda siz
Canınızdan keçdiniz.
O dəhşətli günlərdə
Şərəfli yol seçdiniz.

Qəlbimizdə yaşayır
Hər bir zaman şəhidlər.
Azadlığın rəmzidir
O qəhrəman şəhidlər.

### KƏPƏNƏK

Bəzəkli bir çiçəyə
Uçub qondu kəpənək.
Çiçəyin şirəsini
Sorub doydu kəpənək.

Heç seçə bilmədim mən
Kəpənəyi çiçəkdən.
Çiçəyin ləçəyi tək
Yellənirdi kəpənək.